ƏFLATUN MƏMMƏDOV

MƏSİM MÜƏLLİMİN

ŞƏRƏFLİ ÖMÜR YOLU

Bu kitab atam Məsim Yusif oğlu
Məmmədovun parlaq xatirəsinə
ithaf olunur

BAKI – 2014

Kitabın ideya müəllifi və sponsoru: **Əflatun Məsim oğlu Məmmədov**

Müəllif heyəti: **Əflatun Məsim oğlu Məmmədov**
Azər İsmixan oğlu Əbilov
Qədim Şərif oğlu Əhmədov
Ayel Lütfiyar oğlu Məmmədov

Redaktə etdilər: **Müəllif heyəti**
Korrektor: **Fəridə Ələsgərli**

Əflatun Məmmədov. "Məsim müəllimin şərəfli ömür yolu".
Bakı, 2014. 292 səh.



«Şərəflidir, əgər yaxşı adla ölsəm mən,
Mənə ad qalacaq, öləcək bədən!»

«Qabusnamə»

TƏRCÜMEYİ-HAL

Məmmədov Məsim Yusif oğlu 10 iyul 1937-ci ildə Ermənistanın Quqark rayonunun Arçut kəndində anadan olmuşdur. 1952-ci ildə Arçut kənd yeddiillik məktəbini bitirmiş və təhsilini 1953-cü ildə Spitak (Hamamlı) rayonunun Saral kənd orta məktəbində davam etdirmişdir.

Məsim müəllim 1955-ci ildə Saral kənd orta məktəbini bitirərək elə həmin ildə Nəsirəddin Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universite-tinin fizika-riyaziyyat fakültəsinə qəbul olmuşdur. 1959-cu ildə bu təhsil ocağını müvəffəqiyyətlə başa çatdıran Məsim müəllim təyinatla öz doğma kəndlərindəki orta məktəbə müəllim göndərilmişdir. Bu məktəbdə Məsim müəllim gənc kadr kimi öz bacarığı və qabiliyyəti, eyni zamanda öz savadı və çevikliyi ilə digər müəllimlərdən daima fərqlənmişdir. Üç il sıravi müəllim işlədikdən sonra bacarığına və fitri istedadına görə 1962-ci ildən ömrünün sonunadək Arçut kənd orta məktəbində dərs-hissə müdiri vəzifəsində işləmişdir.

İşlədiyi müddətdə şagirdlərin hərtərəfli biliklərə yiyələnməsi qayğısına qalmış, gənc müəllimlərə metodik göstərişlər vermiş, onların hazırlıq vəziyyətlərinə nəzarət etmişdir. Məhz buna görə də Məsim Məmmədov nümunəvi pedaqoji fəaliyyətinə görə rayon Təhsil şöbəsinin rəhbərliyi tərəfindən dəfələrlə "Təşəkkür" və "Fəxri Fərman"la təltif edilmiş, eyni zamanda kütləvi informasiya vasitələrində onun haqqında ardıcıl məqalələr dərc edilmişdir. 1976-cı ildə üstün pedaqoji fəaliyyətinə görə Ermənistan Respublikasının Maarif Nazirliyi tərəfindən "Əməkdar Maarif əlaçısı" ordeni ilə də təltif olunmuşdur.

Öz sənəti, işi-gücü ilə cəmiyyətə xeyir verən insanlardan hesab olunan Məsim müəllimin dəyərli fəaliyyətindən çoxları faydalanmışdır. Çoxlarına örnək olan Məsim müəllimin yetişdirmələri müstəqil Respublikamızın müxtəlif sahələrində əmək rəşadəti göstərirlər.


Məsim müəllim 4 oğul, 2 qız atasıdır.


Cəmi 49 illik ömür sürmüş Məsim Yusif oğlu Məmmədov mənalı və dəyərli həyatı ilə çoxlarının yaddaşında iz qoyaraq 1986-cı il fevralın 18-ində həyatdan əbədi olaraq köçmüşdür. Ruhu şad, məkanı cənnət olsun. Amin!!!

Allah rəhmət eləsin!...



Məsim müəllimin atası Yusif kişi ilə anası Tükəzban xanımın xatirə şəkilləri... Allah onlara rəhmət eləsin!..


Sarıgül
Məsim
Sənubər
Cahan
Mahizər
Yasın
Simuzər
Məhəmməd



Məsim müəllimin böyüyüb boya-başa çatdığı ata yurdu...



K.Nəzrin



K.Xeyrulla



H.Rüqəyya



M.Dəniz



M.Yusif



M.Emin



K.Mahir- K.Gülsün



M.Müşviq



H.Emin- H.Günel



M.Elyar- M.Günel



M.Tükəzban



M.Məsim-M.Sərən



M.Tural-M.Aysel



Məmmədov Mübariz

Məmmədova Pakizə



Məmmədov Tahir

Məmmədova Sona



Məmmədov Əflatun

Məmmədova



Məmmədov M
1937-1986



Eminova Tükəzban Alı qızı
1898-1974

Eminov Yusif Məmməd oğlu
1900-1991

AİLƏ


M.Aytən
E.Əlihüseyin
M.Lamiyə
M.Güllər
M.Kənan
M.Nihat
M.Nigar
Nurcahan
Eminov Rafiq
Eminova İradə
Məmmədov Natiq
Məmmədova Elnarə
Məmmədov Namiq
Məmmədova Nailə
əsim
Məmmədova Güllər
1935-2008
Eminova Tamaşa Xəlil qızı
1908-1985
Eminov Teymur Əhməd oğlu
1905-1969
AĞACI



Mərhumun qəbri doğulduğu torpağında (Arçutda) olduğundan, onun xatirəsini yad etmək üçün şəkli həyat yoldaşının başdaşına həkk olunmuşdur...



Mərhum Məsim Məmmədov Ermənistan Respublikası Quqark rayonu Arçut kəndində öz doğmalarının yanında 20.02.1986-cı ildə dəfn edilmişdir.



«Uğur məbədində açıq qapılar yoxdur. Ora daxil olmaq istəyən özü üçün qapı açmalıdır və bu yeni qapı onun arxasınca elə möhkəm örtülür ki, hətta övladları belə zəhmət çəkmədən oraya daxil ola bilmirlər».

Ç.Marden

ÖN SÖZ



«Ömür qısadır, lakin insan onu öz uşaqlarının ömründə yenidən yaşaya bilər».
(A.Frans)

Bəzən adama elə gəlir ki, yaxından tanıdığın, bələd olduğun, hörmət elədiyin, sevdiyin insan haqqında danışmaq, söz demək çox asandır. Ancaq həmin an yetişəndə yanıldığını duyursan. Bəlkə də bu, qəlbindəki şirin duyğuların, xoş hisslərin çoxluğundan irəli gəlir. İlk anda bu duyğuları ifadə etmək üçün münasib söz, tutarlı ifadə tapmayacağını güman edirsən.

Bu yazını yazmağa başlayanda həmin hissləri yaşamağa başladım və nədən, necə başlayacağımı bilmədim. Haqqında danışacağım şəxs məni dünyaya gətirən və ömür yolumda qolumdan tutub yeritmiş və həyatımda işıqlı xatirələr qoymuş atam Məsim Yusif oğlu Məmmədovdur. Atamın Pəmbək mahalında nüfuzlu, ziyalılar arasında daima adı çəkilən kənd məktəbimizdə təhsilin inkişafında böyük rolu olmuş və bir çox savadlı tələbələrin, o cümlədən onların mühəndis, həkim, alim, professor kimi yetişmələrində böyük əməyi olmuş nəcib və xeyirxah bir insan kimi bu gün də onu sevənlərin xatirələrində yaşayır. Bütün bunları atam olduğu üçün deyil, bu kitabda yazılan və atama yaxın olan, onu tanıyan insanların yazdıqları fikirlərə əsaslanıb bu sözləri deyirəm.

Bir ayrıdır tamam ayrı,
Ziyalının iç dünyası...
Həmsöhbəti kitablardır,
Kəlam dolu hər səhifəsi...

Bizi dünyaya gətirən, yaddaşımıza parlaq işıq salan, qəlbimizi nurlandıran, ruhumuza yaşamaq eşqi verən o uca varlıq – valideyn və valideynlik duyğusuyla bağlı hər bir xatirə, hadisə, fakt, anlar və s. «özünü-dərk» fəlsəfəsinə yaxından kömək edən başlıca amillərdir.

Mən onun hamıya bəlli olan elmi fəaliyyətindən deyil, bəlkə də çoxlarının bilmədiyi insani keyfiyyətlərindən və onunla bağlı xatirələrdən sizə danışmaq istəyirəm.

Atam yaxınlarına tələbkar olmaqla yanaşı, eyni zamanda nüfuzlu, ciddi bir şəxsiyyət idi. Ailədə, məişətdə, sosial ünsiyyətdə həm çətin, həm də asan adam idi. Çətin idi ona görə ki, qeyri-ciddi, səviyyəsiz məsələlər xoşuna gəlmirdi və dərhal da sərt təpki göstərirdi. Asan tərəfi isə ondan ibarət idi ki, düzgün hərəkət, oturuş-duruşunu bilən, işlərində fərqlənən, bir sözlə, yaramazlıqdan uzaq olan xüsusiyyətlərə sahib olmalı idin. Bunlar isə hər yaş dövrünə uyğun olaraq heç də asan məsələlər deyildi.

Evimiz həmişə qonaq-qaralı olardı. Anam Güllər xanım heç darılmadan, yorulub usanmadan həmişə atamın qonaqlarını gülərüzlə qarşılayar və Allahın nazı-nemətlərindən dadlı süfrələr hazırlayardı. El-obada Güllər xanımın çeşid-çeşid «turşusu» adı ilə tanınardı. Atam bağçamızda adı məşhur olan «Göyçə-Sultan» alça ağacının altında istirahət guşəsi düzəltmişdi. Yoldan keçən qonum-qonşuların birini-digərindən ayırmadan çox səmimiyyətlə bağçaya dəvət edərdi. Hətta süfrə yoldaşları yerin darlığından giley edəndə, rəhmətlik atam həmişə deyərdi: «Mən onları öz bağçama dəvət edirəm, sizə yox». Qonaq bizim ola-ola, hətta evin qonaqları biri digərini «qısqanırdılar». Sonra da davam edib deyərdi: «Unutmayın ki, ruzini Allah qonağından əvvəl yetirir». Atamın əmisi oğlu Aşıq Rza bizim evin tədbirlərinə həmişə dəvətli idi. Xatırlayıram bir dəfə atam dedi: "Aşığı çağır gəlsin, qonağımız olacaq!.." Aşıq Rzanın da bir adəti var idi. Əvvəlcə özü gələrdi ki, qonaqların kimliyini və tədbirin səviyyəsini baxıb görsün və ona görə işini bilsin. Eyni zamanda, qapıya çatar-çatmaz həmişə əlini yuyardı. Sonra isə, vəziyyətə görə oğlu Adilə deyərdi: «A bala, di get sazı gətir!». Rəhmətlik atam bir dəfə zarafatla dedi: «Aşıq Sahibinin atasına Allah rəhmət eləsin! Səni bu gün saz çalmağa yox, gərmə kəsdirməyə çağırmışam. Əlini yumasan da olar!». Atamda həmişə yüksək yumor hissi vardı və yerində yaxınları ilə ünsiyyətdə işlədirdi. Bu, hamının əhval-ruhiyyəsini düzəldirdi. Rəhmətliklər indi aramızda yoxdurlar. Atamın bir də rəhmətlik Oruc

dayımla həmişə ciddi zarafatı olurdu. Anam Güllər xanım «xoruzbeçə» bişirəndə onlar tikələri xoruzbeçə sayına görə təxmin edər və Güllərə zarafatla: «yəqin ki, Güllər bişirdiyini yarıbayarı uşaqlarını nəzərə alaraq ata malı kimi bölübdür», deyər və gülüşərdilər. Bizdə də ki, maşallah, bağça böyük, çolpa bol...

Atamla bağlı bir hadisəni də yaxşı xatırlayıram. Xalam qızına Gədəbəydən bir qrup ziyalının müşayiəti ilə elçi gəlmişdilər. Bəlli ki, Gədəbəy ziyalıları çal-çağırlı, şeir-sənətə bağlı camaat kimi fərqlənirlər. Bu tədbirə atam maarif şöbəsində iclasda olduğu üçün bir az gec gəlir və görəndə ki, aləm qarışıb, hamı şeir, sənət, musiqi boxçasından olub-qopanlarını ortaya qoyub. O da eləmir tənbəllik, özünü təqdim edir, «xoş gəldin», və ədəb qaydalarından sonra uca səslə hamının eşidəcəyi səsdə Mikayıl Müşfiqdən bir parça şeir söyləyir. Şeirdə belə deyilirdi:

«Anasız çocuğa dayə gərəkdir,
Şairə ilhamdan maya gərəkdir...
Hər yerindən qalxan şairəm deyir
İnsanın üzündə həya gərəkdir!»

Bu şeirdən sonra süfrədə bir qədər səssizlik yaranır. Daha sonra duzlu-məzəli, mənalı şeir, sənətlə məclis daha da rəngarəng çıxışlarla davam edir. Hələ də həmin məclisdə atamı xatırlayıb o mənalı günləri nə yaxşı ki, ananlar var!..

Bir də amansız əcəl vaxtsız atamı yaxaladığı gün də bir inanılmaz hadisə işlədiyi kollektivdə hamının gözü önündə baş verir. Sanki, bu bir möcüzə idi. Belə ki, 35 il başının üstündə asılı olan portretin, pəncərədən içəri daxil olan bir quş üzərinə qonması ilə onun oradan atamın başına düşməsi bir olub və bunu özü zarafatla «bu bir şahlıq quşudur, hər kəsin başına qonmaz, ya da nəyəsə örtülü bir xəbərdarlıqdır» deyib... Nəhayət, onun aramızdan vaxtsız gedişi belə bir möcüzə ilə əvvəlcədən sanki ürəyinə dammış bir gerçək hiss nə yazıq ki, baş tutmuşdur. Buna kimsə inanmasa da, həmin günü yada salarkən həmkar müəllim yoldaşları heyrətlərini gizlətmədən danışırlar... Allah rəhmət eləsin! Bu hadisə uca Tanrının yaxın sevdiklərini öz yanına vaxtından tez aparmasına bir işarət kimi də yozulmaqdadır...

Birdə onu xatırlamaq yerinə düşərdi ki, rəhmətlik anası Tükəzban nənəm həmişə atamın ehtiyatlı davranmasını, xüsusilə də ermənilərin içində işi ilə əlaqədar tez-tez olma zərurətindən irəli gələn ehtiyat tədbirləri əldən verməməyi məsləhət görərdi. Hətta xatırladığım, heç vaxt unutmayacağım bir hikməti yada salmaq yerinə düşərdi.

«Səni sevəməyənlər çoxdur, ayıq ol!
Ətrafın paxıldır yatma, sayıq ol...
Qəflətdə keçməsin bir anın sənin
Zənn etmə qəflətdə yatıb düşmənin!..»

Bu misraların mənasına vararaq atam öz bildiklərini də əlavə edib və həmişə anasına deyərdi: – *«Allah məni yaxınlarımdan qorusun,*
Düşmənlərimdən mən öz-özümü qoruyaram!..»

Burada Məsim müəllimin və onun həyat yaradıcılığı ətraflı təhlil olunduğu üçün bir məqama da toxunmamaq və üzərindən də asanlıqla keçmək olmur... Belə ki, onun fədakar, alicənab və etibarlı dostluq münasibətlərindən faydalanmış bəzi nankorlar da az olmayıb...

Bütün bunlarla yanaşı, xüsusi olaraq, bir məsələni də qeyd və etiraf etmək yerinə düşərdi... Məsim müəllimin parlaq zəkası, üstün pedaqoji fəaliyyətinə yaxşı mənada həsəd aparmamaq da olmurdu. Odur ki, onunla çiyin-çiyinə çalışan, sıx əlaqədə olan peşəkar müəllim-pedaqoq həmkarlarının təbirincə desək, bu üstün məziyyət və keyfiyyətlərinə görə bəzən ona qarşı olan açıq-aşkar qısqanclıq hisslərini gizlətməyənlər də tapılırdı...

Yuxarıda qeyd olunanları nəzərə alaraq, Məsim müəllim bir ata, müəllim və el-obanın tanınmış ziyalısı kimi, sözün əsl mənasında o böyük insana bu günün prizmasından yanaşanda, aşağıdakı keyfiyyətlərə xüsusiyyətlərə sahib olduğuna bir daha şahid olduğumuzu xüsusilə vurğulamaq istərdim:

- şəxsi məsləyindən irəli gələn astronomik tədqiqatların, göy cisimlərinin, astrologiya (nücum) elminin şagirdlər və o cümlədən bu sahəyə maraq göstərən ziyalılar tərəfindən mənimsənilməsində fizika, riyaziyyat, həndəsə elmləri ilə paralel əlaqələndirilməsində üstün təfəkkürə sahib bir müəllim kimi;

- təbiət vurğunu, sənətə qiymət verən, musiqini dəyərləndirən və bilavasitə musiqi ilə yaşayan, onunla nəfəs alan, şeir sənətini uca tutan, şeiriyyata qəlbən bağlı olan, ensiklopedik hafizəyə sahib olan bir ziyalı kimi;

- fitri istedadlı, hərtərəfli inkişaf etmiş elm sahibi, tarixi araşdırmaları sevən, tarixi şəxsiyyətləri dərindən təhlil edən və onların ibrətamiz tərəflərini dəyərləndirən analitik kimi;

- Azərbaycan dilinə hörmət edən və dilimizin izahlı lüğətini daim araşdıran və aydın nitq qabiliyyətinə sahib və o cümlədən özünəməxsus bəlağətli nitqi, sətiraltı mənalı ifadələri sevən, yerində tətbiq edən bir istedad sahibi kimi;

- özünü və şəxsi marağını düşünməyən fədakar bir insan kimi;

- sadə, təvazökar, nəcib, əliaçıq, səxavətli, alicənab, mehriban, vicdanlı və prinsipial el oğlu kimi;

- el-obanın xeyir-şərində yaxından iştirak və bilavasitə rəhbərlik edən xeyirxah adam kimi.

Məsim müəllim sanki obasının xeyirxah bir xilaskarı idi. Ona yaxın olan, onu tanıyan bir çox insanlar, ona ərklə yaxınlaşaraq, öz dərdlərini və şikayətlərini çəkinmədən bildirirdilər. Məsim müəllim isə onlara diqqətlə əvvəldən axıra qədər qulaq asaraq, dərdlərinə şərik olur və onların hər birinə əlindən gələn mümkün olan köməkliyi edirdi. Məsim müəllim kasıbların, imkansızların «əlindən tutub yuxarı qaldırmağı», onlara bacardığı qədər dəstək olmağı, arxa-dayaq durmağı sevən bir insan idi. Bu yerdə belə bir ibrətamiz misalı xatırlatmaq yerinə düşərdi:

«Arxalıya arxa durma, deməsinlər, yamaqdır,
Arxasıza arxa dur ki, desinlər ki, dayaqdır!..»

Bəli, Məsim müəllim sözün həqiqi mənasında elinin hər bir kəsinin arxasında duran bir dayaq-ziyalı idi.

Əgər bu gün cəmiyyət arasında, təvazökarlıqdan uzaq, müəyyən nüfuza, birgə çalışdığım kollektiv arasında hörmətlə qarşılanıramsa, buna görə mən ilk növbədə atama borcluyam. Bütün həyatım, fəaliyyət və yaradıcılığım boyu mənim mənəvi inkişafımda atamda olan bu keyfiyyətlərin öz yeri var və bunlara görə də atama olan minnətdarlıq hisslərim əbədidir. Çünki, «mən onun başqa formada özüyəm». Burada atam haqqındakı yazılan xatirələrin hər birini oxuduqca insan çox

duyğulanır və sanki bir anlıq keçmişə qayıdaraq yaddaşını təzələyir və o günləri bir daha yaşayır.

Bunun üçün də atama, onun əqidəsinə yaxın olan, əmək fəaliyyətində birgə çalışan, isti münasibətlər qurmuş, qarşılıqlı hörmət qazanan insanların, o cümlədən ziyalı, ağsaqqal və sayılıb-seçilən həmkarlarının yazdıqları xatirələrinə görə də onlara əvvəlcədən öz təşəkkürlərimi bildirirəm. Eyni zamanda, redaksiya heyəti adından da bu kitabın gələcək oxucularına, o cümlədən mütaliəçilərinə də minnətdarlığımızı bildiririk. Həmin kitabda Məsim müəllimin şəxsiyyətinə, onun ocağına hörməti olanların yalnız bir qisminin xatirələri yer almışdır. Onun şəxsiyyətini, ziyalı mənliyini tam açmaq üçün bu heç də kifayət deyil. Hələ nə qədər xatirələr toplanılmalıdır.

Bu sözləri atam olduğu üçün deyil, soykökümüzün (Eminlər tayfasının) bir ziyalısı olduğu üçün iftixar hissi ilə aşağıdakıları qeyd etmək yerinə düşərdi.

Tarixi var şərəflidir, Eminsoyun şəcərəsi,
Memarları ziyalıdır, bunu deyir tanıyanın hər bir kəsi...

Bu kitabda atamı sevənlərlə birgə onun keçmişinə, öz dünyasına səyahət etdik, xatırladıq, kövrək hisslərimizi paylaşdıq. Eyni zamanda, amansız əcəlin ona imkan vermədiyi, o cümlədən onun ailə-məişət məsələlərində yarımçıq qalan işlərini, arzu, istək və bütün nigaranlıqlarını davam etdirməyə bacardığım qədər çalışdım. Ona layiq övlad olmaq və övladlıq borcumun yerinə yetirilməsi mənə mənəviyyatca qismən təskin edir, ruhumu təzələyir və eyni zamanda, bunlara görə təsəlli tapıram. Allah ona rəhmət eləsin. Ruhu şad olsun!

Müəllif heyəti, eyni zamanda atamla bağlı xoş düşüncələrini və ülvi hisslərini paylaşdığı uçün qələmə alınan kitabın mövzusuna görə hər kəsə can sağlığı diləyir və şükranlarını bildirir... Nəhayət

«Ot kök üstə bitər, əsli nə isə,
Yovşan bəsləməklə, cəmən-zər olmaz!..»

Məmmədov Namiq Məsim oğlu

(Məsim müəllimin sonbeşiyi)



1976-cı ildə Arçut kəndində doğulmuş, 1988-ci ildə Bakı şəhərinə köçmüş (məlum hadisələrlə əlaqədar) və burada təhsilini davam etdirmiş, Azərbaycan İqtisadiyyat Universitetini, daha sonra Bakı Dövlət Universitetini bitirmiş və hal-hazırda «Caspel» şirkətinin Prezidenti vəzifəsində fəaliyyətini davam etdirir.

Ön sözdə böyük qardaşım Əflatunun qeyd-şərhlərinə əlavə olaraq minnətdarlıq hissi ilə yazılmış ürək sözlərim

«Hər bir ata istəyər ki, onun edə bilmədiklərini oğlu həyata keçirsin».

(İ.Höte)

Atam dünyasını dəyişəndə mənim yaşım az idi. Atamı necə xatırlayıram?...

Hər şeydən əvvəl mən evin sonbeşiyi olduğum üçün, atam rəhmətlik indi istəməsin, məni çox istəyirdi. Bu səbəbdən də mənim adımı Namiq yox əzizləmə məqsədilə «Yınıka» deyə çağırardı. Yeri gəlmişkən, mənim böyüklərim və doğmalarım atamın dilindən məni bu gün də bu adla çağırırlar və bu adı atamın qoyduğu üçün mənə belə müraciət edildiyində xoş təsir bağışlayır. Mənim yadımda atam xoş xatirələrlə iz buraxmışdır. Yuxarıda qeyd etdiyim kimi, atam ələlxüsus mənə qarşı xüsusi yanaşdığı üçün məni bir az da «ərköyün» böyütmüşdür. Belə ki, bağçaya getdiyim gündən başlayaraq, məktəbli illərində də atamın yanına ürəklə gedər, qapısını ərklə açardım və bu da atam tərəfindən xoş qarşılanardı. Hətta bir neçə dəfə qucaqlayıb öpərək əlimdən tutub şəklimi də çəkdirmişdi.

Atam müəllimlər otağında məni qarşılayar, onun «seyf-kassasında» yaxşı nə var idisə mütləq onlardan ən yaxşısını mənə verərdi.

Hətta xatırlayıram atam evə gələndə də həmişə mənə cibində nəsə bir şey gətirərdi. Yeyib-içdiyi məclislərdən «səkil-tikələr» bükdürərək mənim payımı ayrıca gətirərdi. Xüsusi şokoladlar da həmişə cibində olardı.... Bu atamın mənə olan hədsiz sevgisini ifadə edirdi. Etiraf edirəm

ki, atam digər böyük qardaş-bacılarıma bu qədər yaxınlıq göstərməzdi. Eyni zamanda, atamın bu cəhəti xarakterinin sərtliyindən də irəli gəlirdi. Nə isə, bu xatirələri düşündükcə çox kövrəlirəm, o günlər gözümün önünə gəlir və atamı bir an da olsa unuda bilmirəm...

Çox yaxşı yadımdadır, atam dünyasını dəyişəndə mənim 10 yaşım olardı və hər şeyi çox yaxşı xatırlayıram. Biləyindəki saat öləndə işləyirdi. Mən qışqıraraq deyirdim ki, atam ölməyib, çünki, biləyindəki saat hələ işləyir!.. Uşaq ağlım və bir də ki, atamın ölümünü qəbul edə bilməməyim, eyni zamanda qarışıq hisslərim buna yol vermirdi...

Daha sonra atamla bağlı məlumatları onun çiyin-çiyinə çalışdığı müəllim kollektivi, kəndin ziyalıları, o cümlədən ağsaqqallarının xatirələrini oxuyub dinlədikcə onu yenidən tanımağa və çətin də olsa onun dünyasına girməyə çalışıram. Bu kitabda böyük qardaşım Əflatun (yeri gəlmişkən öz minnətdarlığımı bildirirəm. Çünki, atamıın öz keçmişini yenidən bizə bu gününün aktuallığı baxımından təqdim etdi) atamın həyat fəaliyyətini dərindən təhlil etməyə çalışmış və həmkarlarının gözündə, düşüncələrində, xatirələrində yaşadığı gerçəkləri qələmə almış və gələcək nəsil üçün yaddaşlarda unudulmaz ibrətamiz bir iz qoymuşdur.

Sonda atama hörməti olan, o cümlədən isti münasibət bəsləmiş bütün həmkarlarına, yaxın və doğmalarına təşəkkürümü bildirirəm. Dünyasını dəyişənlərə Allah rəhmət eləsin! Məkanları cənnət olsun! Amin!..

Hörmətlə: Məsim müəllimin sonbeşiyi, onun Yınıkası



«Şeirdən və şairdən umduğumuz əsas şey hisslərimizin poetik ifadəsidir»

A.Bennet

Ata adı və onun ucalığı ilə bağlı yazılmış müxtəlif söz-sənət sahiblərinin şeir, sənət və dərin ifadələrindən bəhrələnərək, atama bəslədiyim kövrək hissləri yada salmaq üçün aşağıdakı seçilmiş şeir və bayatıları qeyd etmək yerinə düşərdi.

Etməsin heç kəsi qoy Haqqu-Təala atasız,
Yoxdu beş günlük olan ömürdə məna atasız.

Necə izah eləyim mən bu dərin dəryanı,
Çünki, yazmaqla qurtarmaz bu böyük mənanı.
Necə dost, qohum ilə sürəsən dünyanı?
Ata yoxdursa, demək boşdu bu dünya atasız!..

Bir kəsinki ola var dövləti cahu-cəlalı,
Xalq arasında şanı, şöhrəti əqli-kamalı,
Ola qardaş bacısı, dostları əhli-əyalı,
Yenə hiss eylər özün dəhridə tənha atasız!..

Sevsə hər kim atanın saxlasa gəl hörmətini,
Allah o kəsdən əsirgəməz öz rəhmətini,
Atanın qədrini bil, vurma yerə zəhmətini,
Çox çətindir eləmək bir işi bərpa atasız!..

Tanrı xəlq eyləyib insanı gətirdikdə cana,
Bəxş eyləyər valideyin vasitəsiylə cahana,
Nə qədər dahi müqəddəs böyük ad olsa da ANA...
Gələ bilməz həyata bir uşaq əsla atasız!..

Ata haqqında bunu söyləməyə haqqım var,
Onu inkar edən Allahını eylər inkar...
Ey İlahi, məni qoy əlsiz, ayaqsız bimar,
Rəhm eylə Pərvizi, amma, qoyma atasız!..

Pərviz

Atadır yurdun sınmaz dirəyi,
Övladçün əzizdir şanı sorağı...
Övladın dayağı, qəlbdən sevəni
Arxası, baş tacı, ümid çırağı...

Ananı atadan ayırma heç vaxt,
Onlar bir yuvada cüt qoşa qanad...
Şirin bəhrəsidir, sevimli həyat,
Odlu-gözlü sönməz ocaqdır ata...

Ata olan yurddan kədər uzaqdı,
Düşmən bata bilməz neçə ki, sağdı...
Atasız bir övlad bağbansız bağdı,
Bağa həyat verən bulaqdır ata...

Sən bir tarix idin dərin-dərin,
Açan bir gül idin baharda, yazda...
Gəlir qəlbimizə xatirələrin,
Xəyalın yaşayır yaddaşlarımızda...

Yenə kədərlisən, yenə qəmlisən,
Dil açıb nəğmən də könül bağında...
Yolunu gözləyir o doğma məktəb,
Yolunu gözləyir qohumların da...

Biz doya bilmədik məhəbbətindən,
Sevincin bizdədir, ahın bizdədir...
Haqqa qovuşanda qəlbimizdə sən,
Cəsədin torpaqda, ruhun bizdədir...

Bilirsənmi ata kimdi,
Sən onu atasız olandan soruş.
Körpə yaşlardan boynunu bükən,
Hər şeyə tamarzı qalandan soruş.

Əyninə bir nimdaş pencək geyinən,
Tapdığı tikəni xəlvət yeyəndə,
Kimsə atasına ata deyəndə,
Gözləri buludtək dolandan soruş...

Yaqub oğlu, bir gün ağlar, bir gün gülər,
Atasız olanlar göz yaşın silər...
Atanın qədrini kim yaxşı bilər,
Sən onu öz doğma balandan soruş...

Bizə həyat verənimiz,
Canımızda candı ata...
Odur ikinci Tanrımız,
Sanki, din-imandı ata...

Vüqarlı dağdı övlada,
Əvəzi yox bu dünyada...
Gahdan dönər sərt polada,
Gah da mehribandı ata...

Dara düşsək əlacımız,
Xəstələnsək ilacımız,
Odur bizim baş tacımız,
Təxi-Süleymandı ata...

Ata qüvvətimsən, ata qolumsan
Ata qibləgahım - düzgün yolumsan...

Canımızda candı ata, candan əziz candı ata,
Qoymayın onu sönməyə, evdə yanan şamdı ata...

Namərdlə mərdi tanı, el sevər mərd atanı...
Oğul fərsiz çıxanda, öldürər dərd atanı...

ATA

Əzəl gündən, son günədək dünyada,
Atadır arxanda dağ təki duran.
Əgər öz övladı qalarsa darda,
Özünü hər oda vuran atadır.

Övladçün xoş günlər çox olsun
Çalışan atadır, quran atadır.
...bəy atanın qədrini sən bil
Onun qarşısında hər an sən əyil.

Çünki, düşünən övladı hər an atadır,
Çalışan atadır, quran atadır.

ATA

Tapın sevincimi gətirin mənə
Çünki, ən müqəddəs anım atadır.
Təhsilim, savadım, evim-eşiyim,
Şöhrətim atadır, şanım atadır.

Ata əjdadımın köküklü payı,
Ata qeyrət namı, ata nur payı.
Ata ürəyimin haqqı-harayı,
Hökm edən sultanım, şanım atadır.

Zərdən imarətim, qızıldan tacım,
Aydan iltimasım, günəşdən bağım.
Basılmaz torpağım, Misri qılıncım,
Hökm edən sultanım, şanım atadır.

Redaksiya heyəti adından bu kitabı oxuyacaq oxuculara, minnətdarlığımızı bildiririk. Həmin kitabda Məsim şəxsiyyətinə, Məsim ocağına hörməti olanların yalnız az bir qisminin xatirələri yer almışdır. Onun şəxsiyyətini, ziyalı mənliyini tam açmaq üçün bu heç də kifayət deyil. Hələ nə qədər xatirələr toplanılmalıdır.

O, həm də bir ata kimi övladlarının tərbiyəsinə fikir vermişdir. Ata varlığının nə qədər uca tutulmağını bilmək üçün sonda oxucularımıza Aşıq Ziyəddin Borçalının və Pərvanə xanımın iki şeirini təqdim edirik.

ATA

Aşıq Ziyəddin Borçalı

Qulam qulluğunda bir oğul kimi,
Könlümün sultanı, şahıdı ata.
Bəşər dünyasında düz yol göstərən,
Alimdi, aqildi, dahidi ata.

Ana müqəddəsdi, dürdü gözümdə,
Ata uca dağdı, Turdu gözümdə,

Ana bir Günəşdi, nurdu gözümdə,
Göylər aləminin mahıdı ata.


Ziyəddin qəm çəkir, ömrü gödəli,
Oxşamaz könlünü, heç bir yad əli.
Bu fani dünyadan köçüb gedəli,
Kövrələn qəlbimin ahıdı ata.



«Hər bir insan öz uğurunun memarıdır».

Q.Sallyusti

Əliyev Məhəmməd



Uzun müddət Arçut kənd orta məktəbində direktor işləmişdir... Hal-hazırda Bakı şəhərində məskunlaşmış və əmək fəaliyyətini də burada davam etdirməkdədir.

HÖRMƏTƏ LAYİQ İNSAN

Qəlbi asimantək geniş, dağlar kimi qürurlu bir ziyalı şəxsiyyətin mənalı ömür yoluna nəzər salıram. Enişli-yoxuşlu dağ yolunu xatırladan bu ömrün hər anı qiymətli, dəyərlidir. Sadə və səmimi insan, dəyərli şəxsiyyət, təcrübəli pedaqoqlarının və ömrünün 26 ilini gənc nəslin təlim-tərbiyəsinə həsr edən müəllim Məsim Yusif oğlu Məmmədovun həyat yolu barədə söhbət açmaq istəyirəm.

Bütöv bir ömrünü maarifçiliyimizin inkişafına və tərəqqisinə, gənc nəslin təlim-tərbiyəsinə həsr edən bu gözəl şəxsiyyət indi aramızda olmasa da, onun əziz xatirəsi qədirbilən insanların qəlbində yaşayır, kövrək duyğularla daima yad edilir.

Allah rəhmət eləsin!

Məsim Məmmədov 1952-ci ildə Arçut kənd yeddiillik məktəbini bitirib, təhsilini 1953-cü ildən Spitak (Hamamlı) rayonunun Saral kənd orta məktəbində davam etdirib. O, onuncu sinifdə oxuyarkən, Spitak (Hamamlı) rayon Təhsil Şöbəsinin inspektoru Barseksiyan Saral kənd orta məktəbində təlim-tərbiyənin vəziyyətini yoxlamağa gəlir. X sinifdə Cəbr və analizin başlanğıcı fənnindən yoxlama verir. Məsim oturan sıraya 2-ci variant düşür. O, variantın 1-ci misalını tez həll edib, 2-ci misalın verilişini yazıb həllinə başlayır. Misalın açılışını edir. Görür ki, bu açılış heç bir riyazi qanuna uyğun gəlmir. Tez müəllimə müraciət edib bildirir ki, 2-ci misalın verilişində səhv var. Misalı həll edirəm, çox qəribə bir vəziyyət yaranır. Davam etdirmək olmur. Müəllim işə qarışır. İnspektorlar zərfi açıb verilişi yoxlayanda məlum olur ki, həqiqətən misalı lövhəyə yazanda 2x2 əvəzinə 2x yazılır. Düzəlişdən sonra Məsim misalları tez həll edərək, təhvil verib sinifdən çıxır. Zəng vurulandan

sonra Rayon Təhsil Şöbəsinin inspektoru, Məsimi şagirdlərin qarşısına çağırıb ona təşəkkür edir və başını sığallayaraq, «Səndən yaxşı riyaziyyatçı olar» deyib.

O, 1954-55-ci dərs ilində Saral kənd orta məktəbini bitirib, elə həmin il Nəsrəddin Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universitetinin fizika-riyaziyyat fakültəsinə qəbul olur.

1959-cu ildə bu təhsil ocağını uğurla bitirir. Təyinatla öz doğma kəndlərindəki orta məktəbə müəllim göndərilir. Bu məktəbdə üç il müəllim, 1962-ci ildən ömrünün sonunadək təlim-tərbiyə işləri üzrə direktor müavini işləyir. İşlədiyi müddətdə şagirdlərin hərtərəfli biliklərə yiyələnməsi qayğısına qalır, gənc müəllimlərə metodik göstərişlər verir, hərtərəfli hazırlaşmalarına nəzarət edir və icraatını yoxlayırdı.

Məhz buna görə də, M.Məmmədov nümunəvi pedaqoji fəaliyyətinə görə Rayon Təhsil Şöbəsininin rəhbərliyi tərəfindən dəfələrlə «Təşəkkür» və Fəxri Fərmanla təltif edilmişdir.

Öz sənəti, işi-gücü ilə cəmiyyətə xeyir verən insanlar hər cürə tərifə, xoş sözə layiqdir. Belə insanların dəyərli fəaliyyətindən çoxları faydalanır. Onlar həmişə eldə başı uca, üzü ağ olur. Bu ucalığın, bu yenilməzliyin arxasında mənəvi dəyərlər, insanlığa xas olan ən ülvi, pak hisslər, müsbət keyfiyyətlər durur.

Əsil pedaqoq ömrü yaşayan Məsim müəllim də məhz belələrindən biri olmuşdur.

Məsim müəllimin bir oçerkə sığmayan mənalı ömür yolunun yalnız müəyyən məqamlarının kiçik bir hissəsinə aydınlıq gətirdik.

Nümunəvi pedaqoji kollektivdə çoxlarına örnək olan bu şəxsiyyətin yetişdirmələri müstəqil respublikamızın müxtəlf sahələrində bir çox peşələrdə əmək rəşadəti göstərirlər.

Məkanı cənnət olsun. Amin!..

Həmrəy fəaliyyətin intibah nəticəsi

Arçut kəndində orta məktəbin fəaliyyətə başlaması 1937-ci ildən təsdiqlənmişdir. Məktəbin möhürü və ştampı orta məktəb möhürü və ştampı kimi hazırlanmışdır. Lakin, o zamankı kənd və məktəb rəhbərlərinin işə soyuq yanaşması ucbatından məktəb 1952-1953-cü dərs ilinin sonunadək natamam orta (yeddiillik) məktəb kimi fəaliyyət göstərmişdir. Məktəbi bitirən məzunlardan bəziləri öz ata-analarının təkidi ilə kənddə qalıb təsərrüfat işləri ilə məşğul olur, bəziləri Kirovakan şəhərində (keçmiş Qarakilsə) müxtəlif istehsalat müəssisələrində fəhləlik edir, imkanlı ailələrin oğlanları isə Saral kəndindəki orta məktəbdə təhsillərini davam etdirib orta təhsil attestatı alırdılar. Sonra da üçaylıq pedaqoji kursa gedib ibtidai məktəb müəllimi ixtisası qazanırdılar. Ümumiyyətlə, valideynlər öz qızlarını yeddiillik məktəbi bitirdikdən sonra başqa yerdə oxutmaq istəmirdilər. Bu da səbəbsiz deyildi. Bir tərəfdən elin tənəsi, digər tərəfdən də dini təsir və yoxsulluq valideynləri belə hərəkət etməyə vadar edirdi.

Gənc oğlan və qızların ailə qurması ilə əlaqədar kənd əhalisinin ildən-ilə çoxalması sayəsində məktəbyaşlı uşaqların artımı 1927-ci ildə inşa edilmiş dördotaqlı məktəb binasında həddindən artıq darısqallıq yaratdığından məktəb müdiriyyəti məcbur olub kənddə kimin otağı var idisə kirayələyib sinif otağı kimi istifadə edirdi. Bir tərəfdən ailə başçılarının elmin, təhsilin əhəmiyyətini düzgün qiymətləndirə bilməməsi, digər tərəfdən də məktəb binasındakı şəraitsizlik və ali təhsilli müəllimlərin olmaması təlim-tərbiyənin normal vəziyyətdə olmasına mənfi təsir göstərirdi. Lakin, buna baxmayaraq, müəllimlər öz işlərini çox çətinliklə də olsa görürdü. Rayon Təhsil şöbəsi şəraiti yaxşılaşdırmaq üçün təmir büdcəsi hesabına bəzən bir, bəzən də iki otaq tikdirib sinif otağı kimi istifadəyə verməklə yaranmış sıxlığı qismən aradan qaldırmağa çalışsa da, bu da uzun çəkmirdi. Belə ki, hər dərs ilində 1-ci sinifə qəbul edilən uşaqların sayı əvvəlki dərs illərindəkindən daha çox olduğundan və bir də qonşu kənd və rayonlardan orta məktəbdə oxumağa gələnlərin axını yeni sinif açmaq zərurəti yaradırdı. Yeni sinif məcburiyyətlə açılır, sıxlıq isə qalırdı. Məktəbdə şəraitin və işin dözülməz bir halda olduğu 1961-ci ilin fevral ayının 7-də məktəbin direktoru Rəcəb Həsənovu kənd camaatı yekdilliklə kolxoz sədri seçdi. Məktəbin direktoru vəzifəsinə

mən (Məhəmməd Abbas oğlu Əliyev) əmrlə təyin olundum. Əhmədov Cəlal da təlim-tərbiyə üzrə direktor müavini təyin edildi. Həmin dərs ilinin sonunda o, öz xahişi ilə öz kəndlərindəki orta məktəbə təlim-tərbiyə üzrə direktor müavini təyin edilərək çıxdı. Mənim təqdimatımla Məsim Yusif oğlu Məmmədov təlim-tərbiyə üzrə direktor müavini təyin edildi. Biz birlikdə işə başlamağımızın ilk günündən məsləhətləşərək belə qərara gəldik ki, birinci növbədə məktəbin illik təlim-tərbiyə planını yenidən işləyək. Köhnə plandakı təkrar xarakterli və bir də dövrün tələblərinə uyğun olmayan maddələri çıxartdıq. Altı bölmədən ibarət təlim-tərbiyə planını hazırladıq. Yeni hazırlanmış plan pedaqoji şurada fəsil-fəsil, maddə-maddə oxunub müzakirə edildi. Müzakirə zamanı əlavə təkliflər də oldu.

Əlavə təkliflərlə birlikdə illik təlim-tərbiyə planı təsdiq edildi. Sinif rəhbərləri, fənn komisiyaları rəhbərləri, dərnək rəhbərləri, kabinet rəhbərləri, pioner baş dəstə rəhbəri, təşkilatçı, kitabxanaçı yarımillik iş planlarını məktəbin illik təlim-tərbiyə planı əsasında onun tələblərinə tam cavab verən tərzdə tərtib edib, təsdiqlətdirərək, icraata başladılar. Şagirdlərin məktəbə davamiyyəti ciddi nəzarətə alındı, şagirdlərin dərsdən yayınmasına qarşı mübarizə gücləndirildi. Ümumi icbari məcburi təhsil qanununun tələbləri 100% təmin edildi. Valideynlər arasında "Məktəb və valideyn münasibətləri" devizi altında təbliğat işi gücləndirildi. Müəllimlərin vaxtaşırı məhəllələrdə olub şagirdlərin ev şəraiti ilə tanış olmalarına start verildi. Sinif rəhbərləri valideynlərlə müntəzəm söhbətlər aparıb, uşaqların dərsə hazırlaşmaları üçün imkan daxilində mümkün qədər yaxşı şərait yaratmalarına nail oldular.

Müəllimlərlə valideynlərin müntəzəm, ardıcıl əlaqəsini görən şagirdlər məsuliyyət hissi ilə dərsə hazırlaşmağa başladılar. Uşaqların həm gündəlik dərslərdə, həm də rüblərdə aldıqları sevindirici qiymətlər valideynləri məktəblə daha yaxın əlaqədə olmağa vadar edirdi. Təhsil Nazirinin əmrinə əsasən hər bir məktəb direktoru gündə 1 saat, təlim-tərbiyə üzrə direktor müavini də 2 saat dərs eşitməli idi. Həmin əmrin tələbinə əsasən biz hər gün dərs eşidir, müəllimə metodik göstərişlər verib dərslərə müntəzəm hazırlıqlı gəlmələrini tövsiyə edirdik. Müəllimlərin müntəzəm dərsə gəlmələrini təmin etmək üçün belə bir üsuldan istifadə etdik. Bir neçə dəfə dərsini eşidəcəyimiz müəllimi qabaqcadan xəbərdar edirdik ki, sabah sənin filan sinifdə dərsini eşidəcəyik. Müəllim

işlə məlumatlı olduğundan dərsə yaxşı hazırlaşır və həqiqətən də çox gözəl nümunəvi dərs keçirdi. Biz də eşitdiyimiz dərs barəsində öz rəyimizi bildirib, həmişə belə nümunəvi dərs keçməsini tövsiyə edir-dik. Bir neçə gündən sonra xəbərdarlıq etmədən həmin müəllimin dərsinə daxil olub eşidirdik. Xəbərdarlıq etdiyimiz dərslə xəbərdarlıqsız eşitdiyimiz dərslərin tədrisindəki təzadlı fərqi həm müəllim özü aydın görür, həm də biz soruşurduq: "Müəllim, əvvəl eşitdiyimiz dərslərlə bu gün eşitdiyimiz dərsin təzadlı fərqi nədədir?" Müəllim yalançı bəhanələrlə vəziyyətdən çıxmağa çalışırdı. Bu gec idi. Biz ona deyindik ki, dərsə yaxşı hazırlaşmayıbsan. Müəllim günahını etiraf edib üzr istəyirdi. Axırıncı dəfə xəbərdarlıq etməklə, dərsə müntəzəm hazırlıqlı gəlməsini qəti tapşırırdıq. Bu üsulu təkrar etməklə hər bir müəllimin gündəlik dərsə hazırlıqlı gəlmələrinə və keyfiyyətli dərs keçmələrinə biz nail olduq. Lakin, yeni tipli, normal şəraitli məktəb binasının olmaması, məktəbdə təlim-tərbiyənin daha yüksək səviyyədə olmasına imkan vermirdi. Belə qərara gəldik ki, yeni tipli məktəb binasının tikdirilməsinə nail olmaq üçün fəal valideynləri işə cəlb etməliyik. Belə də etdik. Onları razılaşdıraraq, onların adı ilə ərizə yazıb Təhsil Nazirliyinə ünvanladıq. Təhsil Nazirliyinin Tikinti şöbəsinin rəisi Ovaqimyanın cavabında bildirildi ki, yaxın 2-3 ilə kimi Arçut kəndində yeni tipli məktəb binasının inşasına başlanacaqdır. Bu ümidsiz cavab bizi qane etmədi. Ona görə də rayon partiya komitəsinin müxtəlif yığıncaqlarında, İcraiyyə komitəsinin sessiyalarında, təhsil şöbəsinin müşavirələrində bu məsələyə qayıdıb şəraitsizlikdən, sıxlıqdan şikayətlənib təkidlə yeni tipli məktəb binasının inşasını tələb edirdik. Rayon rəhbərləri isə yaxın gələcəkdə hər şeyin yaxşı olacağını deyir, müvəqqəti çətinliyə dözməyi tövsiyə edirdilər. Biz də məcbur olub ağır şəraitdə görəcəyimiz işləri çox çətinliklə, həm də çox məsuliyyətlə yerinə yetirirdik.

Təhsil şöbəsinin əməkdaşlarından biri bildirdi ki, 1964-cü ilin avqust konfransında Təhsil Naziri Simonyan iştirak edəcək. Bu xəbər bizim üçün çox lazımlı idi. Çünki məktəbimizdəki ağır və dözülməz sıxlıq haqqında birbaşa nazirə öz fikrimizi çatdırmaq nöqteyi-nəzərindən əlverişli fürsət yaranmışdır. Konfrans başladı. Gündəlik elan edildi. Reqlament təsdiqləndi, sonra məruzə üçün təhsil şöbəsinin müdiri Y.M.Dallakyana söz verildi. Rayon Təhsil şöbəsinin müdiri öz məruzəsində Arçut məktəbinin adını bütün sahələrdə rayonun ən qabaqcıl məktəblərinin önündə çəkərək, konfrans iştirakçılarının nəzərinə çatdırdı. Bu çox se-

vindirici idi. Çünki bu həqiqətən də belə idi. Sonra çıxışlara başlandı. 2 nəfər çıxış edəndən sonra, mənə söz verdilər. Mən çıxışıma erməni dilində başladım. İcbari təhsil qanununun tam yerinə yetirilməsini, şagirdlərin dərsə davamiyyətinin 100% olduğunu, valideynlərlə məktəb müəllimlərinin nümunəvi əlaqədə olduğunu, təmir işlərinin vaxtında aparıldığını konfrans iştirakçılarının nəzərinə daha qabarıq şəkildə çatdırdım ki, biz bu müvəffəqiyyəti məktəb binasına oxşarı olmayan, şəraitsiz 12 otaqlı səliqəsiz bir binada, dözülməz dərəcədə ağır, darısqal dərs otaqlarında çalışmaqla qazanmışıq. Mən bütövlükdə kənd camaatının, müəllimlərin və şagirdlərin xahişini cənab nazirə çatdıraraq, məktəbimizin şəraiti ilə tanış olmaq üçün kəndimizə dəvət etdim. Onu da bildirdim ki, Təhsil Nazirliyinin əməkdaşlarından son üç ildə bir nəfər də olsun bizim məktəbdə olmayıb. Əlavə olaraq bildirdim ki, Bazum kəndi bizim kəndin bir məhəlləsi böyüklükdə deyil. Hazırda orada iki mərtəbəli, normal şəraitli, müasir standartlara cavab verən yeni tipli məktəb binası inşa edilib, fəaliyyət göstərir. Yaxud Lernapad kəndi böyüklüyünə və əhalisinin sayına görə bizim kəndlə tən gəlir. Orada 2 ildir ki, müasir standartlara cavab verən 736 yerlik üç mərtəbəli təlim korpuslu yanında bir mərtəbəli idman zalı, bir mərtəbəli emalatxana ilə birlikdə bufet və akt zalı olan yeni tipli məktəb binası fəaliyyət göstərir. Eyni zamanda rayon rəhbərləri də ögeylik göstərərək, təkliflərimizi eşidir, müvəqqəti çətinlikdir deyərək, birtəhər yola getməyi tövsiyə edirlər. Bununla mən çıxışımı yekunlaşdırdım. Getmək istəyəndə nazir məni dayandırıb: "Yolüstü sabah saat 16^{00}-da sizin kənddə olacağam"- dedi. Nazir həqiqətən də dediyi vaxtda məktəbdə oldu. Onunla birlikdə rayon Partiya Komitəsinin 2-ci katibi və Təhsil şöbəsinin müdiri də gəlmişdi. Məsim müəllim vaxt itirmədən özünü təqdim etdi və onları sinif otaqlarına baxmağa dəvət etdi. Nazir və onunla gələnlər 3-4 darısqal sinif otaqlarına baxıb vəziyyətlə qismən tanış olandan sonra, nazir gəzintini dayandırıb üzünü birbaşa 2-ci katibə və şöbə müdirinə tutaraq tapşırdı ki, günü sabahdan 50 yerlik internat binasının təmir büdcəsi hesabına tikintisinə başlanılsın. Dərhal sonra 736 yerlik məktəb binasının smetası hazırlansın və 1965-ci ilin yanvar ayında inşasına başlanılsın. İkinci katib günü sabahdan internat binasının inşaatına başlayacaqlarına söz verdi. Nazir getmək istəyəndə biz onları evə qonaq dəvət etdik. Nazir razılıq bildirdi. Onlar getdilər.

Bu xoş xəbər həm müəllimlər, həm də valideynlər üçün sevindirici idi. 1964-cü ilin dekabr ayının 25-də internat binası istifadəyə verildi.

Biz məsləhətləşərək belə qərara gəldik ki, Rayon İcraiyyə Komitəsi və Təhsil şöbəsindən xahiş edək ki, internat binasını dərs ilinin sonunadək sinif otağı kimi istifadə etməyə razılıq versinlər. Elə də etdik. Razılıq verdilər.

Beləliklə, uzun-uzadı mübarizədən sonra 1965-ci ilin yanvarında 736 yerlik məktəb binasının inşasına başlanıldı. Təhsil Nazirinin qəti tələbkarlığı ilə məktəbin binası yeni dərs ilində istifadəyə verilməli idi. Ona görə də Təhsil Nazirliyinin tikinti şöbəsinin rəisi bir neçə dəfə kəndə gəlib, işin gedişatını yoxlayıb, işin sürətləndirilməsi barədə əlavə tapşırıqlar verirdi.

Nəhayət, məktəbin yeni binası 1965-ci ilin avqust ayının 25-də istifadəyə verildi. Bu, dövlətin Arçut ictimaiyyətinə ən dəyərli və gözəl töhfəsi idi.

Biz də yekdiliklə dövlətin bizə bəxş etdiyi internat və məktəb binasının müqabilində daha məsuliyyətlə, daha yüksək göstəricilərlə işləyəcəyimizə söz verdik. Əməl də etdik.

Fənn kabinetlərinin, sinif otaqlarının bölgüsünü təlim-tərbiyə üzrə direktor müavini kimi Məsim müəllim özü apardı. Məktəbdə əvvəldən olan yeni verilmiş təlim avadanlıqları kabinet rəhbərlərinə həvalə edildi. Onlar öz kabinetlərini çox böyük həvəslə bəzəyib səliqəyə saldılar. Avqust ayının 31-də məktəb və müəllim kollektivi işə başlamağa 100% hazır idi.

31 avqust nümunəvi dərs günü olduğundan bütün şagirdlər məktəbdə olmalı, dərs cədvəllərini, hansı sinif otağında oxuyacaqlarını, sinifdə hansı sırada və hansı partada oturacaqlarını bilməli idilər ki, sentyabrın birində qarmaqarışıqlıq olmasın. Ona görə də məktəbin həyəti məktəbli geyimində şagirdlər və valideynlərlə dolu idi. Usaqlarının yeni tipli təzə inşa edilmiş gözəl şəraitli binada təhsil alacaqlarını bilən qəlbi sevinclə dolu valideynlər bir-birinin əlini sıxıb təbrik edir və uşaqlarının bu təhsil ocağında mükəmməl təhsil alıb, arzu etdikləri ali məktəblərin istədikləri fakültəsində oxumaları barədə xeyir-dua verirdilər.

Məktəbin həyəti gül-çiçəkli bir çəmənliyə bənzəyirdi. Şagirdlər də bir-birini qucaqlayıb öpür, bir-birinin əllərini sıxır və bir-birinə təhsildə uğurlar, həyatda can sağlığı arzulayırdılar.

Sentyabr ayının 1-i lap səhər tezdən məktəbin həyəti şagirdlər, müəllimlər və valideynlərlə dolu idi. Kiçik bir dəniz kimi dalğalanırdı.

Hamı səbirsizliklə qırmızı lentin kəsilməsini və ilk zəngin çalınmasını gözləyirdi. Kənd rəhbərləri də bu təntənədə iştirak edirdi. Hamıya bildirilmişdi ki, bu dərs ilindən dərslər bir növbədə keçiriləcəkdir. Ona görə də hər bir sinif rəhbəri öz sinif şagirdlərini nizamla sıraya düzüb, yan-yana sıralarda ilk zəngin çalınmasını səbirsizliklə gözləyirdilər.

Mən Bilik günü haqqında çox qısa məlumat verdim və şagirdlərə uğurlar arzuladım. Məsim müəllim məktəbin rəmzi açarını birincilərə təqdim etdi. Təhsil şöbəsinin nümayəndəsi qırmızı lenti kəsdi. Zəng çalındı. Şagirdlər sıra ilə siniflərə daxil oldu. İlk dərs başlandı.

Birinci dərs gününün nəticələrinə dair pedaqoji şurada hər bir fənn kommissiyasının sədri çıxış edərək öhdəlik götürdü. Götürülmüş öhdəlik yekdilliklə bəyənildi və qərarda öz əksini tapdı. Ona görə də məktəbin hər bir müəllimi, başqa sahədə çalışan hər bir işçisi tələbkarlığın çox ciddi, çox məsuliyyətli olduğunu dərk edərək, daha fədakarlıqla çalışıb işlərində əsaslı dönüş yaratdılar. Təşkilatçı stend hazırladı.

Hər rübün sonunda əlaçı şagirdlərin şəkilləri stendə vuruldu. Hər rübün sonunda şagirdlərin rüblük qiymətləri valideyn yığıncağında müzakirə edildi. Müzakirələrin müntəzəm olaraq hər rübün sonunda aparılması öz dəyərli faydasını verdi. Valideynlərin məktəblə əlaqəsini daha da möhkəmləndirdi. Hər bir valideyn öz uşağının oxumasına ən yaxın tələbkar nəzarətçi oldu. Fənn komissiya sədrləri iş planlarının tələbinə uyğun ən təcrübəli müəllimlərin açıq dərslərini təşkil edir, gənc müəllimlərin də iştirakçılarını təmin edirdi. Eşidilmiş dərs çox obyektiv, qərəzsiz müzakirə edilirdi. Ən nümunəvi dərs keçən müəllimin iş üsulu kütləviləşdirilirdi. Gənc müəllimlərə bu sahədə daha səmərəli kömək göstərilirdi. Məktəbdə fəaliyyət göstərən bütün təşkilatlar: partiya, həmkarlar, komsomol və pioner və s. öz fəaliyyətlərini məktəbdə təlim-tərbiyənin, nizam-intizamın daha yüksək səviyyədə olmasına yönəltmişdilər. Əlbəttə, birgə işin xeyirli nəticəsi məktəbdə təlim sahəsində irəliləmə və həm də keyfiyyət faizinin maksimum həddə qalxmasına təkan verirdi. Buna görə də məktəbi bitirən məzunlardan çoxu istədikləri ali məktəblərə, öz bilikləri hesabına qəbul olub, ali təhsil alırdılar. Ali məktəblərə qəbul olunan məzunların ildən-ilə artımı məktəbin müəllim kollektivinin fəaliyyətinin ən yüksək səviyyədə olduğunu və səmərəliliyini təsdiq edirdi. Bu, həqiqətən belə idi. Məlumat üçün bildirim ki, Rayon Partiya Komitəsinin 1-ci katibi büroda

öz çıxışında direktorlara belə bir sualla müraciət etdi: "Nə üçün Arçut kənd məktəbinin adı bütün sahələrdə həmişə qabaqcılların ən önündə çəkilir, sizin rəhbərlik etdiyiniz məktəblərin yox?" Heç kəs bu suala cavab vermədi. Hamı susdu. Katib çıxışına davam edərək Təhsil şöbə müdirinə tapşırdı ki, vaxtaşırı bu direktorları təşkil et, gedib Arçut orta məktəbinin iş üsulunu öyrənsinlər. Təklif yerinə yetirildi. Bu, bütövlükdə məktəbimizin işinə verilən ən dəyərli qiymət idi. Bu faktın özü 1965-1980-ci illərdə Arçut məktəbində təlim-tərbiyənin yüksək səviyyədə olduğunu təsdiqləyir.

Mən öz fikrimi aşağıdakı aforizmlər və müdrik kəlamlarla yekunlaşdırıram.

Dünya şöhrətli ölməz Nizami Gəncəvi yazırdı.

«Çalış öz xalqının işinə yara,
Dünya zəhmətinlə geysin zər xara».

Xalq şairi M.Rahim "Leninqrad göylərində" poemasının proloqunda yazır ki,

«Ömür dediklərin coşqun çay kimi
Kükrəyib, köpürüb hər zaman gedir.
Ona bel bağlama o qədər də sən,
Bəzən açılmamış gül, bağban gedir.
Yarat, sən köçəndə ellər söyləsin,
Dünyadan nə gözəl bir insan gedir».

Nəhayət, mən özüm deyirəm ki,

«İnsan gərək heç kəmfürsət olmasın,
Əliaçıq olsun, ürəyi böyük.
Mərhəmət göstərib imkansızlara,
Yaxşılıq eyləsin köməyi böyük».

Hörmətlə: M.A.Əliyev



«Bilmək yaxşı, bildiyini tətbiq etmək ondan da yaxşıdır»

C.Kabell

Məmmədov Məmməd



Onu da qeyd edək ki, Məmmədov Məmməd Alı oğlu və Məmmədov Xatalı Alı oğlu hər ikisi də Məsim müəllimin doğma əmisi oğlanlarıdır. Lakin, aparılan dərs qeydlərini diqqətlə təhlil etsək görərik ki, Məsim müəllim bu şəxslərlə yaxın qohumluq əlaqələrinə baxmayaraq, etdiyi təhlillər onu göstərir ki, qiymətləndirməni tam obyektiv aparmışdır. Bununla da Məsim müəllimin işdə onunla çiyin-çiyinə çalışan bütün həmkarlarına, məsləkdaşlarına eyni gözlə baxmağı, heç kimə fərq qoymamağı bu yazılarda da öz əksini tapmışdır.

Məmmədov Xatalı Alı oğlu



Yumor hissi ilə Xatalı müəllimə söylədiyi fikirlər heç unudulmur. Belə ki, Xatalı müəllim bədən tərbiyəsi müəllimi olduğu üçün ondan həmişə özünün nümunəvi olmasını tələb edərdi. Bir dəfə xatırlayıram ki, Xatalı müəllim bədən tərbiyəsi müəllimi olmasına baxmayaraq, idmançı formasında olmayıb. Təsəvvür edin ki, qış günü şaxtalı hava şəraitində şagirdlər idman formasında olduğu halda Xatalı müəllim paltoda və şarfa bərk-bərk sarınmış vəziyyətdə idman dərslərini aparardı. Yəni, həm artıq çəki, həm də idman formasını geyinmədiyini görən Məsim müəllim ona zarafatla deyinərdi: «Səndən şagirdlər baxıb nə götürsün» və gülüşərdilər.

Məsim müəllim demək olar ki, Arçut kənd orta məktəbində dərs hissə müdiri işlədiyi dövrdə bütün müəllimlərin dərslərində oturmuş, dinləmiş və vəzifə funksiyası ilə əlaqədar dərs prosesinin hansı şəkildə getməsini yaxından izləmişdir. Eyni zamanda iştirak etdiyi bütün dərs prosesləri haqqında öz fikirlərini və onun açıq dərs şəklində qeydiyyatını

yazılı şəkildə aparmışdır. Bunlardan mərhum Məmmədov Məmməd Alı oğlu və Məmmədov Xatalı Alı oğlunun dərslərində apardığı açıq dərs qeydiyyatları onun əziz xatirəsinə töhfə olaraq kitaba salınmışdır (bax: əlavələr).

Müəllif

ԴԱՍԻ ԳՐԱՆՑՈՒՄ № 24

1. Դասարան V "Б" գրանցման ամսաթիվը 16/X

2. Բացակայող և ուշացող աշակերտների ազգանունը Г. Османов С.

3. Ուսուցչի ազգանունը Исмаилзаде Мухлиз

4. Ստարկան Азербайджан дили

5. Դասի թեման Исмаилдин баллачылары

6. Դասավանդման նպատակը мухлисин ше'рдуну öjrətmək

7. Դասի կահավորումը և դասագրքերով ապահովվածությունը öjrənilən mövzular

8. Դասարանի սանիտարական վիճակը Кабинет өйүгүлү иди

9. Տվյալ դասի տեղը թեմայի Исмаилдин баллачылары 1 дәрс 34-ү сохат.
Հատկացրած ժամերի համաչարգում 16-ы дәрс

10. Դասի կառուցվածքը և նրա մասերի իրագործումը Мухлис сөнәт фахыл олду. Шаиръ-нын ше'рлери дәвамлыдыр jəхлады. Сөнгүлә ев тапшырыгыны өjrənmək jəхлады. Дərs сөнгүлә Кечилмиш мовзуну сорғусуна башлады. Кечилмиш мовзуну сорғулаjыр ејни заманда бир нечə шагырдан сорғулаjыр. Сорғу заманы диггəтлилик өjrənilən шейлəр. Шаиръ-нын сорғу просесиндə синифдə арханын нəсə ејни сөзлəри. Кечилмиш мовзунун сорғу в јекунлашдырылмасына 29' сахт вахт етди. Кечилмиш мовзуну чүмлə шəклиндə јекунлашдырдыгдан сонра јени мовзуну „Исмайлын баллачылары" шаирлə башлады

ԴԱՍԻ ԲՆՈՒԹԱԳԻՐԸ

(Հաղափարա-բաղաֆական, գիտա-տեսական և արտաֆին ձևավորման տեսակետից)

Դասի դրական կողմերը

1 Դրեր ամբ չ'ունեն բաստ գաբաղարաե հայտրահանելուդր. 2 Դրա-ներու ալան ետրի.

Դասի բացասական կողմերը

1. Դրեզ մահուդր կարդալու ուսուցչ. Պրակտիկա հայտնելուդ 2. Ձայն համարեզ հոգա-ցավդներ. 3.

Մատենավարությունը ուսուցչի կողմից Բ'ոլոր հարարրա մեր մաթեդ-ման մասին հետևություններ

Դիտողություններ 1. Օրդ, գրելու ձևդրու ևս ուշադրդր-տրբնչդու տ'ուր ըաե-տրելուդ. 2 Ունեն դրեր ամբ չ'ունեն բաստ գրաա-ուսուցչ դր.

Առաջարկություններ և հետևություններ

1. Ուսումնական գրքույկեր ա-ռաջդրդր տրբնչդու տ'ուր կատարելուդ. 2. Գրաուդ-ալան, ես'ուցմունքներ-ձե ետքրելուդր. 3

ԴԱՍԻ ԳՐԱՆՑՈՒՄ № 3

1. Դասարան — X «Բ» — գրանցման համարիվը — 11x
2. Բացակայող և ուշացող աշակերտների ազգանունը — нет отсутствующих
3. Ուսուցչի ազգանունը — Մխիտարյան Հասմիկ
4. Առարկան — Հայոց պատմություն
5. Դասի թեման — 100 ու մեկօրյա գործ.
6. Դասավանդման նպատակը — Ալիխանյան երկրի քաղ. իրավ.
7. Դասի կահավորումը և դասագրքերով ապահովվածությունը — մեր դպրոցի ուս-ման ծրագրային
8. Դասարանի սանիտարական վիճակը — Սեղանը մաքուր ուներ.
9. Տվյալ դասի տեղը թեմային հատկացրած դասերի համակարգում — 100 ու մեկօրյա գործընթացի 2-րդ դասը.
10. Դասի կառուցվածքը և նրա տարբեր մասերի կենսագործումը — Սկզբում հետդ հարցում անցկացրի 5 հոգուց Սեղանգործ տղաներ. Դասին միայն հաջողությամբ ընթացավ հարցում անցկացրի. Սկզբում նոր նյութի բացատրություն տվի. Ներկայացրի նոր նյութի մասին ամբողջական պատկերացում. Դասին ես ներկայացրի Ալիխանյան երկրի քաղաքական կյանքի մասին. Դասին տեղադրեցի հաջողությամբ ես նյութը. Ես ինքս եմ գոհ դասից. Ուսուցչի գործունեությունը գնահատվեց բարձր. Սկզբում տվի նոր թեմայի հանձնարարություն. Դասից հետո լրացրի ուսուցչի հաշվետվության մատյանը. Դասը ավարտվեց ժամանակին.

ԴԱՍԻ ԲՆՈՒԹԱԳԻՐԸ

(Դաղափարա-քաղաքական, գիտա-տեսական և արտաքին ձևավորման տեսակետից)

Դասի դրական կողմերը	Դասի բացասական կողմերը
	1. Դասում ուսուցչական (ներ, ուսուցչական) ուշադրության դաշտում մնացել էր 2. Դասում մնաց ե բացատրության սխալ. ընկալվեց. 3. Դասին պատրաստված աշակերտ ընկալվեց.

Մատենավարությունը ուսուցչի կողմից — Ծգտի ուշադրության ընդգրկման ուսուցման ուսուցչական ե ուսուցչության գործունեության ընդհանուր ընդհանուր ընդհանուր.

Դիտողություններ	Առաջարկություններ և հետևություններ
1. Աշակերտների ուշադրությունը շատ թույլ էր 2. Ուսուցման ընդունակ ոչ ֆրեգատ չէ ոչ ֆրեգատ 3 Դերեզ աշակերտների ուսուցման ուսուցման Ծգտու ընդհանուր 4. Դասում տանձանքների ուշադրության էր չէ ոչ ընդ	1. Ուսուցման ընթացքում ծգտի աշակերտների ուսուցման ուսուցման ուսուցման. 2. Ծգ ե աշակերտ ընդ ընդհանուր ուսուցման ե ընդհանուր. Դերեզ ուսուցման. ընդհանուր ե ընդհանուր ուսուցման ե

ԴԱՍԻ ԳՐԱՆՑՈՒՄ № 62

1. Դասարան VII «В» — գրանցման ամսաթիվը 18/XII

2. Բացակայող և ուշացող աշակերտների ազգանունը 1 Сулейманов Одельга

дурен хазлежешеда

3. Ուսուցչի ազգանունը Мелиев Хатаев

4. Առարկան бери мугьбуге

5. Դասի թեման Болгетбел оруш (Прыжок в длину с места)

6. Դասավանդման նպատակը дурени мугьлегьтинде шегиндарешш уж

7. Դասի կահավորումը և դասագրքերով ապահովվածությունը оборма ие тиши цIиер

8. Դասարանի սանիտարական վիճակը цIелеи заки тешу цIи

9. Տվյալ դասի տեղը թեմային —

Համակցված դասերի համակարգում —

10. Դասի կառուցվածքը և նրա տարբեր մասերի կենսագործումը Мугьлеми цIелеи зегена 2-3' хеши ие ие дахи олду. Шагьирдери сырага дузуруб сенеер нумайтдешеде-раялари гIадI етиди. Сонра дурени кIуреш тиселени гьамидеби бере анладирмаи мугьбуик бугьтелер етидиди. Нахи бугьт гIа аз олду. Бундан сонра мугьлеми зени ловзуш там изаи етишмеш ишен шагьа-ма дешламаи. Зеде тиселе оруеди ганы-ебурени нозан груду гьазирлендиреди. Оруш зелеи дерес ese-ку олуруд. Мугьлеми бIэт исти гьалет верди суалер верди. Орсен зеде тиевеш ва хIятиде дама-гьатдиргьиди. Нахе тамамлеабаи тиселI аз ваат ецIре етиди (Бугьтеа-ситлендурени бугьтелер нозан олмади)

ԴԱՍԻ ԲՆՈՒԹԱԳԻՐԸ

(Գաղափարա-բաղաբական, գիտա-տեսական և արտաքին ձևավորման տեսակետից)

Դասի դրական կողմերը

1 Մշակում և ընդարձակ մանրամասն օրինակ ևս միևնույն մասին: 2. Որոշ ընդհանրացումներ և եզրակացություններ և օրինակ տալով ևս մեկ անգամ:

Դասի բացասական կողմերը

1 Դրսևորել հետաքրքրություն և ցանկություն հետևելու մտքերի ընթացքին 2 Ոչ միշտ ակտիվորեն և ոչ միշտ համապատասխան հարցերով ոչ իր կողմից

3. Ուշադրություն դարձնել գրատախտակի վրա գրելու ժամանակ ոչ-ին օրինակ. և Լավագույն ձևով ցանկալի արդյունքների

Մատենավարությունը ուսուցչի կողմից Աշխատանքը լավ կազմակերպված և նպատակին ուղղված էր:

Դիտողություններ

Առաջարկություններ և հետևություններ

Դրսևորել հետաքրքրություն և ցանկություն հետևելու մտքերի ընթացքին և ոչ միշտ համապատասխան հարցերով ոչ իր կողմից



«Dünyanın ən mükəmməl məktəbi həyatdır, ondan öyrəndiyim əsas dərs isə zəhmət və çalışqanlıqdır»

B.Haydekoper

Allahverdiyev Bayram Vəli oğlu



Tarix üzrə elmlər doktoru, professor

Lori-pəmbək mahalının Arçut kənd orta məktəbində şagird yoldaşım Məmmədov Məsim Yusif oğlu haqqında bir neçə söz

Lori-pəmbək mahalının ən qədim kəndlərindən biri olan Arçut kənd orta məktəbində mən Məmmədov Məsim Yusif oğlu ilə şagird yoldaşı olmuşam. O, məndən bir sinif yuxarı oxuyurdu. Bizim yoldaşlığımız elə orta məktəbdə təhsil alarkən dostluğa çevrilmişdi. Çünki onun xarakteri, xasiyyəti və oxumağı mənə çox uyğun gəlirdi. Mən də o xasiyyətdə olmuşam və hər ikimiz əlaçı oxumuşuq. O, Bakıda Azərbaycan Dövlət Pedaqoji İnstitutunda (hal-hazırda universitet) təbiət elmlərinin ən maraqlısı və əhəmiyyətlisi olan fizika ixtisası üzrə müəllim kimi təhsilini başa vurmuşdur. Sonra Qərbi Azərbaycana – öz doğma kəndi Arçuta qayıtmış və Arçut kənd orta məktəbində müəyyən müddət müəllim və direktor müavini vəzifələrində çalışmışdır. İşlədiyi, fəaliyyət göstərdiyi dövrdə Eminlər tayfası içərisindən çıxmış Məmmədov Məsim Yusif oğlu özünü çox təvazökar, səmimi və bilikli insan kimi tanıda bilmişdir. Bununla bərabər, bizim dostluğumuz davam etmişdir.

Mən isə, orta məktəbi bitirdikdən sonra Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsində 1957-1962-ci illərdə təhsil almışam. 1964-1967-ci illərdə Milli Elmlər Akademiyasının Nizami adına Dil və Ədəbiyyat İnstitutunda əyani aspiranturanı bitirmişəm. 1968-ci ilin may ayında "Orta əsr Azərbaycan kitabı (XI – XVIII əsrlər)" mövzusunda dissertasiya mövzusunu müdafiə edərək, filologiya elmləri namizədi, alimlik dərəcəsi almışam. Maraqlısı budur ki, Məsim müəllim Arçut kəndinin o dövrdə kolxoz sədri və mənə qardaş deyən Məmmədov Məmməd Gülməmməd oğlu, həmçinin bir sıra Arçut kəndinin görkəmli adamları olan Məşədiyev Abbas, Bayram və Mövludla bərabər, mənim elmlər namizədi dərəcəsi almaq üçün dissertasiya müdafiəmdə iştirak etməyə gəlmişdilər. Bu mənim üçün ən sevimli gün idi. Onların mənim

dissertasiya müdafiəmdə iştirakı ikiqat sevincimə səbəb oldu. Dissertasiya müdafiəsindən sonra onlar bədii hissədə iştirak etdilər. Məclisin aparıcısı görkəmli alim, jurnalist, filologiya elmləri doktoru, professor Qulu Xəlil Arçut kəndindən gələn və mənim dissertasiya müdafiəmdə iştirak edən Məmmədov Məmməd Gülməmməd oğlu, Məmmədov Məsim Yusif oğlu və digərləri haqqında çox gözəl sözlər söylədi. Məclisin iştirakçıları da bu xoş sözlərə böyük alqışlarla cavab verdilər. Məmmədov Məmməd Gülməmməd oğlu və Məmmədov Məsim Yusif oğlu çıxış edərək, Arçut kəndinin sakinləri adından Elmi Şuranın üzvlərinə və iştirakçılara öz təşəkkürlərini və minnətdarlıqlarını bildirdilər. Bu faktı göstərməkdə məqsədim ondan ibarətdir ki, Məsim müəllim mənimlə dostluğunu, yüksək insani keyfiyyətlərini respublikamızın paytaxtı Bakı şəhərində də göstərə bilmişdir.

Məsim müəllim artıq həyatda yoxdur. Amma Lori-pəmbək mahalının və Arçut kəndinin əhalisi, o cümlədən mən, onun gözəl və səmimi insan, savadlı, bilikli müəllim olmağını unutmuruq. Bu gözəl insanın xatirələri daim ürəyimizdə yaşayır və yaşayacaqdır.

Hörmətlə: Bayram Allahverdiyev



«Bir elmi öyrənmək istədikdə sən,
Çalış ki, hər şeyi kamil biləsən»

Nizami Gəncəvi

Həsənov Əkbər



Arçut kənd orta məktəbinin
Riyaziyyat müəllimi

Xeyirxah insan

Məsim Məmmədovla 1963-cü ildə tanış olmuşam. Əmrimi Ermənistanın Quqark rayonundakı təhsil şöbəsinə vermişdilər. O mənimlə riyaziyyat haqqında söhbət etdi və əmrimi həmin rayonun Arçut kənd orta məktəbinə yazdırdı. 1963-64-cü tədris illərindən etibarən bərabər işlədik. Məsim müəllim həmin məktəbdə dərs hissə müdiri idi. Çox istedadlı, bütün elmlərdən xəbərdar olan bir insan idi. Məsim müəllim istedadlı müəllimləri və şagirdləri çox sevirdi. Açıq dərslər təşkil edirdi, həmin dərsdə qeyri fənn müəllimləri də iştirak edirdilər.

Onun zəngin təcrübəsindən, metodlarından öyrənməyə çalışırdılar. Hər ikimiz respublika təkmilləşdirmə institutunun ştatdankənar müəllimləri idik. 1970-ci ildən yeni dərs proqramı ilə əlaqədar olaraq müxtəlif rayonlara ezam olunduq. Yaxşı yoldaşlığı var idi, dostluğa çox sadiq bir insan idi. Erməni dilini yaxşı bildiyindən rayon rəhbərləri ilə münasibətləri yaxşı idi. Məsim müəllim kəndin camatı üçün torpaq sahəsi aldı, dağlardan kəndə içməli su gətirmək üçün rəhbərlərindən icazə aldı.

Yeni məktəb binası tikdirmək üçün xeyli çalışdı və nəhayət 1200 nəfərlik məktəb binası tikildi. Məsim müəllim elmlər namizədi olmaq üçün mövzu götürmüşdü və onunla ciddi məşğul olurdu. Məsim müəllimlə söhbət edənlər onunla fəxr edirdilər. Hamının qayğısına qalmaq onun adəti idi. Ev tikənlər, toy eliyənlər, çətinliklərlə üzləşənlər ona müraciət edirdilər və o da hamıya öz köməkliyini edirdi.

Məsim Məmmədov sazın, sözün vurğunu idi. Toylarda masabəyi olardı, gözəl şeirlər deyərdi. Aşıq Kamandarla dost idi, həmişə qonağı

olardı, gözəl məclislər təşkil edərdi.

Onun sayəsində aşıq İmran, aşıq Əkbər, Aşıq Hüseyn Saraclı tez-tez kəndə gələr, toylar keçirərdilər. Aşıq Kamandar Məsim müəllim haqqında gözəl bir şeir də yazmışdı.

Məsim Məmmədov gözəl ailə başçısı idi. Ata və anasına xüsusi hörmət bəsləyirdi. Uşaqlarının yaxşı olması, tərbiyəli olması üçün çalışırdı. Gözəl xarici görünüşə malık olan Məsim müəllim el arasında çox hörmətli idi. Bütün valideynlər uşaqlarını harada oxutdurmaq üçün ondan məsləhət alırdılar. O hansı şagirdin hansı instituta getməsi üçün düzgün məsləhət verərdi və nəticəsi çox yaxşı olurdu. Məsim müəllim ömrü boyu xalqının tərəfində olmuş, onu sevmişdir, xeyrində-şərində ağsaqqal kimi iştirak etmişdir. Ona görə də ona hamı hörmət edirdi və sevirdi.

Hörmətlə: Həsənov Əkbər müəllim



«Böyük işlər, mühüm cəhdlər ancaq birlikdə səy göstərməklə əldə edilə bilər»

Atatürk

Qazıyev Yusif



Ermənistanın Quqark rayonunun Arçut kəndinin görkəmli ziyalılarından olan Məsim Yusif oğlu Məmmədov haqqında Məsim müəllimin yaxın dostu, yerlisi və iş yoldaşı Yusif Xıdır oğlu Qazıyevin

Xatirələri

Məsim müəllimə Pəmbək mahalının, xüsusən işğalda qalan Arçut kəndinin pərən düşmüş camaatının bəslədiyi ehtiram o qədər dərin və güclüdür ki, bunu onun həyat və fəaliyyətini yada salanda görürlər. Ona görə nəsillərə örnək olan, böyük amal və əqidə ilə yaşamağa layiq olan bir ömürün əsas naxışlarını ümumiləşdirib onu gələcək nəsillərin ömründə yaşatdırmaq ən vacib şərtdir.

Ermənistan SSR-nin (İndiki Ermənistan Respublikası) Quqark (keçmiş Böyük Qarakilsə) rayonunun Arçut (Ardıç) kəndinin ziyalıları içərisində özünəməxsus yer tutmuş Məsim Yusif (Usub) oğlu Məmmədov haqqında söz açmaq, onun xatirəsini yad etmək, onun əmək və pedaqoji fəaliyyətini araşdırmaq, qiymətləndirmək həm Məsim müəllimin qohumlarının, həm də həmyerlilərinin indiki və gələcək nəsilə çatdırmağın dəyəri vardır.

Məsim müəllimin əmək və pedaqoji fəaliyyətinin, insani münasibətlərinin araşdırılması həmyerlimizin indiki və gələcək nəsil üçün örnək və nümunə olar.

Yeri gəlmişkən hər bir ölkənin , əyalətin, şəhər və kəndin, hər bir oba yaşayış məntəqələrinin tarixində elə şəxsiyyətlər olmuşdur ki, onların həyat və fəaliyyəti boyunca qoyduğu izlər heç vaxt unudulmur. Zaman keçdikcə o daha parlaqlıqla özünü büruzə verir. Yuxarıda adı qeyd olunan əyalətin (bölgənin), xüsusən Arçut kəndinin belə oğullarından biri olan Məsim müəllimə güvənmək, onun izinin dəyərinə, zəkasına həsəd aparmağın yeri vardır.

Məsim müəllimin uşaqlıq və gənclik illəri haqqında, doğulduğu ailə haqqında bir neçə söz:

Məsim müəllim 1937-ci ildə Ermənistan SSR-nin Quqark rayonunun Arcut kəndində dünyaya göz açmışdır. O, ilk təhsilini doğma kəndi Arçutda almışdır. Orada, natamam orta təhsilini bitirdikdən sonra qonşu Saral kənd orta məktəbində təhsilini davam etdirmişdir. O, 1955-ci ildə orta məktəbi əla qiymətlərlə bitirib ali-məktəbə – Azərbaycan Dövlət Pedaqoji İnstitutunun (indiki Azərbaycan Pedaqoji Universiteti) fizika-riyaziyyat fakultəsinə daxil olmuş və oranı 1959-cu ildə əla qiymətlərlə bitirib öz doğma kəndinə təyinat almışdır. O, bir neçə il sıravi müəllim işlədikdən sonra vəfat etdiyi günə (13 fevral 1986-cı il) qədər Arçut kənd orta məktəbində təlim-tərbiyə üzrə direktor müavini işləmişdir. Məsim müəllim doğulduğu Yusif (Qara Usub) kişinin ailəsi çoxuşaqlı ailə olmuşdur. Yusif kişinin 2 arvadı olmuşdur. Birinci arvadı koxa Alılardan Minə bibi idi. Minə bibidən Yusif əminin 4 qızı Simuzər, Mahizər, Sarıgül, Bəsti və 1 oğlu Yasin olmuşdur. Onun ikinci arvadı Tükəzbandan (Qazax bölgəsinin İncəli dərəsi) bir qızı Sənubər və 2 oğlu Məsim və Məhəmməd olmuşdur.

Məsim müəllimdən 2 yaş böyük olduğuma baxmayaraq Məsim müəllimlə uşaqlıq illərindən bir-birimizə yaxın olmuşuq. Belə ki, bizim Arçut kəndini Ardıc çayı iki yerə bölürdü. Çayın sağ tərəfində Məsimgilin evi, sol tərəfində isə bizim ev yerləşirdi. Hər ikimizin yaşadığı otaqlarda olan pəncərələr bir-birinə baxırdı. Gecə vaxtı pəncərələrin pərdəsi açıq olanda lampa işığında Məsimgildən bizim otağın içərisində, bizdən isə Məsimgilin otağının içərisində adamları görmək olurdu.

Uşaq vaxtı həmişə biz uşaqlıq illərini bir yerdə keçirirdik. Vaxtaşırı Ardıc çayının sahilinə enirdik. Evlər çayın kənarından hündürdə yerləşirdi. Çayın sahilində oynayırdıq, ocaq qalayırdıq, ölçük qururduq, ləpik oynayırdıq. Bundan başqa hər ikimizin ailəsi hər il yaylağa çıxırdı. Məsim də, mən də yaylaqda yenə uşaqlıq ənənəmizi davam etdirirdik. Digər uşaqlarla birlikdə xizək sürürdük, cumbuz kəsib dağ bulaqlarının axarını kəsib gölməçə düzəldirdik, orada çimirdik və s. Şən uşaqlıq həyatı keçirirdik.

Məsim müəllimlə gənclik illərimiz və əmək fəaliyyətimizdə də həmişə bir olmuşuq. Yalnız 2 il orta məktəbdə, 2 il isə institut illərində görüş fasiləmiz olmuşdursa da yay tətillərində yenə də görüşürdük. Görüşdə yemək-içmək

mərasimlərimiz olurdu. Kənddən kənara çıxırdıq, yol üstə yeməkxanalara gedirdik, çırçırda və Saral çayı adlandırdığımız (Pəmbək çay) çayda çimirdik, günəş vannası qəbul edirdik. Onlarla bərabər digər həmyaşıdlarımızla birgə olurduq. Məsim həmişə yemək-içmək təşkil edirdi.

Tələbəlik illərində müxtəlif ali məktəblərdə oxuduğumuza baxmayaraq vaxtaşırı görüşürdük. Hətta mən bir dəfə bazar günü(1956-cı ilin 10 oktyabrında) APİ-nin yataqxanasına Məsimin yanına getmişdim. Məsim dadlı sup bişirmişdi. Bir neçə tələbə oturub çörək yeyirdik. Birdən APİ-nin təsərrüfat üzrə prorektoru Hacıyev adlı şəxs Məsim yaşadığı otağa daxil oldu və məndən soruşdu ki, sən kimsən? Mən cavab verdim ki, mən Məsimin qohumu və yerlisiyəm. Hacıyev mənim tələbə biletimi aldı və dedi ki, sizin İnstitutdan soruşacam görüm sən həqiqətən orada oxuyursanmı? Birinci günü bilet üçün APİ-yə gələrsən. Məsim mənə dedi ki, sən gəlmə mən bileti gətirərəm. Elə də oldu. Bir neçə gündən sonra Məsim bileti alıb bizim yataxanaya gətirdi.

Məsimin toy mərasimi

Müəllim işlədiyi bir ildən sonra, iyun ayının əvvəli idi, Allahverdi şəhərinin yaxınlığında yerləşən, dağın başında kiçik bir fəhlə qəsəbəsində yaşayan atasının əmizadəsi Teymur kişinin qızı Güllərlə evləndi. İyul ayının son günləri idi. Məsim müəllim məni sağdiş, Şəmistanı isə soldiş seçmişdir. Biz bir çox qohum-əqrəba ilə Arçut stansiyasında fəhlə qatarına (elektriçka deyirdilər) mindik, 2 saatdan sonra Allahverdidə düşdük və nağara-zurna ilə təxminən 5 km-ə yaxın məsafəni ayaqla Allahverdinin üstündə yerləşən dağa dırmaşdıq. Nağara-zurna çalırdı, biz gah oynaya-oynaya dırmaşırdıq, gah da yeriyirdik, nəhayət Teymur kişinin evinə çatdıq, Artıq süfrə qurulmuşdu. Saat 13-olardı, qaranlıq düşənə qədər yedik, içdik və səhər açıldı. Biz gəlinlə Allahverdi stansiyasına endik.

Biz elektriçka ilə kəndə gəldik. Gəlin isə cehizi ilə yük maşınında bizim kəndə gəldi. Səhəri günü toy məclisi quruldu. Bu toyda bir şey maraq doğurdu ki, Məsim müəllimin bacısı Simuzərin əri Şenavanlı (Qızılörən) Baba kişi 70 yaşında idi. O, beş km yüksəkliyi zurnaçıların önündə Teymur kişinin qapısına qədər fasiləsiz oynaya-oynaya getdi.

Məsim müəllim ruzili bir adam idi. Onun ruzisi başından tökülürdü.

Harada olurdu olsun rast gəldiyi adamla, yaxud oturduğu adamla mütləq yeyib-içməli idi. Bir iş elə bil ki, öz-özünə təşkil edilirdi. Hətta bir dəfə qocaman müəllim Məhərrəm Yusif oğlu İsmayılov (1922-1992) soruşdu ki, Yusif müəllim, Məsim nə deməkdir? Mən duruxanda o cavab verdi ki, Məsim müəllim yemək-içmək deməkdir.

Məsim müəllimin əmək fəaliyyəti haqqında qısa xülasə

Müəllimlik fəaliyyətimizdə həmişə bir olmuşuq və yaxından əməkdaşlıq etmişik. Həmçinin Məsim müəllim bütün müəllim kollektivi ilə çox yaxşı münasibətdə olmuşdur. O, heç kəsin xatirinə dəymirdi. Müəllimlərin nöqsan və qüsurlarını mədəni və heç bir şey olmamış kimi nəzərə çatdırırdı. Məsim müəllim gözəl bir insan, dostluqda vəfalı və sadiq, ailədə qayğıkeş, qeyrətli və namuslu bir şəxs idi.

Qərbi Azərbaycanın Pəmbək (Böyük Qarakilsə) bölgəsinin tarixində Məsim müəllimin adı əbədi olaraq yazılacaqdır. a) Məktəbdə dərslərin (bütün fənnlər üzrə) tədrisinin təşkili; b) məktəbin fizika-riyaziyyat fənni üzrə kəndin özündən ilk müəllimi ixtisasçı kimi onun tədrisinin ra-yon miqyasında nümunəliyi, ixtisasını mükəmməl bilən bir bağban, elə bir bağban ki, yetişdirdiyi ərsəyə çatdırdığı meyvəsinin bəhrəsini sağlığında dərdi; c) Məsim müəllimin təşkilatçılığı və pedaqoji fəaliyyət və araşdırmalarının ön çərgəsində olaraq mərkəzi mətbuatların diqqət mərkəzində olmuşdur. Bu barədə geniş informasiyalar respublika və rayon mətbuatında işıqlandırılmışdır. Məsim müəllim Arçut camaatı içərisində böyük hörmətə malik oldu. O, kənddə yoldaşlıq məhkəməsinin sədri idi. O, həmişə keçirilən toyların masabəyisi olurdu. O yaxşı natiq idi, həm də yaxşı muğamat oxuyurdu. Məsim müəllim zarafatsevən adam idi. Ancaq bunu mədəni həyata keçirirdi. Zarafatın gərginliyinə yol vermirdi. Məsim müəllim ölümü camaatımızı, elimiz və bütün Pəmbək bölgəsi üçün böyük itki idi.

Epiloq. Məsim müəllimin yada salınması, onun ad gününün vaxtaşırı keçirilməsi elimizin tarixini yaddaşlara nəqş edir. Məsim müəllimin həyat tərzini yada salmaq, daha doğrusu keçmiş doğma kəndimizin, bütövlükdə əyalətimizin adət-ənənələri onların yaşayış tərzi, folklar mədəniyyət və yaradıcılıqları bir daha keçmişimizi, klassik el adətlərimizi xatırlayır. Məsim müəllimin həyat və pedaqoji faəliyyəti ilə yaxından

tanış olan hər bir insanda nikbinlik, dəyanətlik, mətinlik, ruh yüksəkliyi, çətinlikdən qorxmamaq, mübariz və xeyirxahlıq hissələri yaranır.

Hörmətlə: Dostu və müəllim yoldaşı Yusif Qazıyev.

ԴԱՍԻ ԴՐԱՆՑՈՒՄ №73

1. Դասարան Ա Բ — գրանցման ամսաթիվը 29/I

2. Բացակայող և ուշացող աշակերտների ազգանունը

3. Ուսուցչի ազգանունը Գրիգոր Գրիգորյան

4. Առարկան Մի քանի բառեր

5. Դասի թեման Т. 1 Ես ուսանող եմ և Ձեզ հետ եմ ուրախ եմ Ձեզ տեսնել

6. Դասավանդման նպատակը Սովորողին աշխատել և մտածել դասի ընթացքում

7. Դասի կահավորումը և դասագրքերով ապահովվածությունը ուրախ տեսնել միմյանց

8. Դասարանի սանիտարական վիճակը Լավ, մաքուր և օդափոխված

9. Տվյալ դասի տեղը թեմային հատկացրած դասերի համակարգում

10. Դասի կառուցվածքը և նրա տարբեր մասերի կենսագործումը Ամբողջ դասաժամը կազմակերպելու համար անհրաժեշտ է ունենալ ուրախ տրամադրություն, որպեսզի աշակերտները ևս ուրախ լինեն և ակտիվ աշխատեն: Ուսուցչի կենսական խնդիրն է ամբողջ դասաժամի ընթացքում աշակերտներին ներգրավել ակտիվ աշխատանքի մեջ: Դասի ընթացքում ուսուցիչը պետք է ձգտի ստեղծել ընկերական մթնոլորտ: Ուսուցիչը պետք է ամեն աշակերտի հետ վարվի հավասարապես: Ուսուցիչը պետք է ամեն աշակերտի հետ վարվի ինչպես իր երեխայի հետ:

ԴԱՍԻ ԲՆՈՒԹԱԳԻՐԸ

(Գաղափարա–բաղաքական, գիտա–տեսական և արտաքին ձևավորման տեսակետից)

Դասի դրական կողմերը

Դասի բացասական կողմերը

1 Ամենալավ մասը նոր նյութ սովորելն էր.
2 Ինչ նշանակ բերդային պատերազմ պատմությունը
3 Նոր նյութը ներկայացնելու ժամանակ ես դժվարացա
4 Ուշադիր չեղա ես աշխատանքս ես ուրիշներ

Մատենավարժությունը ուսուցչի կողմից Ընդհանուր բոլոր գործողությունները ճիշտ կատարեցիր ինչ նշանակություն ունի նոր նյութը ես ներկայացրիր

Դիտողություններ

Առաջարկություններ և հետևություններ

1 Դուք ձեր գործողությունները ներկայացրեք ավելի հետաքրքիր 2 Ձեր հաղորդած տեղեկությունները ավելի հարուստ դարձրեք 2 Դուք նյութը ավելի ներկայացնելու համար ավելի հետաքրքիր ձևեր ընտրեք 3 Ավելացրեք դեռ ավելի նոր նյութեր ես

ԴԱՍԻ ԳՐԱՆՑՈՒՄ № 40

1. Դասարան — IX «Բ» — գրանցման ամսաթիվը — 31/X

2. Բացակայող և ուշացող աշակերտների ազգանունը 1. Богоева Н. 2. Мкртчяна Х. 3. Асланов Ф. 2 դաս ինֆորմատիկա դաս

3. Ուսուցչի ազգանունը — Газуев Д.

4. Առարկան — Штифан труба капсюль

5. Դասի թեման — автоматын сохлуг дыгнилагес /штра

6. Դասավանդման նպատակը штурвыне штилаги в он-ин дохлаце

7. Դասի կահավորումը և դասագրքերով ապահովվածությունը евацуатиа штыпырей

8. Դասարանի սանիտարական վիճակը — Хабшыш штиц в бзиеги тыш

9. Տվյալ դասի տեղը թեմային —

Հատկացրած դասերի համակարգում —

10. Դասի կառուցվածքը և նրա տարրեր մասերի կենսագործումը Муэлли шажродгри сиуаза фуус рапорт гъбуа ецыхэт соусуа шажродгри сиыр фэвэт ецыц в Салаглаш фэ фэс штурыр харагтерны оцфгуцэфэ Отн. п-ка Т-ук. зан'2. Назначение и устройство частей и механизмов АКН повторение муэлли повзуцу сорцшагыт шажродгрэт тыл в фэс вери Гаплаше аллага гъбыцырэн. Сорцуцу ныл плохой, ныцэ автоматын цэрцыпэт штыпыл ецыц.

ԴԱՍԻ ԲՆՈՒԹԱԳԻՐԸ

(Դաղափարա-գաղափական, գիտա-տեսական և արտաքին ձևավորման տեսակետից)

Դասի դրական կողմերը

1. Դրսե նր ճար ունեն ևսեսա սեն (սնահատ, ծամոնատ եւ) տ՛սեսն ունսեսսեսդր. 2. Սահարդների սերաֆերենդան ենեմենտը ներկայում գուցե ժամանակ ֆունկցիա ենեսեսաբար ասելիս. 3 Սահարդների նու սահարդար. Ամբ ձանսեսլեսենդրդր Սետերսեսդ ենեդեսսեսդեն

Դասի բացասական կողմերը

1. Ավտոմատ ենդրդ ձնգուսա տսրսեսաշ ենեսերսեսդ

Մատենավարության ուսուցչի կողմից — Ժուրնալեսն սետեդի հարցում ենսեսդեն ասդսեսսեսն տրդրսեսդդ դրսեսն գունեն, ասեսսն տեսեստեր ենդդ ենրսեսն:

Դիտողություններ / 1 Սահարդների ասդսեսսեսն տեսեդեսսեսն ենսեսենեսեսն սնդսեսրդրսեսդ 2. Ձայն տահտասենա սահարդ գանդդ ենսեսեր, գանդդ ենսեսրսեսդդսեսր 3.


Առաջարկություններ և հետևություններ

Հարց հարցում ֆրսեսդրսեսն ասրսեսսեսն ենրդդն Ձրդսեսդ սրենդ ձրդսեսդ Սեսրսեսդ սրենդ ենսեսեր Սեսրսեսդ ձայնդարդ 2 Ենեսսեսն յասե սահարդ ենսեսա գանդդարդսեսն ենդ ձրսեսն Սեսրսեսդ սրենդ ենսեսեր Սեսրսեսդ ենսեսեսա ենդդրդ սրենդ ենսեսեր



«Böyük insanların ömrü illərlə deyil, onların əməlləri ilə ölçülür»

Lətif Abdullayev



Yada düşər xatirələr

Mən – Lətif Abdullayev 1940-cı ildə Pəmbək mahalının Arçut kəndində fəhlə ailəsində anadan olmuşam. Atam İbrahim Abdulla oğlu 1943-cü ildə müharibəyə gedib və geri qayıtmayıb itkin düşüb. Anam Vəliyeva Gülüstan evdar qadın olub və 1976-cı ildə vəfat edib. 1948-49-cu illərdə Arçut orta məktəbinin I sinifinə daxil olmuşam və 1960-61-ci illərdə 10-cu sinifi bitirmişəm. Hal-hazırda işləmirəm-təqaüdçüyəm. Arçut orta məktəbində müəllim işlədiyim illərdə Məsim Məmmədovu bir dərs hissə müdiri kimi tanımışam. Yaxşı yadımdadır 1957-58-ci illərdə Arçut orta məktəbində onillik məktəb yox idi, çünki oxumaq üçün şərait yox idi. Həmin ili yəni 1957-58-ci illərdə Məsim müəllim Arçut kəndində tam orta məktəb olmadığına görə Saral orta məktəbində təhsil alırdı. O, orada Saral orta məktəbində oxuduğu zaman dərslərini əla bilirdi. Kənd arasında, camaat danışırdı ki, halal olsun Məsimə çox yaxşı oxuyur. O Saral orta məktəbində oxuduğuna baxmayaraq, 3-4 km yolu piyada gedib-gəlirdi. Əlbətdə o bu çətinliyə dözürdü, amma oxumaqdan əl çəkmirdi. Məsim müəllim Saral orta məktəbini əla qiymətlərlə bitirib. Bakı şəhərində Pedaqoji İnstitutuna Fizika-Riyaziyyat fakültəsinə daxil oldu.

Mən 10-cu sinifi bitirmək üzrə idim. Məsim müəllim bir gənc kadr kimi məktəbdə gördüm. Mənə dərs deməsə də o məni bir əmioğlu kimi tanıyırdı. İllər arxada qaldı, mən də institutu qurtarıb Arçut orta məktəbində müəllim işlədim. Məsim müəllim məni bir müəllim kimi tanıdı. Mən bir müəllim kimi onu eşidirdim və verdiyi tapşırıqlara əməl edirdim. O, özünü kollektiv arasında bir pedaqoq kimi aparırdı, hamı müəllimlər ona hörmətlə yanaşırdılar. Məsim müəllim hamı ilə dil tapırdı. O, cavan müəllim, cavan dərs hissə müdiri kimi çalışırdı ki, xalqın balalarına bilik versin, onları savadlandırsın. Məsim müəllim məktəb daxilində valideyinlərlə tez-tez yığıncaqlar təşkil edirdi və valideynləri başa salırdı ki, sizin uşaqlar oxumalı və savadlı olmalıdırlar. Bütün kənd cammaatı və o cümlədən şagirdlərin valideynləri Məsim müəllimi se-

vir və ona hörmət edirdilər. Məsim müəllimin humanistliyinə görə biz müəllimlər tez-tez dərsdən sonra yəni axşam saat 8-9 radələrində qəflətən şagirdlərin evlərində olurduq və onların dərs oxumaqlarını yoxlayırdıq.

O cümlədən Məsim müəllimin özü də hərdən bizimlə olurdu. Şagirdlərin bilik və vərdişlərini yoxlayırdıq. Bu cür qəflətən yoxlama şagirdlərdə ruh yüksəkliyi yaradırdı, bütün valideynlər: "Əhsən sənə Məsim müəllim, deyirdilər. Bu cür tədbirlərdə həmçinin məktəb direktoru Məhəmməd Əliyev də olurdu. Məsim müəllim xalq arasında bir ziyalı kimi tanınırdı. O tez-tez kənd klubunda olurdu, onlarla söhbətlər aparırdı, dünyanın gedişindən danışırdı.

Mən Arçut orta məktəbində müəllim işlədiyim vaxtlarda dəfələrlə Məsim Rayon Maarif şöbəsində olmuş və Maarif şöbəsi onu təkmilləşmə institutuna göndərmişdir. O, rayon müəllimləri arasında metodik məruzələr oxumuş və fizika-riyaziyyatın dərinliklərini onlara başa salmışdı. Belə hallar Rayon Maarif şöbəsində çox olurdu. Ancaq Məsim müəllim yorulmaq bilmirdi, məktəbdən ayrılmaq istəmirdi, həmçinin biz müəllimlərlə işləyirdi. Xalq onu sevirdi, ona hörmət edirdi. Çətin günlərdə həmişə kənd camaatına kömək edirdi, onların ərizə və şikayətlərinə baxırdı, xalq ondan razılıq edirdi. Ona görə də Məsim müəllimin sayəsində xalqın balaları Azərbaycanın müxtəlif guşələrində işləyirlər və tez-tez Məsim müəllimi yadlarına salırlar.

Məsim müəllimin yolu mənim evimin qarşısından keçirdi. Baxmayaraq övladlarımı hər gün dərsdə və məktəbdə görürdü, amma bizə o qədər yaxınlıq edirdi ki, yenə Məfruzə xanım necəsən? Deyirdi. Yenidən bizə gəlirdi, çay-çörəkdən sonra həyat yoldaşımdan övladlarımın vəziyyətini soruşurdu. Yəqinki bunların hamsı qohumlara qarşı istiqanlılıqdan irəli gəlirdi. Övladlarımla dərs oxumaları haqqında maraqlanırdı, onların necə oxumaları haqqında analarına izah edirdi. Mən və mənim ailəm onu bir qohum kimi sevirdik. Həftənin hər günü olmasa da 2-3 günü bizim evdə olurdu. Onun bizə qarşı səmimiliyi bizi sevindirirdi. Ailəliklə biz onu sevirdik. Mən və mənim qohumlarım heç bir zaman Məsim müəllimin bizə qarşı yaxşılıqlarını yaddan çıxartmayacağıq.

Hörmətlə: Əmisi oğlu Lətif müəllim



«Təlim-tərbiyə işlərində hər nə cür olsa da, uğur əldə edilməlidir. Hər millətin xilası ancaq bu yolla mümkündür.»

Atatürk

Qasımov Rəşid



Arçut kənd orta məktəbində rus dili Müəllimi işləmişdir....

Məsim müəllimlə Arçut kənd orta məktəbində işlədiyim illər barədə xatirələrim

1960-61-ci il tədirs dərs ilində Məsim Məmmədov mənə fizikadan dərs deyib. İnstitutu bitirib təzəcə jurnal götürüb sinifə girib bizə dərs deyən müəllim fizika kimi çətin bir fənnin sirlərini biz şagirdlərə çox böyük ustalıqla və məharətlə çatdırırdı. Onun çox savadlı və bilikli olduğunu biz onuncular o saat dərk etdik və başladıq həmin fənni oxumağa. Həmin ili fizika fənninə mənim marağım olduqca artdı. Sonradan mən ali məktəbə qəbul oldum. 1971-ci ilin yanvar ayında mən Məsim müəllimə məqsədimi çatdırdım ki,məni məktəbə müəllim götürsün. O vaxtları Məsim müəllim Arçut orta məktəbinnin tədris işləri üzrə direktor müavini işləyirdi. Məsim müəllim bir qədər fikrə getdikdən sonra mənə dedi ki, a, kirvə sabah sənə bir söz deyəcəm. Məsim müəllim elə həmin günü rayon təhsil şöbəsinin müdirinin yanına gedir və mənim barəmdə onunla söhbət edir. O vaxtlar təhsil şöbəsinin müdiri Dallaryan işləyirdi. Məsim müəllim şöbədən razılıq aldıqdan sonra məni yanına çağırdı və dedi ki, get təhsil şöbəsinə və de ki, məni Məsim müəllim göndərib. Mən getdim Dallaryanın yanına və dedim ki,məni Məsim müəllim sizin yanınıza göndərib. Şöbə müdiri mənə dedi ki, səhər tezdən İrəvanda təhsil nazirliyində ol, mən gələcəm oraya. Elə də oldu. Nazirlikdən əmri aldım sevinə-sevinə kəndə gəldim və əmri Məsim müəllimə təqdim etdim. Heç bu əhvalat barədə məktəbin direktoru Məhəmməd müəllimin də xəbəri yox idi. Direktorun otağına ikimiz də gülə-gülə birlikdə girdik və Məsim müəllim əmri direktora təqdim etdi və heç bir kəlmə də söz demədi. Çünki bu işi düzəldən var

idi.Həmin gündən mən başladım müəllim işləməyə. Bax ondan sonra mənim Məsim müəllimlə dostluğum oldu. Məsim müəllim tez-tez mənim dərslərimə girərdi, sinfi dinləyərdi və sonra həmin dərs barədə metodik göstərişlərini verərdi. Sonradan elə oldu ki, məni rus dili və ədəbiyyatının fənn birləşmə rəhbəri və rus dili kabinetinin rəhbəri təyin etdi. Sonrakı illər mən Məsim müəllimin təşəbbüsü ilə məktəb təftiş komisiyyasının sədri və məktəb nəzarət komitəsinin sədri seçildim. Mənim rus dili kabinetimdə azbis trubasından düzəldilmiş bir plitkam var idi. Payız vaxtı məktəbin təcrübə sahəsi var idi. Orada bostan bitkiləri əkirdik. Payız yığımında bir qədər kartof gətirib kabinetimə qoyurdum. Boş vaxtlarımızda, nahar vaxtı Məsim müəllimi çağırırdım ki, gəl kartof bişirmişəm. Məsim müəllim plitkada bişən kartofu çox sevərdi. Söhbət edə-edə naharımızı edərdik.

Onunla çörək yemək adama ləzzət verərdi. Arabir mən onun evinə, o da bizim evə gedərdik. O, çox sevərdi xoruz-toyuq ətini. Zarafatyana yoldaşıma deyərdi, Gülşən kirvə bax o toyuğun hissələrini tanıyıram, hamsı qabda olmalıdır. Ən çox sevərdi toyuğun daşlığını,qanadını və çöməliyini. Özü də çox az yeyərdi. Arabir Hacı müəllimgilə gedərdik. Ərkyana bacıma deyərdi, Minayə kirvə, xəngəli tez bişir. Məsim müəllim mən məktəbdə işlədiyim vaxtlarda mənə çox köməyi olub. İldə bir dəfə məktəb partiya təşkilatının hesabat yığıncağı olurdu. Həmin yığıncaqda partiya bürosunun yeni tərkibi seçilirdi. Həmin seçkidə məni həmişə partiya bürosuna üzv seçirdi. Mənə öz ixtisasımdan başqa məktəbin emalatxanası və bir neçə saat tarix dərslərini həvalə edərdi. Məsim müəllim barədə çox xatirələr yazmaq olar. O gözəl müəllim, yaxşı dost, etibarlı insan və hər cür insani keyfiyyətləri olan ailə başçısı, kəndimizin və məktəbimizin fəxri idi.

Hörmətlə: Rəşid Qasımov



«Müəllimi olmayan millət hələ millət adını daşımağa layiq deyil».

O.Balzak

Məşədiyev Məcid



Arçut kənd orta məktəbinin
Fizika müəllimi.

Hərtərəfli müəllim

Mən, Arçut kəndində 1949-cu ildə doğulmuşam. 1973-cü ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun fizika fakültəsini əla qiymətlərlə bitirmişəm. Mən uşaqlıqdan köhnə xatirələrlə maraqlanan insan olmuşam. Kəndimizdə söz-söhbəti kəlam kimi işlənən, qabiliyyəti ilə dillər əzbəri olan kişilər yaşamışdır. Belə kişilərdən biri də Məşədi oğullarıdır ki, mən də onların nəvəsiyəm.

Əflatun atan Məsim müəllim haqqında xatirə yazmaq üçün böyük məsuliyyət tələb olunur.

Məsim müəllim çox savadlı, həm də hərtərəfli biliyə malik idi. Mən hələ kənddə müəllim işləyərkən hər bir fənn üzrə bütün müəllimlərin iştirakı ilə təhlil olunardı. Təhlil zamanı Məsim müəllim qeyri-fənləri də əsl ixtisasçıdan daha dolğun təhlil edər və göstərişlər verərdi. Bu barədə onun dərs dinləmə dəftəri məndə əziz bir xatirə kimi saxlanılır. O bir ziyalı kimi kəndin uşaqlarının qonşu kəndin uşaqlarından savadlı olmasını istəyirdi. Rayon işçiləri arasında nüfuzu vardı. Ona görə də heç vaxt kənd sakinlərinin təşəbbüsünü çəkmədən rahatlana bilməzdi. O qərəzli yaşamağı sevməzdi. Xırda işlərdə söz-söhbəti qohumlar arasında, qonşu arasında, dost arasında uzatmazdı. Lakin ciddi məsələlərdə ancaq düzün tərəfində durardı. O bütün ömrünü özünə məxsus ləzzətlə yaşamağı bacarırdı. Ailəsini və uşaqlarını çox sevərdi.

Xatırımdadır bir dəfə Məşədiyeva Qəmər və mənim dərsimi dinlədikdən sonra belə bir ifadə işlətdi: "Mən dəqiq fənlər üçün əsil müəllimə rast gəldim". Heç yadımdan çıxmaz İsmayıl müəllimin dram dərnəyində S.Vurğunun "Vaqif" dramı səhnələşdirilmişdi. Həmin

səhnə kəndin klubunda kənd camaatı üçün göstərildi. Həmin dramda Vaqif rolunu Məsim müəllim, Vidadi rolunu isə İsmayılov Məhərrəm aparırdı. Onların səhnə dialoqunda Məsim müəllimin dəyanətli vəzirliyi, Məhərrəm müəllimin isə həzinliyi, yumşaq təbiəti özünü göstərirdi. Bu səhnədən sonra kənd camaatı onlar haqqında "onlar əsl səhnə ustalarıdır" deyirdi.

Odur ki, atalar yaxşı deyib, su axan yerdən bir də axar. Emin ağanın nəvəsi elə ağa (əsl toxtamış insan) xarakterində olmalı idi. Məhz Məsim müəllim də belə bir insan idi.

Arzu edərdim ki adını yaşatmaq üçün Məsim adını verdiyin oğlunda (nəvəsində) atanda olan bütün keyfiyyətlər və səndəki dünyaya baxışla cəmləndikdə onunla ünsiyyətdə olanlar desin torpağı sanı yaşamış Məsim babasının özüdür.

Atanı əbədiyaşar etdiyin üçün səni səmimiyətlə bağrıma basıram.

Hörmətlə: Məcid Məşədiyev



«Nə qədər ki, yaddaş var, ölənlər unudulmayacaq».

İ.Andriç

Həsənov Alxas



Arçud kənd orta məktəbində Fizika müəllimi işləmişdir...

Xatirə həsr olunur Məsim müəllimə

Mən – Həsənov Alxas Bayram oğlu 1946-cı ildə Ermənistan SSR Spitak rayonu Saral kəndində anadan olmuşam. 1952–53-cü ildə həmin kəndin orta məktəbinin I sinifinə daxil olmuş və 1962–63-cü ildə həmin məktəbi bitirmişəm. Həmin ili Bakıya gələrək AZİ-yə qəbul olmuşam. Lakin 2 il həmin institutda oxuduqdan sonra müəllim olmaq həvəsi ilə oradan öz xahişimlə çıxaraq sənədlərimi Lenin adına APİ-yə verdim və oranı bitirib, kəndə qayıtmışam. Ermənistan SSR Təhsil Nazirliyinin təyinatı ilə Arçut kənd orta məktəbinə fizika müəllimi təyin olunmuşam.

1970-ci li avqust ayının 20-də mən qonşu kənd olan Arçut kəndinə gələrək təyinatımı məktəbin direktoru Mamed müəllimə təqdim etdim. Bu zaman onun yanında hündür boylu, saçları səliqə ilə arxaya daranmış, cüssəli bir nəfər də var idi. Direktor mənə dedi ki, tanış ol, məktəbimizin dərs hissə müdiridir. Bu, Məsim müəllim idi. Mən onunla belə tanış oldum. Məsim müəllim də ixtisasca fizika müəllimi idi. O, yaşca məndən böyük idi. Biz yaş fərqini həmişə qoruyurduq. Mən həmin məktəbdə 3 il işlədim. Məsim müəllim kənddə bütün tədbirlərdə iştirak edirdi və həmin tədbirlərə mənsiz getmirdi. Biz yaxın dost olmuşduq. Saral ilə Arçut kəndinin arası təxminən 4 km olardı, mən hər gün piyada gedib-gəlirdim. Mən dərsdən gec çıxanda və ya məktəbdə tədbirlər olanda, gec olurdu. Məsim müəllim qoymurdu kəndə qayıtmağa, gecəni onlarda qalırdım. Məsim müəllim gözəl pedaqoq, yaxşı təşkilatçı, yaxşı dost, ən əsası gözəl insan idi. Açıq etiraf edirəm ki, mən ondan çox şey öyrəndim. Mən təcrübəsiz gənc müəllim idim, o mənə hər şeyi öyrədirdi. Hal-hazırda mən Sabunçu rayonu 295 N-li tam orta məktəbdə təlim-

tərbiyə işləri üzrə direktor müavini işlədiyimə baxmayaraq bəzi hallarda Məsim müəllimin təcrübəsi mənə kömək olur. Mən müəllim kimi püxtələşməyimdə Məsim müəllimə borcluyam.

Allah ona rəhmət eləsin.
Hörmətlə: Həsənov Alxas



«Elm və təhsilə qarşı çıxmaq insanlığa qarşı çıxmaq deməkdir»

O.Uoyld

Həsənova Gülavər



Arçut kənd orta məktəbinin Rus dili və Ədəbiyyat müəllimi....

Qısa arayış

Həsənova Gülavər Süleyman qızı 1951-ci il fevralın 5-də Ermənistan SSR-in Quqark rayonun Arçut kəndində kolxozçu ailəsində anadan olmuşdur. 1958-ci ildə həmin kənddə M.F.Axundov adına orta məktəbin 1-ci sinfinə qəbul olunmuşdur. 1968-ci ildə həmin məktəbi müvəffəq qiymətlərlə bitirmişdir. 1969-cu ildə Bakıya gəlmiş və M.F.Axundov adına Rus dili və Ədəbiyyat institutuna daxil olmuş və 1974-ci ildə həmin institutu bitirərək öz kəndlərinə qayıtmışdır. O, 11 il doğma məktəblərində rus dili və ədəbiyyat müəllimi işləmişdir. 1975-ci ildə ailə qurmuşdur. O üç övlad anasıdır. 1985-cı ildə ailəsi ilə birlikdə Bakı şəhərinə köçmüşdür. O müəllimlik fəaliyyətini Xətai rayonu 194 saylı orta məktəbində davam etdirmişdir. 2010-cu ildən təqaüdə çıxmışdır.

Sevimli müəllimim və həmkarım Məmmədov Məsim Yusif oğlu haqqında xatirələrim

Məsim müəllim Ermənistan SSR Quqark rayonunun Arçut kəndində anadan olub və həmin kəndin M.F.Axundov adına orta məktəbin fizika-riyaziyyat müəllimi, eyni zamanda uzun illər dərs hissə müdiri olub.

Məsim müəllim mənə 9-10-cu sinifdə fizikadan dərs deyib. Mən Məsim müəllimə yalnız bir müəllim kimi yox, həm də qardaşımın yaxın dostu kimi hörmət edirdim. Onlar həmyaşıd idilər. Birlikdə Bakıda ali təhsil alıb, birlikdə doğma kəndə qayıdaraq biri fizika-riyaziyyatdan, o biri isə kimya, biologiya və coğrafiyadan həmkəndlilərinin balalarına dərs veriblər. Məsim müəllim qardaşımın dostu kimi tez-tez bizə gələrdi.

Onlar tələbə vaxtı başlarına gələn gülməli hadisələrdən danışardılar. O tez-tez qardaşıma sataşardı. Deyərdi ki, Vəkil "qara" çörəyi xoşlamırdı və həmişə mənim ağ çörək payıma ortaq olardı. O hazırcavablığı və duzlu-məzəli söhbətləri ilə özünü ətrafdakılara sevdirməyi bacarırdı. Bizim ailədə hamı onu sevirdi, ata-anamın yanında da onun öz hörməti var idi. Bizə gələndə onun yeri həmişə yuxarı başda olardı.

Məsim müəllim məktəbdən kənarda nə qədər gülərüz və şən olsa da, məktəbdə xüsusilə dərsdə çox ciddi və tələbkar olurdu. Biz şagirdlər onu bu xasiyyətinə görə çox sevirdik və hörmət edirdik. Məsim müəllim fizika kimi ağır bir fənni elə asan dillə başa salırdı ki, bəzən bizə elə gəlirdi ki, fizika dərsində deyil, ədəbiyyat dərsində oturmuşuq.

Yaxşı yadımdadır. Bizim məktəbdə nəğmə və dram dərnəyi fəaliyyət göstərirdi. Bir dəfə gənc müəllimlər yuxarı sinif şagirdlərinin köməyi ilə görkəmli xalq şairi S. Vurğunun "Vaqif" dramını səhnələşdir-mişdilər. Məsim müəllim Ağa Məhəmməd şah Qacar, Vəkil müəllim Qaçaq Eldar, İsrafil müəllim İbrahim xan, Məmməd Rəhim oğlu Vaqif, Məhərrəm müəllim Vidadi rollarında çıxış edirdilər.

Onlar oynadıqları öz gözəl rolları ilə uzun müddət kənd camaatının gözəl mənada söz-söhbətinə çevrildilər və onların dərin məhəbbətini qazandılar.

Məktəbimizdə nəğmə və dram dərnəyindən başqa "Kimya", "Fizika" dərnəyi də fəaliyyət göstərirdi. "Kimya" dərnəyinə Vəkil müəllim, "Fizika" dərnəyinə Məsim müəllim rəhbərlik edirdi. Şagirdlərin köməyi ilə tez-tez kənd klubunda çıxışlar təşkil edirdilər. Kənd camaatı şagirdlərin göstərdikləri təcrübələrə maraqla baxırdılar və onların müəllimlərinə əhsən deyirdilər. 1968-ci ildə orta məktəbi bitirərək Bakı şəhərinə gəldim, ali məktəbə daxil oldum və beş ildən sonra mən də Məsim müəllim tək doğma məktəbimizə qayıdaraq rus dili və ədəbiyyat müəllimi kimi fəaliyyətə başladım. Mənim yaxşı bir müəllim kimi yetişməyimdə Məsim müəllimin az rolu olmayıb. O gənc müəllimlərə kömək etmək məqsədi ilə tez-tez dərslərimizdə oturardı. Dərsdən sonra isə necə deyərlər, həmin dərsi saf-çürük edərdi, bizə çox faydalı metodik məsləhətlər verərdi, çalışardı ki, könlümüzə toxunmadan ən kiçik detallara qədər aydınlaşdırsın. Biz onunla 11 il çiyin-çiyinə müəllim işlədik, amma özümü onun yanında müəllimdən çox şagird kimi hiss edirdim. O gözəl insan dünyadan çox erkən, 50 yaşı

belə tamam olmadan köçdü. Onun vaxtsız ölümü kənd camaatı üçün, şagirdləri üçün, müəllim yoldaşları üçün ağir itki idi. Bu itki hər kəsi ürəkdən sarsıtmışdı. Biz şagirdlər üçün o, çox ölüdən diridir və biz onu həmişə hörmət və məhəbbətlə xatırlayacağıq, çünki hamımız yaxşı başa düşürük ki, bizim bu gün cəmiyyətdə bir insan kimi, savadlı bir kadr kimi yer tutmağımızda Məsim müəllimin və bizə dərs verən digər müəllimlərin əməyi çoxdur.

Bizə zəhmət çəkən, yaxşı insan kimi yetişməyimizdə əməyi olan, dünyasını dəyişmiş bütün müəllimlərimizin ruhu şad olsun.

Biz, yəni Arçut kənd camaatı heç vaxt Məsim müəllimi unutmayacaq. İnsanlar onun haqqında danışarkən onların sifətlərini kədərlə, təəssüflə dolu bir kölgə bürüyür və eyni zamanda gülümsəməmək mümkün olmur. Çünki har kəsin yadına Məsim müəllimin söylədiyi lətifələrdən biri düşür.

Müəllimi Gülavər Həsənova Süleyman qızı

ԴԱՍԻ ԳՐԱՆՑՈՒՄ № 83.

1. Դասարան VIII դ Դ — դրանցման ամսաթիվը 24/XI
2. Բացակայող և ուշացող աշակերտների ազգանունը Ամո Ենոքյան ուշ.
3. Ուսուցչի ազգանունը Գեոդա Կ.
4. Առարկան Հայ գրականություն
5. Դասի թեման Ողբ Հայոց
6. Դասավանդման նպատակը աշակերտ ստեղծագործական ոճի հետ ծանոթացնել
7. Դասի կառավարումը և դասագրքերով ապահովվածությունը գրատախտակ ցուցադրություն
8. Դասարանի սանիտարական վիճակը Կանոնավոր պահպանված է

9. Տվյալ դասի տեղը թեմային —
Հատկացրած դասերի համակարգում —

10. Դասի կառուցվածքը և նրա տարբեր մասերի կենսագործումը Ուսուցիչը բացատրում է գրքի հեղինակի մասին կարճ տեղեկություններ, ապա կարդում է «Ողբ Հայոց» ստեղծագործությունը, որից հետո աշակերտները կարդում են գրքի հատվածներ, ապա ուսուցիչը կարդում է գրքի մնացած մաս

ԴԱՍԻ ԲՆՈՒԹԱԳԻՐԸ

(Դաղափարա-բաղաբական, գիտա-տեսական և արտադրական ձևավորման տեսակետից)

Դասի դրական կողմերը	Դասի բացասական կողմերը
1. Աշակերտները ցանկությամբ շարունակեցին աշխատանքը ընդհատված տեղից	

Մատենավարությունը ուսուցչի կողմից Աշակերտները ցանկությամբ շարունակեցին աշխատանքը ընդհատված տեղից։

Դիտողություններ	Առաջարկություններ և հետևություններ
1. Ցանցը ամբողջությամբ չի ավարտվել։	1. Ցանցը ամբողջությամբ ավարտել հաջորդ դասաժամին։



«Ömrün müddəti deyil, bu ömrü necə yaşadığın əhəmiyyətlidir».

H.Holley

Çəltikov Qiyas



Arçut kənd orta məktəbində riyaziyyat müəllimi işləmişdir.

Böyük pedaqoq

Mən – Qiyas Hacıkərim oğlu Çəltikov 1951-ci ildə Qərbi Azərbaycanda anadan olmuşam. 1958-ci ildə M.F.Axundov adına Arçut orta məktəbinin birinci sinifinə daxil olmuşam. 1968-ci ildə həmin məktəbi bitirmişəm. Həmin ildə Bakı şəhərində APİ-nin riyaziyyat fakültəsinə qəbul olmuşam. 1972-ci ildə ali təhsili başa vurub, vətənə dönmüşəm. 1972-ci ilin avqust ayından öz doğma məktəbimdə riyaziyyat müəllimi kimi fəaliyyətə başlamışam. Həmin vaxtdan mənim orta məktəbdə fizika-riyaziyyat müəllimim Məsim Yusif oğlu Məmmədov yoldaşın təkidi ilə 9-10-cu siniflərdə riyaziyyat dərslərini tədris etmişəm.

Həm məktəbin dərs hissə müdiri kimi, həm də bir yoldaş kimi onun tövsiyyələrini qəbul etmiş və bir gənc müəllim kimi rayon miqyasında fəal olmağımla tanınmışam. Onun, mənim namizədliyimi irəli sürərək və pedaqoji şuranın qərarı ilə İrəvan Pedaqoji İnstitutunda qəbul imtahanında iştirak etmişəm. Tez müddətdə rayon üzrə açıq dərs vermiş, metodik məruzələr etdirmiş və öz təcrübəmi müəllimlər arasında yaymışam. Məhz ona görə də Təhsil Nazirliyi tərəfindən baş müəllim adına layiq görülmüşəm. Məsim müəllim Respublika üzrə Təkmilləşdirmə İnstitutunun metodik müəllimi idi. O, gənc müəllimlərə öz bilik və bacarığını lazımınca öyrədir, müəllimlərə metodik məruzələr hazırlayıb, nəticəsini fənn birləşmə üzvləri arasında müzakirələr aparırdı. Bir sözlə, mənim bir riyaziyyatçı kimi formalaşmağımda onun şəxsiyyət kimi rolu çox böyük olmuşdur. Onun mənim üzərimdə valideynlərim qədər əməyi olmuşdur. Nə qədər həyatda varamsa, onun əməllərini davam etdirəcəyəm və heç vaxt onu unutmayacağam.

Dərs vaxtı müəllimlərin nöqsanlarını heç vaxt birbaşa üzünə deməzdi. Məsələn, "belə desəm daha yaxşı olardı", kimi sözlərlə ifadə edərdi. Mülayim, xoşxasiyyət, mehriban, zarafatcıl idi. Bir tikə çörəyini belə insanlarla bölüşməyi sevərdi. Deyəndə ki, siz Məsim müəllimlə adaşlarının fərqi nədədir? Deyərdi ki, mənim adımdakı apastrof işarəsi – yeyib-içmək deməkdir. Müəllimim haqqında çox xatirələrim var. Ancaq elə bilirəm ki, bu qədər kifayətdir. Onun ölümü elimiz üçün böyük itki oldu. Allah ona qəni-qəni rəhmət eləsin, məkanı cənnət olsun. Ən böyük arzum odur ki, o gün olsun ki, onun övladları qəbrini ziyarətə gedə bilsinlər. O, dünyasını dəyişsə də onun ruhu bizimlədir və dostlarının qəlbində daim yaşayacaqdır. Allah balalarına və Eminlər tayfasına can sağlığı versin.

Hörmətlə yad etdi: Dostu və müəllim yoldaşı Qiyas müəllim

ԴԱՍԻ ԴՐԱՆՑՈՒՄ № 61

1. Դասարան X.Б դրանցման ամսաթիվը 16/XII
2. Բացակայող և ուշացող աշակերտների ազգանունը 1. Ягнушева 3 2. Зезулов Пе/ууд ферсе Кязелиевеевер 3. Шакарьев Рефиев Ахметов Т.
3. Ուսուցչի ազգանունը
4. Առարկան
5. Դասի թեման Дубкаш приспособление плуга
6. Դասավանդման նպատակը фрекен здаелубеги в Дубкаш дхлолаз
7. Դասի կահավորումը և դասագրքերով ապահովվածությունը фрселиеез хъшиндарыр
8. Դասարանի սանիտարական վիճակը Харшиеш ялиш шеч

9. Տվյալ դասի տեղը թեմային
Հատկացրած դասերի համակարգում

10. Դասի կառուցվածքը և նրա տարբեր մասերի կենսագործումը Муэлиеш енеде дахил олду шакирд хъшиндан Сонра ев тапшырмаларын арунтал дхлаун. Дава Сонра Кечиелиш мовзулара аид плакат суал-коваб штиал етди. Суал-коваб було ресенеэ Ресепорин экъуубуэ тапшыраг етмиш. Кечиелиш мовзуйун Соруэ заалиеш ерлиарэ фалиеш биес едиларэ. Соруэ заалиш шакирдлэрэ тэлэ в дубкаш ковабларэ олмага Кечиелиш мовзуйун Соруэ в результатлэрыналасена до вахт етди Дава Сонра муэлим приплакат ялиш коган да шеърлиш ерлат стуч. Штапуэ кор в ач тапшырыр Сонуэ. Мовзуэ аид муэлиш өзү ресим плакат назырлаймышдыр Үчүн мовзуйун сыр тэлэ езоч етди Фрсе аид ялиш бил едилиб фрсе результатларын чч

ԴԱՍԻ ԲՆՈՒԹԱԳԻՐԸ

(Գաղափարա–բաղաքական, գիտա–տեսական և արտադրական ձևավորման տեսակետից)

Դասի դրական կողմերը

1 Նոր նյութը ամրացնելու ժամանակ ցույց տալ ավելի շատ պատկերներ:
2 Ցույց տալ դասի ընթացքում ուշադրությունը ավելի երկար պահել:

Դասի բացասական կողմերը

1 Նոր նյութը բացատրելիս ուշադրությունը դասարանի վրա ցածր էր:
2 Ուսուցչի խոսքը շատ արագ էր:
3 Նյութը ամբողջությամբ չհամախմբեցինք:
4 Նոր նյութը ներկայացնելիս ավելի շատ ուշադրություն դարձնել:
5 Նոր նյութը ներկայացնելիս ավելի շատ ուշադրություն դարձնել:

Մատենավարությունը ուսուցչի կողմից – Նորը բացատրելիս ավելի շատ ուշադրություն դարձնել դասարանի վրա:

Դիտողություններ / Ուշադրությունը սահմանափակ է դասարանի մեծ մասի վրա:

Առաջարկություններ և հետևություններ

1. Դասը ավելի հետաքրքիր դարձնելու համար ավելի շատ պատկերներ ցույց տալ:
2. Նյութը ամբողջությամբ չհամախմբեցինք:



«İnsan varlığının sirri yalnız yaşamaqda deyil, nəyin naminə yaşamaqdadır».

F.Dostoyevski

Çəltikov Məmməd



Arçut kənd orta məktəbində kimya müəllimi işləmişdir....

Etibarlı dost

Mən – Çəltikov Məmməd Əhməd oğlu 1949-cu il yanvar ayının 2-də Ermənistan Respublikası, Quqark rayonu Arçut kəndində anadan olmuşam. 1956-cı ildə Arçut kənd orta məktəbinə daxil olub, oranı 1966-cı ildə qurtarmışam. 1966-cı ildə Azərbaycan Dövlət Universitetinin Kimya fakültəsinə daxil olmuşam. Oranı bitirdikdən sonra Quqark rayonu Arçut kənd orta məktəbində kimya müəllimi işləmişəm. 1976-cı ildə Ermənistan Maarif nazirinin fəxri fərmanı, 1978-ci ildə Baş müəllim adına və 1979-cu ildə Əməkdar fərqlənmə medalına layiq görülmüşəm. 1989-cu ildən Bakı şəhəri Nəsimi rayonu 152 saylı orta məktəbdə kimya müəllimi işləyirəm. 1997-ci ildə Ali kateqoriya dərəcəsinə layiq görülmüşəm. 1992-ci ildən TQDK-da imtahanlarda nəzarətçi işləyirəm. TQDK-nın fəxri fərmanı ilə təltif olunmuşam. Evliyəm. Üç oğul övladım var. Hal-hazırda həmin məktəbdə müəllim işləyirəm.

Mən Məsim müəllimi bir müəllim kimi gözəl insan, etibarlı dost, öz fənninin layiqincə öhdəsindən gələn yaxşı bir müəllim kimi xatırlayıram. Məsim müəllim öz fənni ilə yanaşı (fizika-riyaziyyat) digər fənlər haqqında da məlumatı olan bir insan idi. Bir hadisə yaxşı yadımdadır ki, Vartana kəndində bir coğrafiya müəllimi ilə mübahisə edərkən Cənubi Amerikada olan dövlətləri coğrafiya müəllimi tam göstərdikdən sonra Məsim müəllim əlavə 3 cırtdan dövləti göstərdi. Bu o demək idi ki, dərs hissə müdiri işlədiyi zamanlar digər fənlərə də fikir verirdi. Bir xatirəni də heç vaxt unutmaram. Mən Trusqafes şəhərinə ssanatoriyaya gedən vaxt Məsim müəllim İravanda kursda idi. Onunla orada görüşdük.

Դիտողություններ 1. Աշակերտները նյութը լավ յուրացրին և ճիշտ պատասխանեցին տրված հարցերին 2. Ընթացքում ոչ մի դիտողություն չարձանագրվեց

Առաջարկություններ և հետևություններ 1. Գյուղատնտեսության մեջ ոռոգման համակարգերի նշանակությունն ավելի ընդգծել նաև ուրիշ առարկաների դասերին ևս ոռոգման համակարգերի մասին խոսելիս 3. Ջրի ճիշտ օգտագործման վերաբերյալ դիտողություններ.



«İnsanın əsl dəyəri onun zəhməti ilə ölçülür»

E.Munye

Yusifov Salman



Mən – Yusifov Salman Nəsib oğlu, 1956-cı ilin may ayının 19-da Quqark rayonunun Arçut kəndində doğulmuşam. Ali təhsilli tarix müəllimiyəm. 1978-ci ildən əmək fəaliyyətinə başlamışam. Hal-hazırda 165 saylı orta məktəbdə tarix müəllimi işləyirəm.

Mənalı ömür

Mənalı ömür yolu keçmiş, qayğıkeş insan, tanınmış müəllim Məsim Yusif oğlu Məmmədovun keçdiyi həyat yolu nəsillərə nümunədir. Görkəmli pedaqoq Məsim Məmmədov bütün həyatını gənc nəslin təlim-tərbiyəsinə, gənclərin gələcəyinə həsr etmişdir. Məsim Məmmədov ensiklopedik biliyə, iti zəkaya, böyük həyat təcrübəsinə malik olan nadir ziyalılardan biri kimi mənim yaddaşımda dərin iz buraxmışdır. O, öz davranışı, mənəvi-əxlaqi keyfiyyəti ilə nəsillərə nümunə olmuşdur. Məsim Məmmədovun elmə, mədəniyyətə sonsuz marağı hər zaman insanın diqqətini özünə cəlb etmişdir. Məsim müəllim öz şagirdlərini həmişə milli ruhda tərbiyə etmiş, onların əsl vətəndaş kimi yetişməsinə böyük əmək sərf etmişdir. Məsim Məmmədov uzun müddət Qərbi Azərbaycanın, Quqark rayonunun Arçut kəndində tədris işləri üzrə direktor müavini işləmişdir. Məsim müəllim peşəkar bir müəllim kimi gənc müəllimlərə həmişə qayğı göstərmiş, onlara həyatın və sənətin sirlərini öyrətmişdir. Məsim müəllimin özünəməxsus təbiəti var idi. O, öz işinə həmişə ciddi və məsuliyyətlə yanaşmaqla yanaşı, həm də duzlu-məzəli, şirin zarafatlarından ustalıqla istifadə edirdi. Geniş biliyə, dərin düşüncəyə malik olan Məsim müəllim el-obanın sevgisini qazanmış, onu sevənlərin qəlbində əbədi heykəl ucaltmışdır. İstedadlı müəllim, gözəl tərbiyəçi Məsim Məmmədov həmişə öz şagirdlərinə tövsiyyə edərdi: «Bilik elmdən, hörmət işdən, firavanlıq səydən, mükafat isə taledən asılıdır». Bunu həyatda mütləq qazanmaq lazımdır. Fiziki cəhətdən yox, mənən yaşayan Məsim Məmmədovun həyat və fəaliyyəti çoxcəhətli xüsusiyyətə malikdir. Fərdi xüsusiyyətləri ilə zəngin

olan Məsim müəllim fədakar əməyi ilə çox ailələrə arxa-dayaq durmuş, faydalı məsləhətləri ilə ürəklərə yol açmışdır. Görkəmli pedaqoq Məsim Məmmədovun elmi kadrların hazırlanmasında da müstəsna xidməti olmuşdur. Məsim Məmmədovun elmi düşüncələrindən, həyati təcrübəsindən bəhrələnən, onun davamçıları, onun həyata keçirə bilmədiyi arzularını gerçəkləşdirmişlər. İstedadlı müəllim, qayğıkeş ata, nəcib insan, elm fədaisinin elmi irsi onu tanıyanların qəlbində əbədi yaşayacaqdır.

Mən onun şagirdi olaraq, Məsim müəllimin ruhu qarşısında baş əyir, öz vicdanım qarşısında mənim üzərimə düşən mənəvi borcu dərk edərək, əziz müəllimimin elmi-pedaqoji işinin davamçısı olmağımı özümə borc bilirəm. Elimizin ziyalı oğlu, tanınmış müəllim, müdrik insan Məsim Məmmədov hal-hazırda cismən aramızda olmasa da, onun keçdiyi həyat yolu onu tanıyanlara, sevənlərə bir örnəkdir, tükənməz bir sərvətdir. Heç nə unudulmur, heç kim yaddan çıxmır, tarixdə onu sevənlərin yaddaşında əbədi yaşayır və əsrlərdən əsrlərə, nəsillərdən-nəsillərə ötürülməklə əbədiyyata çevrilir.

Hörmətlə: Salman Yusifov



«Elm ən qədim dövrlərə nəzər salmağa imkan yaradır».

U.Çörçill

Rəfiyev Sayad



Mən – Sayad Rəfiyev 1957-ci ilin fevral ayının 12-də anadan olmuşam. 1964-1974-cü il tarixlərdə Arçut kənd orta məktəbində təhsil almışam. 1978-ci il tarixində H.Zərdabi adına Pedaqoji İnstitutun tarix fakültəsinə daxil olmuşam, 1983-cü ildə isə oranı bitirmişəm.

1977-ci ildə pedaqoji fəaliyyətə başlamışam.

1989-cu ildən Binəqədi rayonu 99 saylı orta məktəbdə baş müəllim kimi fəaliyyət göstərirəm.

ÜRƏKLƏRDƏ YAŞAYAN ŞƏXSİYYƏT

Bilmirəm, hardan və necə başlayım. Əksi gözlərim qarşısında, istəyi qəlbimdə, ruhu başım üstündə dolaşan bir insan ömrünün müəyyən məqamlarına aydnlıq gətirməyə cəsarətim çatmır. Daha doğrusu, öz doğması tək mənə qayğı göstərən bir müəllim kimi yetişməyimdə xüsusi rolu olan, faydalı öyüd-nəsihətlərindən bəhrələndiyim müəllimlər müəllimi bir ziyalı şəxs barədə söhbət açmaq və ya yazmaq nə qədər çətin, son dərəcə məsuliyyətlidir. Bu ayrılığı və bu üzücü anları yaşadıqca, ötən illərin acılı-şirinli xatirələri kövrək qəlbimə hakim kəsilir hal-hazırda.

Haqqında söhbət açdığım şəxs Məsim Yusif oğlu Məmmədovdur. Bütün ömrünü yaradıcılığa, xeyirxahlığa sərf edən bu nəcib müəllimi və sonralar iş yoldaşımı düşündükcə kövrək duyğular, poetik misralara çevrilir.

Səni düşünürəm, bir müəllimim tək,
Ay Məsim müəllim!
Qəlbim çox kədərlidir, gözlərim yaşlı,
Ay Məsim müəllim!
Gözə görünməyən, o bir Allahdan
Rəhmət diləyirəm ruhuna, müəllim!

Xatrələrimiz Məsim müəllimlə çox zəngindir. Mən Sayad Rəfiyev müəllimlər qurultayının nümayəndəsi seçiləndə, qurultaydakı çıxışım, qəzetdəki mənim haqqımda yazılan məqalələri oxuyandan sonra, xüsusi ilə mənə baş müəllim adı veriləndə, Məsim müəllimin sevincinin həddi-hüdudu yox idi. O, deyirdi: «Mən sizinlə fəxr edirəm». Uzun illər məktəb direktoru M.Əliyevin yanında direktor müavini kimi ömür yolunu yaşamış Məsim müəllim hər gün təhsilin qayğıları ilə yaşayırdı. Təhsil sistemində özünəməxsus xidmətləri olan bu ziyalı şəxsiyyətin çoxsaylı yetişdirmələri hal-hazırda həm vətənimiz Azərbaycanda, həm də vətənimizdən kənarlarda fəaliyyət göstərirlər.

O, çox təcrübəli pedaqoq kimi Müəllimlərilə Təkmilləşdirmə Institutunda dərs deyirdi. Məsim müəllim indi aramızda olmasa da, əziz xatirəsi qəlbimizdə həmişə yaşayır, ən kövrək və böyük dayaq olan duyğularla yad edilir.

Hörmətlə: Sayad Rəfiyev



«Bu dünyada min il ömür sürsə insan,
İdrak üçün, kamal üçün azdır».

S.Vurğun

Yusifov Salman



Hörmətə layiq insan

Mən – Yusifov Salman Daşdəmir oğlu, 1951-ci ildə Saral kəndində anadan olmuşam. Saral orta məktəbini bitirmişəm. APİ-nin fizika fakultəsini bitirmişəm. 1984-cü ildə Arçut kənd orta məktəbində fizika müəllimi işləmişəm. Hazırda Nərimanov rayonundakı 36 saylı məktəbdə fizika müəllimi işləyirəm.

Məsim müəllim deyəndə mənim xəyalıma bütün varlığı ilə məktəbə, təhsilə bağlı olan bir insan, bir şəxsiyyət düşür. Məsim müəllim mənim yaddaşımda təkcə fizika müəllimi, dərs hissə müdiri kimi yox, həm də bir metodist kimi qalıb. O, fizika, riyaziyyat, kimya, biologiya və s. fənlərin tədrisi metodikasını o qədər gözəl bilirdi ki, bunun nəticəsində Arçut kənd orta məktəbində tədrisin səviyyəsi çox yüksək olurdu. Odur ki, Arçut kənd orta məktəbini bitirənlərin çox faizi ali təhsil alırdı.

Məsim müəllim dinlənilən dərslərin təhlilini o qədər dəqiq aparırdı ki, dərsin bütün struktur incəlikləri adamın gözü qarşısında canlanırdı.

Məsim müəllim pedaqoq olmaqla yanaşı, yüksək insani keyfiyyətlərə malik bir şəxsiyyət idi. İstənilən insanla ünsiyyət qurmağı bacarır və bu ünsiyyətin qarşılıqlı olmasına nail olurdu.

Məsim müəllim haqqında çox söz demək, çox yazmaq olar ki, bunlar hətta bir neçə kitaba sığmaz.

Mən bir həmkar kimi Məsim müəllimə həm sağlığında böyük hörmətim olub, həm də dünyasını dəyişəndən sonra hörmətlə xatırlamışam, hörmətlə yad etmişəm.

Allahdan Məsim müəllimə rəhmət diləyirəm!

Salman müəllim Sarallı



«Şagirdlər öz müəllimlərinin həzm etdikləri ilə qidalanır».

K.Kraus

Məmmədov Eldar



Sevimli müəllim

Mən – Məmmədov Eldar Xatalı oğlu, Ermənistan SSR-in Quqark rayonunun Arçut kəndində anadan olmuşam. Hal-hazırda Nəsimi rayonu 152 № lı məktəbində təlim-tərbiyə işləri üzrə direktor müavini işləyirəm.

Mən Məsim müəllimi üç aspektdən xarakterizə etmək istəyirəm.

- Məsim müəllimi qohum kimi, əmim kimi xatırlayıram. O, qohum kimi çox təəssübkeş, qayğıkeş bir insan idi. Ailə qurarkən məsləhətçimiz və eyni zamanda, elçimiz, toylarımızın masabəyisi, özümüzün isə yol göstərənimiz idi.

- Məsim müəllim bizim ən sevimli müəllimimiz, mayakımız idi. O, bizə məktəbdə fizika dərsini tədris edirdi. O, dərslərini o qədər yüksək səviyyədə qururdu ki, hamımız fizikanın dərinliklərinə qədər gedə bilirdik. Onun əməyinin nəticəsi olaraq buraxılışımız zamanı ali məktəbə qəbul olunanların əksəriyyəti fizikadan ən yüksək qiymət almışlar. Onun əməyinin bəhrəsi kimi mən qəbul imtahanı zamanı 1200 abuturiyent içərisində yeganə abuturiyent idim ki, 5 (əla) qiymət almışdım. Ümumiyyətlə Arçut kənd orta məktəbinin məzunlarının hazırda tutduğu mövqeylərinə görə Məsim müəllimə minnətdar olmalıdırlar.

- Məktəb müdiriyyəti kimi, həmişə bizə daimi elmi-metodik göstərişlər verərək yaxşı bir müəllim olmağımıza çalışmışdır. Mən özüm Qəbələ rayonunda 3 il təlim-tərbiyə işləri üzrə direktor müavini işlədiyimə baxmayaraq ondan çox şeylər öyrənmişəm. Hal-hazırda Bakı şəhəri 152 № məktəbində 25 il təlim-tərbiyə işləri üzrə direktor müavini işləməyimə səbəb Məsim müəllimin mənə verdiyi göstərişlər, məsləhətlər və elmi biliklərdir.

Mən kənddə yeni müəllim kimi işləməyə başlayarkən Məsim müəllim hər gün dərslərimdə iştirak edir və onun müzakirəsi zamanı mənə çox böyük göstərişlər verirdi. İlk illər bu mənim xoşuma gəlməsə də, sonradan onun məqsədini anladım. IV sinifdə dərs zamanı qəflətən

təhsil şöbəsinin riyaziyyat üzrə inspektoru Məsim müəllimlə sinfə daxil oldular. Onlar riyaziyyatdan yoxlama yazı işi apardılar. Məni isə sinifdən kənarlaşdırdılar. Sinifdə 25 şagird oxuyurdu. Məsim müəllim mətni lövhəyə yazıb qurtardığı an 2 şagird həll etdiklərini və heç 5 dəqiqə keçməmiş digər 7 şagird, daha sonra isə 8 şagird həll etdiklərini bildirdilər.

Riyaziyyat inspektoru çaşqın halda Məsim müəllimin üzünə baxanda mənim onun qardaşı oğlu olduğumu söyləyərək peşəkar baxımdan ona oxşadığımı bildirdi. Doğrudan da həmin peşəkarlığa nail olmağım onun əməyinin bəhrəsi idi. Hal-hazırda Məsim müəllimi bir əmi, qayğıkeş müəllim və əsl bir pedaqoq kimi xatırlayıram. Ümumiyyətlə, Quqark rayonu üzrə fizika və riyaziyyat olimpiadaları onun rəhbərliyi altında həyata keçirilərək yekunlaşdırılardı. Ermənistan SSR üzrə demək olar ki, onu tanımayan müəllim yox idi.

Allah rəhmət eləsin!
Hörmətlə: Eldar Məmmədov



«Böyük uğurlar qiymətli anaların böyütdükləri övladların əməllərinin bəhrəsidir».

Atatürk

Rəcəbov Aydın



Qısa arayış

Mən – Rəcəbov Aydın Rza Kərim oğlu, 1941-ci il oktyabrın 3-də Qərbi Azərbaycanın Pəmbək mahalının Ardıc kəndində anadan olmuşam. Orta təhsilimi də M.F.Axundov adına orta məktəbində almışam. Ardıc kənd orta məktəbini 1958–59-cu tədris ilində əla qiymətlərlə bitirmişəm. Bu məktəb dövründə kəndimizə gələn Göyçə aşıqlarının və Borçalı aşıqlarının bütün məclislərində olmuş, onların söylədikləri dastanları dinlədikcə bu sənətə vurulmuşam. Bu sənətə məhəbbət məni çəkib 1960-cı ildə Borçalı mahalının Sadaxlı kəndində aşıq Məhəmməd Sadaxlının yanına aparmışdır. Mən 1965-ci ilə kimi, yəni 5 il ustada qulluq eləmişəm, Borçalının ustad aşıqlarından Aşıq Hüseyn Saraclının, aşıq Xındı Məmmədin, aşıq Əmrah Gülməmmədovun və aşıq Kamandar Əfəndiyevin sənətlərindən bəhrələnmişəm. Bu müddət ərzində mən ustaddan bir çox ustadnamələr, rəvayətlər və dastanlarla bərabər 72 saz havasının ifaçısı olmuşam. Özüm də 10-a qədər kamil şagirdlər yetişdirmişəm.

Sazın-sözün vurğunu Məsim

Mən – Aydın Rza, Ardıc kəndində böyük bir tayfanın Eminlər adlı qoluna mənsubam. Bizim tayfanın ziyalılarından Məmməd müəllim və Məsim müəllim həmişə məni dinləmiş və mənim sənətimə böyük qiymət vermişlər. Məsim müəllim riyaziyyatçı olmaqla yanaşı, həm də tarixçi ilə tarixçi, kimyaçı ilə kimyaçı, fizikaçı ilə fizikaçı, traktorçu ilə traktorçu kimi danışardı. Məsim müəllim kəndimizə müəllim kimi gələn gündən ömrünün sonuna qədər məktəbin dərs hissə müdiri kimi işləyib. Bunlarla yanaşı o, aşıq sənətini çox sevirdi, sazın sözün vurğunu idi. Məsim müəllim həm də İrəvan təkmilləşdirmə institutunun müəllimi idi. Yay günlərinin birində oğlu Tahir gəldi ki, «əmi, səni atam çağırır, evimizə qonaq gəlib». Sazı da götürüb getdim. Mən də qonaqla tanış oldum.

O, filologiya elmləri namizədi Bilal Ənsərov idi. Məsim müəllim onu iki gün qonşu Saral kəndinin sahəsində, Alı bulağının başında qonaq saxladı. Qonaq evlərinə qayıdandan 2-3 gün sonra mənə bir məktub gəldi. Açıb oxudum ki, Bilal müəllim mənə razılıq əlaməti olaraq bu şeiri yazıb.

Aşıq qardaş, meydana gir nər kimi
Məclislərdən minbir ilham al, oxu
Ustadların hər sözünü zər kimi
İftixarla el yadına sal oxu.

Sarı simlər alışdıqca sən də yan
Qoy nurunla işıqlansın bu meydan
Gah aranda, gah yaylaqda hər zaman
İnsanlarla bülbül kim çal oxu.

Əhməd oğlu , sona yetir sözümü
Sev vətənin dağlarının, düzünü
Aşıq qardaş, ustadların izini
İtirmə gəl, dost sözünü çal oxu.

Bir gün uşaq gəldi ki, səni atam çağırır, Bakıdan qonağımız var. Sazımı götürüb getdim. Qonaqlarla tanış oldum. Biri Politexnik İnstitutunun müəllimi Əhməd müəllim, digəri isə filologiya elmləri doktoru Mürsəl Həkimov idi.

Məsim müəllim elmli, savadlı olduğu qədər qonaqpərvər, insanpərvər bir şəxsiyyət idi. Mənim bu yazdıqlarım Məsim müəllimin xüsusiyyətlərinin mində biridir. Məsim müəllim həyatdan vaxtsız köçdü.

Allah Rəhmət eləsin.
Hörmətlə: Aşıq Aydın



«Birinin nə cür insan olduğunu bilmək istəyirsənsə, onun gördüyü işə diqqət ver»

Protaqor

Nəbiyev Teymur



Hörmətli Əflatun müəllim

Mənə təqdim etdiyiniz dəyərli hədiyyə üçün təşəkkür edirəm.

«Qərbi Azərbaycanın Pəmbək Mahalı» «Eminlər tayfasının səcərəsi» kitabını son səhifəsinəcən mütaliə etdim. Mənim nəzərimdə bu, möhtəşəm bir əsərdir və Pəmbək mahalının tarixində böyük bir hadisədir. Kitabı vərəqlədikcə, çox duyğulandım və sənə möhtərəm dayı oğlu, ürəkdən minnətdar oldum. Arçut kəndinin Eminlər tayfası haqqında tərtib olunan mükəmməl səcərə bütövlükdə tayfa üzvlərinə layiqli bir tövfədir.

Kitabda qədim Azərbaycan yurdu Pəmbək mahalı haqqında geniş tarixi məlumatlar dərc edilmiş, həmin məkanların xəritələri təqdim edilmiş, şəhər, qəsəbə, kəndlər və onların hansı çoğrafi ərazidə yerləşməsi haqqında oxucuya geniş bilgi verilmişdir.

Eləcə də, Eminlər tayfasının səcərəsi çox səlis, gözəl tərtib olunmuşdur.

Əminəm ki, bu kitab geniş oxucu kütləsinin böyük marağına səbəb olacaqdır.

İndi isə Əflatun müəllim, mənə məlumat çatdı ki, atanız və mənim dayım unudulmaz Məsim müəllim haqqında xatirələrinizi qələmə almaq fikrindəsiniz. Çox önəmli və ağıllı fikirdir, yalnız alqışa layiqdir. Mənə də xatirələrimi yazmağı məsləhət bilmisiniz və mən bu vəzifəni yerinə yetirməyi qərara aldım, bunu özüm üçün şərəf işi hesab edirəm.

Sizin Teymur

Xeyirxah insan
(unudulmaz Məsim müəllimə ithaf edilir)

Ruhu təmiz, saf gəlir,
Hər bir insan dünyaya.
Ölümsə vermir aman,
Cavan ya qocaya.
Ölümün də rəngi var,
Çalınan bir zəngi var.
Vaxtı yetişən günü,
O an çalır zəngini.
~~~~~~~~~~~~~~~
İnsan var köçüb gedər,
Tarixdə adı qalar.
İnsan var köçüb gedər,
Pisliyin "dadı"qalar.
Daim xəcalət çəkən,
Qohumu, yadı qalar.
Əsl insan odur ki,
Xeyirxah insan olsun.
Gedəndə də məkanı,
Cənnəti məkan olsun.
Mənim işıqlı dayım,
Ay yaraşıqlı dayım,
Çox tarixlər ötsə də,
İllər keçib getsə də,
Yoxluğunla ay dayı,
Könül qəmə bürünür,
Sənin yerin görünür.
Mənim ulduzum, ayım
Sevimli Məsim dayım.
Sevimlisi olmusan,
Hər vaxt qohumun, yadın.
Ay xeyirxah insanım,
Dilimdən düşmür adın.
~~~~~~~~~~~~~~~

Səni illər boyunca,
Görəmmədim doyunca.
Sındırdın qəlbimizi,
Erkən tərk etdin bizi.
~~~~~~~~~~~~~~~~
Vaxtsız gedər olsan da,
Hər yanda izin qaldı.
Hamıya məlhəm olan,
Sehrli sözün qaldı.
~~~~~~~~~~~~~~~~~~
Yaşadığın o ömrü,
Yaşamadın sən hədər.
Unutmarıq biz səni,
Ömrün sonuna qədər...

Səni heç zaman unutmayan bacıoğlun Teymur
06.08.2013

Xatirələr qaynağında

Bu əzabkeş, acılı-şirinli dünyada özümü tanıyandan bu yana dəfələrlə düşüncələr aləminə qapılıb keçib gəldiyim həyat yolumu incələmişəm. Uşaqlığımda, gəncliyimdə ta bu günümədək saysız insanlarla yaxın-uzaq təmaslarda olmuşam. Yaxşısı da olub, yamanı da. Bu təbiidir. Amma elə qadir insanlar olub ki, onlar əbədi olaraq qəlbimdə kök salıblar və tərəfimdən heç vaxt unudulmayacaqlar. Çünki, bunlar işıqlı insanlardır. Bu işıq həmişə önümdə olur və gedən yolumu işıqlandırır. Belə nurlu, işıqlı insanlardan biri də, heç zaman xatirəmdən silinməyən, unudulmaz gözəl insan, dünyalar qədər hörmət bəslədiyim Məsim müəllimdir.

Biz, anam və iki qardaşım Qazax rayonunun II Şıxlı kəndində yaşamışıq. Kiçik yaşlarında atamızı itirdik və o gündən anamızın himayəsində qaldıq. Anam kəndimizdə tibb bacısı işləyirdi.

Çox məğrur, kişi qeyrətli bir qadın idi. Ömrünün sonunadək bizə həm ana, həm ata oldu. Üç qardaş üçümüz də ali təhsil aldıq. Bu, anamızın

arzusu idi., yerinə yetirdik. (Anamız isə artıq yoxdur. Ruhu şad olsun. Əbədi olaraq xatirəmizdə yaşayacaq).

Anam Şövkət, Məsim müəllim və bacısı Sənubər xala doğma xala uşaqlarıdırlar.

Məsim müəllim və ailələri Arçut kəndində yaşamış, orada boya başa çatmışlar.

Anam istisna olaraq, biz qardaşlar heç vaxt Arçut kəndində olmamışdıq və heç kimi tanımırdıq. Çünki, biz hələ kiçik yaşlarda idik. İndi Məsim müəllim və ailələri ilə ilk görüşümüzün tarixcəsi barədə xatirimdə qalan qeydlərimi nəzərinizə çatdırıram:

İlk görüşümüz Məsim müəllim ailə quran günə, birbaşa mərasiminə təsadüf edirdi. Yay fəsli idi. Bizi toya dəvət etdilər. Sənubər xalanın həyat yoldaşı Sarı yeznə bizim kəndə Şıxlıya gəldi və biz ertəsi gün Arçut kəndinə gəldik. Toy mərasimi idi. Məsim müəllim, atası Yusif baba, anası Tükəzban nənə bizi çox mehriban qarşıladılar. Bu insanlar bizim doğmalarımız, əzizlərimiz idilər. Gözəl toy mərasimi keçdi. Biz toydan sonra bir ay orada qaldıq. Anam orada öz doğma qardaşının evindəki kimi özünü hiss edirdi. Məsim müəllim duzlu-məzəli söhbətləri ilə, zarafatları ilə hamının keyfini açırdı. O qədər doğmalıq hiss edirdik ki, bir ayın neçə keçib getdiyindən xəbərimiz də olmadı. Orada qaldığımız müddətdə xoşxasiyyət, gözəl insan Güllər bacı da bizimlə çox mehriban davranırdı. Bizi çox sevərdi, biz də onu çox sevirdik və bu hörmət, bu münasibətlər Güllər bacının ömrünün sonunadək davam etdi. Əziz Məsim dayımın vəfalı həyat yoldaşı Güllər bacının xatirəsi daim qəlbimizdə yaşayacaqdır.

Qəbri nurla dolsun.

Arçut kəndi çox mənzərəli kənd idi. Sıldırımlı dağların ətəyində yerləşirdi. Dağların buz bulaqlarını boru xətləri ilə hər kəs öz həyətinə çəkdirib gətirmişdi. Məsim müəllim yüksək bir təpənin ətəyində ikimərtəbəli imarət tikdirmişdi. Həyətə buz kimi sərin, şəffaf bulaq suyu çəkdirmişdi, sanki, həyətdə bir cənnət yaratmışdı.

İllər keçir, anam hər yay bizi bu gözəl məkana istirahətə gətirirdi. Bu, orta məktəbi bitirənədək davam etdi. Hər dəfə gələndə Məsim müəllimlə görüşlərimiz olurdu. Məni və qardaşı Məhəmmədi riyaziyyatdan sınağa çəkirdi. Çox sınaqdan üzü ağ çıxardıq. Çünki, riyyaziyyat hər ikimizin sevdiyi fənn idi.

Məsim müəllim çox maraqlı bir insan idi. Gözəl insan, yüksək nitq mədəniyyəti ilə hamını heyran edən, yüksək ixtisaslı müəllim, musiqiçi və digər müsbət keyfiyyətlərə malik Məsim müəllimlə həmişə qürur duymuşam. 1973-cü ildə mən Sənubər xalanın qızı Laçın müəllimə ilə evləndim və sonralar daha intensiv şəkildə ailəmlə Arçut kəndində gəlib istirahət etmişik və Məsim müəllimlə mütəmadi görüşmüşük. Laçın müəllimə əziz dayısı Məsim müəllimi çox sevirdi. Elə indi də daima böyük məhəbbətlə, göz yaşları ilə yada salır.

Əziz Məsim müəllim, Allah sənə qəni-qəni rəhmət eləsin. Mən və ailəm səni heç vaxt unutmayacağıq. Ruhun şad olsun. Qəbrin nurla dolsun.

"Nadir təbiətlər yaranır az-az,
Hər yerdə hər zaman inci tapılmaz"

(S.Vurğun)

Hörmətlə: Bacıoğlun Teymur

P.S.

Mamaoğlu Teymurun atamla bağlı xatirələrini dinlədikcə insan həm kövrəlir həm də sevinir. Teymur belə bir maraqlı xatirəni yada salmağı vacib bilərək qeyd edirdi: Rəhmətlik atam həmişə anama (Güllər xanıma) yarı-zarafat yarı-gerçək deyərmiş ki, özünü elə apar ki, hamı desin bərəkallah. Çünki inşallah gələcəkdə Bakıya köçəcəyik. Ona görə də anam hər nə edərdisə, həmişə atam bir bəhanə uydurараq zarafatla deyərmiş: "Bakıda yaşam tərzinə uyğun davranmadın" və s. və i. Nəticədə hamılıqla gülüşərmişlər...

Müəllif



«Çalışmaq qabiliyyəti insan üçün əsl sərvətdir».

Ezop

Əliyev Cavanşir



Arçut kənd orta məktəbinin
1984-cü il məzunu

Mən – Cavanşir Sarı oğlu Əliyev, 1967-ci ilin aprel ayının 9-da Ermənistan SSR-nin Quqark rayonunun Arçut kəndində anadan olmuşam. Orta məktəbə 1974-cü ildə daxil olmuşam, 1984-cü ildə Arçut kənd orta məktəbini bitirmişəm.

Məsim müəllim mənim həm dayım, həm də fizika və riyaziyyat, astronomiya fənləri üzrə müəllimim olub. Mən Məsim müəllimə həm dayı kimi, həm də ki, müəllimim kimi çox hörmətlə yanaşmışam. Məktəb illərində mən Məsim dayı deyərək, müraciət eləməmişəm. Bizim oxuduğumuz dövrdə müəllim bizim üçün əlçatmaz, ən hörmətli və dəyərli şəxs olub. Dərs zamanı nə qədər zarafatı olsa da, bir o qədər ciddi olduğunu hər kəs bilirdi və dərsin sonunda veriləcək tapşırığı, yəni yeni dərsi izah edəndə şagirdlər sakitcə onun necə izahlı və ətraflı, eyni zamanda, səbrlə danışığına valeh olurdu. Hətta fasilə zamanı o dərəcədə dərsə aludə olduğumuzdan heç kəs yerindən belə tərpənmirdi. Mən dayıma həmişə ziyalı və yüksək insani keyfiyyətlərə malik bir müəllim kimi baxmışam, onun ziyalı olmağını hər dəfə İrəvandan gələn komissiyanın üzügülər və nəticə etibarı ilə razı formada geri dönmələri buna bir sübut idi.

Dayım evimizə gələndə rəhmətlik atam Sarı kişi ancaq onun üçün evdə olan ən yaxşı nemətləri stolun üstünə qoyurdu, Ən yaxşı quzunu onun üçün kəsərdi. Dayımın atamla şirin zarafatı olardı, hər dəfə «yeznə, sənin o keçəl başına qurban olum» deyib gülürdü.

Sosial-ictimai fəaliyyəti bizim üçün başa düşülməyən bir termin idi, çünki biz özümüzü tam bu mövzularda dərk eləmirdik.

Ən yadda qalan maraqlı xatirəmdən birini də sizə söyləyim: Bir gün imtahan vaxtı mənə dedi ki, «rüblükdə sən 3 alırsan». Məktəbdə oxuduğum zaman mənim dərslərə davamiyyətim əla olduğundan və dərslərimə vaxtı-vaxtında lazımi səviyyədə yanaşdığım üçün və ümumiyyətlə rüblüyümdə 3 olmadığına görə, mən pis oldum və

ağladım. Məsim dayım mənə yaxınlaşaraq, mənim bakenbordumdan tutaraq başladı yuxarı dartmağa. Birinci dəfə idi ki, mənə bacı, oğlu deyərək, mənim qəlbimi aldı və mənə tapşırıq verdi ki, «get evə anana de ki, özü bilir nə hazırlamalıdır». Mən isə evə gəlib yaxınlaşdım anama və gözü dolmuş halda dedim: «Ay ana, sənin qardaşın həm mənə bacığlu deyir və həm də mənə 3 yazır». Anam isə gülümsəyərək mənə dedi: «indi nə istəyir o». Mən isə dedim: «Nə bilim, araq, zakuska, bir də yanında nəsə deyir». Mən də dedim: «Araq bildim, bəs o biriləri nədir?» Anam gülümsəyərək, dodağının altında mızıldanaraq dedi: «onu anan yaxşı bilir, xoruzlardan ikisini tut kəs gətir». Mən həmin an heç fikirləşmədən xoruzun ikisinin də başını kəsdim gətirdim verdim anama, anam isə mənə tapşırdı ki, «Get o dayını çağır gəlsin». Mən isə təkidlə anama dedim: «Bəs dayımın 3-cüsü işlətdiyi nə oldu? Onu necə edək?» Anam gülə-gülə dedi: «Gəlsin, mən ona onu göstərəcəm». Qaçaraq özümü çatdırdım məktəbə, birinci dəfə məktəbdə dayı deyərək müraciət elədim, sevincək ona «anam sizi gözləyir» dedim, özüdə dedi ki, «Yarım saata olmasa, burda ona heç nə yoxdur». Üstündən 10 dəqiqə sonra, xatırlamıram, hansısa müəllimlərdən biri ilə gəldilər və anamı qucaqlayaraq, üzündən öpdü və açdığı süfrəyə görə əllərinə sağlıq dedi. Onda mən qardaş bacını, bacı qardaşını nə qədər çox istədiklərinin şahidi oldum. Allah heç vaxt istədiklərini bir-birindən ayırmır və bu istəyi də axıracan onlara yaşatdı. Onları bir-birindən ayırmadı, bir ilin içində hər ikisi dünyasını dəyişdi. Allah onlarla birlikdə dünyasını dəyişənlərə rəhmət eləsin!

Mən bu kitabı öz atasının xatirəsinə ithaf edən və onu yaddaşlarımızda daima yaşadan, indi dayımızı əvəz edən Əflatunumuza minnətdarlığımı bildirirəm. Tanrı sənə yar olsun, mənim istəkli dayımın davamçısı.

Hörmətlə: Bacıoğlu Cavanşir



«Birinin nə cür insan olduğunu bilmək istəyirsənsə, onun gördüyü işə diqqət ver».

Protaqor

Məmmədov Lütfiyar



Qısa arayış

Mən, 1970–80-ci illərdə Arçut kənd orta məktəbində təhsil almışam. Oxuduğum orta məktəbi yaxşı və əla qiymətlərlə başa vurmuşam. 1984-cü ildə pedaqoji təhsilimi başa vurduqdan sonra, işləmək üçün doğma məktəbimizə qayıtmışam. 1984-cü ildən məktəbimizdə kitabxana müdiri kimi əmək fəaliyyətimə başlamışam.

Məsim müəllimin əziz xatirələri mənim qəlbimdə əbədi olaraq daima yaşayacaqdır. Ən sevimli müəllimim kimi yaddaşımda silinməz izlər buraxmışdır. Vəfatından uzun illər keçməsinə baxmayaraq, onu bir insan kimi unuda bimirəm. Hətta tez-tez yuxularıma girir. O illəri xatırladıqca, onun nurlu siması gözlərim önündə canlanır. Onunla birgə işlədiyim illər, yol yoldaşı olduğum vaxtlar həyatımda o qədər maraqlı əhvalatlar olmuşdur ki, indi də onları unuda bilmirəm. Yadıma düşəndə kövrəlirəm. Unudulmaz anları yaşadığıma görə onun yoxluğuna inana bilmirəm. Şair təbiətli bu insanın məsləhətləri, tövsiyələri bu gün də dəyərlidir, sanki adama istiqamət verir. Məsim müəllim məktəbdə ən çox mənimlə ünsiyyətdə olardı. O, həmişə boş vaxtlarında öz uşaqlıq və gənclik illərindən xoş xatirələr danışardı. Uşaqlıq illərinin ağır keçməsindən, müharibənin gətirdiyi fəlakətlərdən, aclıq illərinin başlamasından, ağır güzəran içində yaşayan el-obamızın ağır günlərindən acı xatirələr danışardı. Aclıq və səfalət içində yaşayan camaatımızın ağır günləri onun yaddaşında silinməz izlər buraxmışdır. O günləri hər dəfə xatırlayanda kədərlənər və deyərdi «getsin o günlər, bir daha geri qayıtmasın». Firavan yaşadığımız bu günlərə isə şükürlər edərdi. Məsim müəllim bir dəfə mənə öz uşaqlıq illərindən xatirə danışmağa başladı. O, deyirdi ki, «bizim məktəbimiz o vaxtlar natamam orta məktəb idi. Biz natamam orta məktəbi bitirdikdən sonra orta təhsil almaq üçün qonşu kəndlərə üz tutardıq. Təhsilini davam etdirməyənlər isə sovxozda qalıb işləməyə üstünlük verərdilər. Ən böyük arzum riyaziyyatçı olmaq, öz doğma kəndimizdə müəllim işləmək idi. Çünki, bi-

zim məktəbimizdə həmin vaxta qədər riyaziyyat müəllimi yox idi. Bizim məktəbə qonşu kəndlərdən riyaziyyat müəllimləri gəlib dərs deyərdilər. Mən orta təhsilimi davam etdirmək üçün qonşu Saral kəndinə getdim. Orta təhsili başa vurduqdan sonra Bakıya ali təhsil almaq üçün yola düşdüm. Institutu fərqlənmə diplomu ilə başa vurdum. Məni institutda saxlamaq istədilər. Mən razılaşmayıb doğma kəndimizə qayıtdım. Ona görə qayıtdım ki, bizim məktəbimizdə indiyə qədər ali təhsilli riyaziyyat müəllimi olmamışdır».

1985-ci ilin sentyabr ayında qəribə bir əhvalat baş verdi. Yay tətilini başa vurub yeni dərs ilinə başlamışdıq. Müəllimlərin maaş cədvəlini hazırlayıb rayon maarif şöbəsinə aparmalı idik. Müəllimlər məzuniyyətindən təzə qayıtdıqları üçün maaşlarını səbrsizliklə gözləyirdilər. «Tarifikasiya» adlanan maaş cədvəli Maarif şöbəsinə təsdiq olunduqdan sonra aylıq maaş cədvəli yazılıb göndərilməli idi. «Tarifikasiyada» düzəlişlər olundu. Mən onun üzünü təzədən köçürməli idim. Qaralamada düzəlişlər edildi, mən onu olduğu kimi köçürdüm. Sənədlər möhürlənib imzalandı. Mən aylıq maaş cədvəlini də hazırlayıb birlikdə rayona göndərdik. Maaşlar gecikirdi. Müəllimlərin narazılıqları başladı. Təsərrüfat şöbəsinin müdiri Lətif müəllim maaşları gətirmək üçün rayona yollandı. Hamı səbrsizliklə gözləyirdi. Axşam tərəfi geri əliboş qayıdan Lətif müəllim əlindəki maaş cədvəlini stolun üstünə tulladı. Mən cədvəli götürüb üzərinə baxdım. Üstünə iri bir sual işarəsi və xaç şəkili çəkilmişdi. «Maaşlar düz hesablanmayıb, səhvlik var»,- deyə etirazını bildirdi. «Neçə ki, cədvəl qaydasına düşməyib pul buraxmayacaqlar» deyib getdi. Məsim müəllim mənə baxıb soruşdu: «Bu nə məsələdir, nə çatışmazlıq var?». Mən ona bildirdim ki, «mənə nə demişsinizsə, onu da yazıb hesablamışam». Bu anda el ağsaqqalımız olan məktəbin direktoru Məhəmməd müəllim də gəlib çıxdı. Soruşdu ki, «nə olub, sənədləri niyə geriyə qaytarıblar». Məsim müəllim ona bildirdi ki, «bilmirik ki, niyə geri qaytarılıb». Məsim müəllim telefonun dəstəyini qaldırıb baş mühasiblə əlaqə saxladı. Ordan bildirdilər ki, «maaşlar düz hesablanmadığına görə geri qaytarmışıq». Direktor mənim üzümə baxıb soruşdu: «nəyi düz hesablamamısan?». Mən ona bildirdim ki, «Tarifikasiyada nə varsa, onu da yazıb hesablamışam. Siz nə demişsiniz, onu da yazmışam». Məsim müəllim stula əyləşib cədvəldəki maaşlardan bir neçəsini təzədən hesabladı. Səhvlik aşkar

olunmadı. Axşamacan cədvəldə axtarışlar apardı, heç nə tapılmadı. O, mənə stulun üstündəki hesablama şotkusunu və sənədləri verib dedi ki, «apar, evdə hamısını təzədən yoxla, səhvlik varsa düzəlt, səhər məktəbə gətirərsən». Mən gecəni yatmayıb səhərə qədər işlədim. Heç bir səhvim yox idi. Təzədən üzünü köçürdüm. Səhər məktəbə yollandım. Birinci dərs saatına gecikmişdim. Tənəffüs oldu. Məsim müəllim müəllimlər otağına gəldi. Mən ona yaxınlaşdım və sənədləri stolun üstünə qoydum. O, cədvəli qabağına çəkib yoxlamağa başladı. Mən qəsdən qaralamanı aparmamışdım. Heç bir səhvlik aşkar olunmadı. Məndən qaralamanı soruşdu, dedim: «Evdə qalıb». Üzümə baxıb dedi: «Gərək gətirərdin». Cədvəli əlinə götürüb Nüsrət müəllimi yanına çağırdı və ondan xahiş etdi ki, «Vaxtım yoxdur, dərsə girirəm sən otur bu cədvəli Lütfiyarla bir-bir yoxlayın. Əgər səhvlik olsa, yenə geri qaytaracaqlar». Nüsrət müəllimlə birgə başdan-ayağa bir-bir yoxladıq. Heç bir səhvlik aşkar olunmadı. Sevindim ki, şükür Allaha, səhvim çıxmadı. Mən sənədləri direktora imzaladıb möhürlədim və rayona yola saldıq. Ayın axırı yaxınlaşırdı bir cavab yox idi. Məsim müəllim Lətif müəllimi pul dalınca təkrar rayona göndərdi. Maaş gecikdiyinə hamının qanı qaralmışdır. Dərsdən sonra heç kəs evə getmək istəmirdi. Hamı pulun gəlməyini gözləyirdi. Axırıncı avtobusun vaxtına kimi gözlədik. Avtobusdan düşüb bizə tərəf gələn Lətif müəllimi görən Məsim müəllim dilləndi, «Anamın goru haqqı yenə əliboş gəlir. Bunun qıçalarını Dilmanın motoru kəssin. Bu bizi yenə evə əliboş göndərəcək». Lətif müəllim bizə əsəbi şəkildə yaxınlaşdı və deyinməyə başladı. «Rayonda bizdən başqa bütün məktəblər pullarını aldılar. Bizim sənədlərin yenə üstündən xətt çəkib geri qaytardılar». Müəllimlər əsəbləşərək dağılışdılar. Məsim müəllim üzümə baxaraq, «kağız-kuğuzları götür, evə gedək» dedi. Biz birlikdə evə qayıtdıq. Evlərinin yanına çatanda mənə dedi ki, «Get dincəl evə axşam gələrsən təzədən hesablayarıq». Mən evə gəldim. Telefonun arxasını şəbəkədən ayırıb yatdım. İki gün yatmırdım. Yuxusuzluqdan başım ağrıyırdı. Axşam düşmüşdü. Məsim müəllim oğlu Namiqi bizə göndərmişdir ki, «o, telefonun arxasını çıxarıb get onu çağır gəlsin». Namiqə dedim ki, «sən get, mən gələcəyəm». O dedi, «heç yerə gedən deyiləm. Məsim babam dedi ki, Lütfiyarı gətirməmiş gəlmə». Mən sənədləri də götürüb onlara getdim. Maaş cədvəlini təzədən birlikdə bir-bir hesablamağa başladıq. Cədvəli başdan ayağa hesablayıb

qurtardıq. Gecə yarısı mən evə qayıtdım. Sənədlər onda qaldı. O mənə dedi ki, «səhər özüm məktəbə aparacağam». Səhər sənədlər imzalanıb möhürləndi və rayona göndərildi. Lətif müəllim yenə pulun dalınca rayona yollandı. Dərslər qurtarmışdır. Heç kəs evə getmək istəmirdi. Hamı səbrsizliklə pulu gözləyirdi. Hətta məktəbimizdə erməni dilindən dərs deyən erməni qızı evə getmək istəmirdi, o da maaşı gözləyirdi. Müəllimlər otağında oturmuşduq. Məsim müəllim maraqlı əhvalatlar danışırdı. Başına gələn gülməli əhvalatlardan danışıb bizi güldürürdü. Erməni qızı tez-tez əsnəyirdi. Məsim müəllim dilləndi: «mən sənə nə verim ki, yeyəsən, əsnəməyəsən». Birdən seyfini açıb stolun üstünə qəzeti sərdi. Seyfdən yekə bir armud çıxarıb qəzetin üstünə qoydu. Armud yetişmişdi. O, seyfi təzədən axtarmağa başladı. Üzünü mənə tutub soruşdu: «Mənim almazım hanı?». O, həmişə seyfində cərrah bıçağı saxlayardı. Dərs cədvəlində səhvliklər olanda onunla pozub dəyişikliklər edərdi. Hərdən alma-armud olanda da, onunla qabığını soyardı. Birdən yadıma düşdü ki, bir neçə gün əvvəl maaş cədvəlində dəyişiklik etmək üçün rəqəmləri pozmaq lazım idi. Həmin vaxt Məsim müəllim seyfin açarını mənə verdi ki, «get almazı gətir». Həmin vaxtdan da direktorun otağında qalmışdır. «Necə aparmısan get, elədə gətir». Mən direktorun otağına yollandım. Dedim: «Məhəmməd müəllim, Məsim müəllim deyir ki, mənim almazımı versin». «Ay bala, mənim almazım ola-ola, onun almazını mən neyləyirdim» - dedi. Dedim ki, «mən gətirdim, yaddan çıxıb burada qaldı». Məhəmməd müəllim seyfi axtarmağa başladı, tapılmadı. Mən qapıya yaxınlaşanda arxadan çağırdı: «o şkafın üstünə də bax, birdən orda olar». Mən geri dönüb şkafın üstünə baxdım. Qaralama cədvəlin üstündə idi. Mən almazı götürüb qaralamaya nəzər saldım. Birdən pozulmuş rəqəmlər gözümə sataşdı. Qrafalarda pozulan rəqəmlər sonda düzəliş edilmədən də qalmışdı. Direktora heç nə demədən otaqdan çıxdım. Mən koridora çıxıb fikirləşməyə başladım. Birdən ağlıma gəldi ki, biz hər üçümüz cədvəli düzəldəndə mən birbaşa ağlamaya köçürmüşəm, ancaq rəqəmlər qaralamada düzəldilməyib. Mən müəllimlər otağına daxil oldum. Hamı əsəbi halda Lətif müəllimi gözləyirdi. Mən almazı Məsim müəllimə uzadaraq astadan ona pıçıldadım, «Sənədlər üzü qara geri qayıdacaq. Lətif müəllim boş gələcək». Məsim müəllim əsəbləşərək «ağzını xeyirliyə aç» - dedi. Mən qapıya yaxınlaşanda arxadan geriyə çağırdı. Mən ona

yaxınlaşıb qulağına pıçıldadım, «almazın tapılmağı düyünə düşmüş sirri açdı. Dəhlizə çıxaq sənə deyim». O, almazı da, armudu da seyfə qoyub qapını bağlayaraq mənimlə dəhlizə çıxdı. Mən ona bildirdim ki, «qaralamaya baxdım, səhvləri yekunda pozub düzəltməmişik. Direktora deməyə qorxdum ki, əsəbləşəcək». Biz birlikdə direktorun otağına daxil olduq. Məsim müəllim şkafın üstündən «tarifikasiyanı» götürərək, nəzərdən keçirməyə başladı. Direktor başını yuxarı qaldıraraq soruşdu ki, «nə olub?» Məsim müəllim ona bildirdi ki, «qaralamaya yenidən baxmaq istəyirik. Nöqsanlar aşkar olundu, qaralamada düzəlişlər etdik». Məsim müəllim qaralamanı mənə uzadaraq bildirdi ki, «üç dəfə geri qaytarılıbsa, bu dəfə də geri üzüqara qayıdacaq. Apar, təzədən yaz gətir, sabah göndərərik». Məsim müəllim mənə dedi ki, «Müəllimlərə heç nə demə, dava düşəcək. Lyudmila müəlliməyə sakitcə denən ki, səni direktor çağırır». Lyudmila müəllimə otağa daxil olan kimi Məsim müəllim ona gülə-gülə bildirdi ki, «armudu yeyə bilmədin, sabah yeyərsən. Səni birbelə gözlətdik, daha gözləmə, bankda pul yoxdur» – dedi. «Ancaq müəliimlərə heç nə demə, yenə də mübahisə düşəcək». Mənə də dedi ki, «Neçə ki, salamatsan aradan çıx, yoxsa səni də didəcəklər».

Məsim müəllim öz uşaqlıq illərini belə xatırlayardı. «Bizim uşaqlığımız müharibədən sonrakı aclıq illərinə təsadüf etdi. Olduqca ağır həyat şəraitində yaşayırdıq. Aclıq və səfalət bütün ölkəmizi bürümüşdü. Gecə-gündüz çalışırdıq. İşləməkdən taqətimiz kəsilirdi. Amma buna baxmayaraq, həm də oxuyurduq. Yeməyə çörək tapılmırdı. Səhərdən axşama kimi ac-susuz işləyirdik. Aclıqdan ağır xəstəliklər baş qaldırmışdır. Çoxları aclıqdan və xəstəlikdən tələf olurdu. Buna baxmayaraq, mən gecəmi gündüzə qatıb çalışırdım. Kəndimizdə natamam orta təhsil aldıqdan sonra, orta təhsil almaq üçün qonşu Saral kəndinə getdim. Orada təhsilimi başa vurduqdan sonra ali təhsil almaq üçün Bakıya getdim. Ən böyük arzum riyaziyyat müəllimi olmaq idi. Sonra doğma kəndimizə qayıdıb gənc nəslin təlim-tərbiyəsi ilə məşğul olmaq idi. Gənc riyazyiyatçılar dəstəsi yetişdirməyi qarşıma məqsəd qoymuşdum». Məsim müəllim qeyd edirdi ki, «zəhmətim hədər getmədi. 70-ci illərdə artıq 10 nəfərə qədər riyaziyyat müəllimi yetişdirmişdim. Artıq bizim məktəbə başqa yerdən müəllimlər gəlmirdi. Çünki, artıq öz yetirmələrim ali təhsil alaraq həvəslə öz məktəbimizə qayıdırdılar. Məhz buna görə də gənc riyaziyyatçılar nəsli mənim adımla bağlı idi».

Məsim müəllim hərtərəfli savada və biliyə malik idi. Xüsusən də, şair təbiətli bir insan idi. Təbiət vurğunu, gözəllik aşiqi idi. Vaxtının çox hissəsini təbiət qoynunda keçirərdi. Kəndimiz dağlar qoynunda yerləşdiyindən, füsunkar bir gözəlliyə malik idi. Çoxlu bulaqlar və çeşmələr vardır. Hər yan yamyaşıl güllü-çiçəkli çəmənliklər idi. Onun evi həmişə qonaqlı-qaralı olardı. Hər yandan onun qonaqları gələrdi. O, qonaqlara bulaq başında musiqili keyf məclisləri təşkil edərdi. Saza-sözə böyük qiymət verən Məsim müəllimin məclisində həmişə aşıq olardı. Çox gözəl musiqi dünyası var idi. Özü də tarda çox gözəl çalar və oxuyardı. Xalq mahnılarını məharətlə ifa edərdi. Ən çətin yadda qalan qəzəlləri əzbərdən söyləyərdi. Məsim müəllimin çox gözəl natiqlik qabiliyyəti vardı. Danışıq nitqi çox gözəl idi. Səlis danışardı, nitqi çox aydın idi. Hər şeyi məntiqlə danışardı. O qədər sadə, gözəl danışardı ki, hamı ona heyranlıqla qulaq asardı. O, danışdıqca, sözləri mirvari kimi düzülürdü.

Klassik ədəbiyyatımızı gözəl bilirdi. Sədi Şirazinin, Ömər Xəyyamın nəsihətləri, Füzulinin əsərləri, qəzəlləri onun dilinin əzbəri idi. Vahidin qəzəlləri dilindən düşməzdi. Hər danışanda dahilərdən kəlamlar sitat gətirərək söhbətə başlayar, müqəddəs kəlamlarla da söhbətini bitirərdi. El məclislərində həmişə tamadalıq edər, məclisi şeirlə, mahnılarla şənləndirər və çox gözəl idarə edərdi.

Arçut kənd orta məktəbində müəllimlik fəaliyyətinə başlayan Məsim müəllim ömrünün sonuna qədər maarifçilik ideyalarına sadiq qalaraq fəaliyyət göstərmişdir. Məsim müəllim bir ziyalı kimi kəndimizdə və məktəbdə böyük nüfuza malik bir insan idi. Hətta rayonumuzda onun böyük hörməti var idi. Əmək fəaliyyətinə dərs hissə müdiri kimi başlamış və ömrünün sonuna qədər bu vəzifədə çalışmışdır. O, işlədiyi dövrdə məktəbimizin nüfuzunu daha yüksəklərə qaldırmışdır. Məktəbimiz nəinki rayonda, hətta mən deyərdim ki, Respublikada ən nüfuzlu məktəblərdən biri idi. Olimpiadalarda, idman yarışlarında heç vaxt birinciliyi əldən verməzdi. Əsl maarif fədaisi kimi bütün ömrünü maarifçilik ənənələrinə sadiq qalaraq vətənpərvər, maarifçi bir ziyalı kimi təhsilin inkişafına həsr etmişdir. O, daima təhsildə yeniliyin tərəfdarı idi. Müasirləşən dünyada təhsildə yeni reformaların təşəbbüsçüsü və tərəfdarı idi. Müasir texnologiyaların və informatikanın təhsilə inteqrasiyasını alqışlayırdı. Məsim müəllimin yetirmələrinin və

davamçılarının səsi dünyanın hər yerindən gəlir. Uzun illər çalışdığı doğma məktəbdə pedaqoji fəaliyyəti Maarif Nazirliyi tərəfindən yüksək qiymətləndirilərək, «SSRİ maarif əlaçısı» adına layiq görülmüşdür.

Məsim müəllimin canlı xatirəsi daima onu sevənlərin qəlbində əbədi yaşayacaqdır.

Allah ona rəhmət eləsin! Məkanı cənnət olsun! Amin!..

Hörmətlə: Məmmədov Lütfiyar



«Namusla işləyən mükafatsız qalmır».

X.Rodo

Məmmədov Hüseyn



Fəxr ediləsi insan

Məsim müəllim həm işlədiyi Arçut orta məktəbinin kollektivi arasında, həm də xalq arasında tanınmış bir pedaqoq idi. O, tədris etdiyi fənləri olduqca yaxşı təhlil edə-edə şagirdlərə izah edərək əla formada çatdırırdı. Məsim müəllim mənim ovladlarıma V-ci sinifdə riyaziyyat, fizika, astronomiya fənnlərindən dərs vermişdi. Məsim müəllim yoldaşları arasında özünü peşəkar bir pedaqoq kimi tanıtmışdır. O, gözəl ziyalı şəxs kimi xalq arasında böyük hörmətə malik idi. Məsim müəllimin ziyalılığı onda idi ki, özünü müəllim kollektivi və kənd ictimaiyyəti arasında mədəni, sadə bir müəllim kimi tanıtmışdır. Övladlarımın dediklərinə görə, onun dərs dediyi bütün siniflərdə şagırdlər onun tədris etdiyi fənlərə diqqətlə qulaq asırdılar. O, çox tələbkar bir pedaqoq idi. Məsim müəllim istəyirdi ki, onun dərs dediyi şagirdlərin əksəriyyəti ali və orta ixtisasa sahib olsunlar. Gələcəkdə onlar müxtəlif ixtisas sahibləri kimi ayrı-ayrı müəssisə və təşkilatlarda rəhbər vəzifədə çalışsınlar.

Məsim müəllim qohumları və qonşuları arasında yüksək hörmətə malik idi. Bütün qohumlar onunla fəxr edirdilər. Məsim müəllim kənd camaatı arasında böyük nüfuza və dərin hörmətə malik idi. Kənd camaatının elə bir tədbiri olmazdı ki, Məsim müəllim orada fəal iştirak etməsin. Məsim müəllim həm də ictimai xadim idi. Kənd camaatının əksəriyyəti Məsim müəllimdən bir ictimai xadim, bir pedaqoq, bir ziyalı kimi məsləhət alırdılar, ondan nümunə götürürdülər. Məsim müəllimin çox gözəl musiqi duyumu var idi. O, sazda aşıq havalarını, tarda xalq mahnılarını mahir formada ifa edərdi.

Məsim müəllim haqqında çoxlu xatirələr yazmaq olar. Məsim müəllim əslində kəndin ən sevimli oğlanlarından biri idi. Mən Məsim müəllimlə çoxlu sayda mənalı vaxt keçirmişəm. Onunla mən kəndimizin ərazisində yerləşən bulaqların başında yeyib–içib istirahət etmişik. Məsim müəllim həm də çox əla natiq idi. O, el məclislərində yüksək formada nitq

söyləyərdi və çoxlu sayda şeirlər deyərdi. Məsim müəllim mənim ən sevimli dayım oğlu idi. Biz hər ikimiz bir-birimizin tədbirlərində çox fəal iştirak edərdik.

Bir sözlə, Məsim müəllim fəxr ediləsi bir şəxsiyyət idi.

Hüseyn Gülməmməd oğlu Məmmədov



«Şəxsiyyəti valideyn, ruhu isə müəllim tərbiyə edir».

N.Qoqol

Ələsgərov Şükrət



Böyük insan

Məmmədov Məsim Yusif oğlu bir müəllim pedaqoq kimi, sənətində ali dərəcəyə yüksəlmişdi. O, nəinki Arçut kənd orta məktəbində dərs verirdi, təkmilləşmə məktəbində də müəllimlər üçün dərs verirdi. Demək olar ki, rayonda onu tanımayan ziyalı insan yox idi. O, tək öz müəllimlərimizlə yox, qonşu kəndin müəllimləri ilə də sıx əlaqə saxlayırdı. Onlarla tez-tez görüşərdi. Məclislər təşkil edərdilər. Məktəblərarası yarışlar keçirərdilər. Fərqlənən şagirdlər rayonda olimpiadaya cəlb olunardılar. Demək olar ki, bir müəllim kimi onun boynuna düşən vəzifələri çox mükəmməl yerinə yetirərdi. Mən gözümü açandan onu məktəbin dərs hissə müdiri görmüşdüm. Məktəbdə 40-50-yə yaxın müəllim işləyirdi. Onların arasında böyük nüfuza malik idi. Onun tələbkarlığına görə hamı ona hörmətlə yanaşardı, bu da müəllimlər arasında yaxsı mənada rəqabətə çevrilmişdi. Kəndin bütün müəllimləri Məsim müəllimin üslubu ilə dərs vermək istəyirdilər. Mən onun məktəbdə dərs zamanı, bir də evdəki hərəkətinə mat qalmışdım. Məktəbdə o, çox tələbkar, çox ciddi adam idi. Elə bil məktəbdə məni tanımırdı. Mən onun əmisi oğlu olmağıma baxmayaraq, o biri uşaqlara necə baxırdısa, mənə də elə baxırdı. Amma evə gələndə çox mülayim, çox mehriban idi. Küçədə boş avara gəzəndə məni məzəmmət edərdi və deyərdi «Əmioğlu, get dərsini hazırla, nə varsa oxumaqda var. Məndən ibrət götür, bax məni el necə sevir, oxu, səni də elə sevəcəklər».

Demək olar ki, Məsim müəllim bir müəllim kimi, bir ziyalı kimi üstünə düşən bütün vəzifələri yerinə yetirirdi. O, bir kənd sakini kimi də kəndin bütün xeyir-şər işində fəal iştirak edərdi. Bu da onun necə ziyalı, necə mehriban insan olmağından xəbər verirdi. Kənddə bir insan ondan inciməmişdi, hamıya o can deyir, can eşidirdi. Bir gün bizim evdə oturub yeyib içirdik, böyük qardaşım Talıb ona dedi: «Bütün kəndin xeyir işlərində sən masabəylik edirsən, indi burda mən masabəylik edəcəm». Məsim müəllim razılaşdı. Qardaşım Talıb dedi: «Bu gün biz bir toydayıq,

mən içirəm iki güllərin sağlığına». Məsim müəllim dedi: «Güllər birdi, o da mənim arvadımdı, get Selixmanın qızının sağlığına ic». Qardaşım Talıb heç nə deməyib ikinci sağlığı deməyə başladı, «Bunu da içək iki güllərin valideynlərinin sağlığına». Məsim müəllim dedi: «Get Selixmanın sağlığına iç, mənim qaynatamda nə işin var». Nəhayət, qardaşım Talıb güldü və Məsim müəllimin üzündən öpdü və dedi: «Doğrudan da hərənin öz sənəti var. Mən sənə uduzdum». Məsim müəllim mənim yaddaşımda qohum kimi, dost kimi, qonşu kimi çox böyük izlər qoyub. Demək olar ki, bizim evimiz bir-birinə bitişik idi. Aradan bir cığır keçirdi. Qonşuluqda çox mehriban idik. Aramızda getmək-gəlmək, yemək-içmək, deyib-gülmək hamısı var idi. Məsim müəllim son vaxtlar mənsiz bir stəkan su belə içməzdi. İki-üç dəfə oğlu Natiqi göndərərdi ki, məni çağırsın, mən isə bir az gecikirdim. Hirslənib təkidlə deyərdi: «Mən özümmü arxasınca gəlim». Mən qalxıb tez gedərdim. Demək olar ki, tikəsinin düşməni idi. Bu da onun alicənablığından xəbər verirdi. Xülasə, gözəl pedaqoq, gözəl ziyalı, gözəl bir kənd sakini kimi, gözəl qohum, gözəl dost, gözəl qonşu kimi yaddaşımda əbədi yaşayacaqdır.

Allah ona rəhmət eləsin!

Məsim müəllimə ithaf olunur

Min illər keçsə də ürəyimizdə,
Əsrlər boyu əbədi yaşayacaqsan,
Müəllimlər müəllimi ay Məsim müəllim.
Mən səni özümə örnək götürdüm,

Əflatun kimi sən oğul yetirdin,
Doğrudan doğruya sən əbədisən.
Olmaz sənə heç bir zaman tay.
Vallah, bunu sübut edir hər həftə, hər ay.

Məhəbbətin nuru ilə doğuldun
Əkdin çoxlu-çoxlu güllər, çiçəklər
Sənin lə fəxr edir bütün tayfamız
İndi zəfər sənindir, amal sənindir
Müəllimlər müəllimi, ay Məsim müəllim.

Yetdi muradına tələbələrin,
Uğurlar qazandı balaların.
Sən həmişə qabaqda, öndə olmusan,
İmkanın olsa da, olmasa da.
Fəxr edir sənlə övladların.

Onsuz da dünyadan hamı köçəcək.
Qalacaq dünyada ancaq bir ad-san
Layiq oldun bu ada sən sağlığında
Uğurlar qazandın, ay Məsim müəllim

Hörmətlə: Şükrət Eminoğlu



«Bilmək irəlini görmək, irəlini görə bilmək isə güclü olmaq deməkdir».

O.Kont

Əhmədov Əli



Hərbi Siyasi Akademiyanın məzunu
Polkovnik...

Məsim müəllim (əmim) barədə xatirələrim

Mən – 1963-1973-cü illərdə orta məktəbdə oxumuşam. Həmin illərdə ondan əvvəllər də və sonralar da, yəni dünyasını dəyişənə qədər məktəbin tədris işləri üzrə direktor müavini işləmişdir. Ona görə bunları qeyd edirəm ki, mən məktəbdə oxuyan vaxtlar mənim üçün əlçatmaz olub, yəni mən onu əmi kimi yox, qohum kimi yox, bir tələbkar müəllim kimi tanımışam. Məsim müəllim məktəbin bütün şagirdlərinə bir gözlə baxırdı. Onun davranışından biz qohum şagirdlər ərkəsöyünlüyə cəsarət etmək belə bizim fikrimizə, hətta belə yuxumuza da girməzdi.

Mən 8-ci sinifdə oxuyanda, Mayıl (Hayda Məmmədin oğlu - kolxoz sədri) bizim sinifdə oxuyurdu. Yaxşı oxumasa da, sinifdə ərkəsöyünlük edirdi. Bir dəfə o, Tamillaya (həkim) nəsə demişdi. O da, ağlayıb müəllimlər otağına getdi və sinifə Məsim müəllimlə qayıtdı. Nəticədə, bizim günahımız olmaya-olmaya, Mayıldan çox Eldarla məni şapalaqladı. Sonradan mənə məlum oldu ki, Tamillanın bizimlə qohumluq əlaqəsi ola-ola, biz onu müdafiə etmədiyimiz üçün bizi döymüşdü. Sinifdə bu hadisədən sonra Tamillanı qorumağa başladıq. Onu demək istəyirəm ki, təlim-tədris məsələlərində mən onun qohumluğunu hiss eləməsəm də, başqa məsələlərdə Məsim müəllim qohumcanlı idi, heç kimin xatirinə kənardan müdaxilə olunmağa imkan verməzdi və onların qarşısını almağa qadir idi. Mən məktəbi qurtardıqdan sonra Hərbi Siyasi Akademiyaya qəbul oldum. Tayfamızda birinci hərbi məktəbdə oxuyan, kəndimizdə 2-ci (İsadan sonra) oldum.

Mənim bu uğuruma tayfanın və kəndin ziyalısı kimi həddindən çox sevinirdi. Mən qış tətilinə gələn kimi Məsim müəllim məktəbdə yuxarı

sinifdə oxuyan şagirdlərlə məktəbin akt zalında böyük görüş keçirməyi göstəriş verdi, hətta rayon hərbi kommissarlığından və rayon maarif şöbəsindən nümayəndə də dəvət etmişdi. Bu hadisədən sonra birinci dəfə olaraq mənimlə şagird kimi yox, əmi kimi rəftar etməyini hiss elədim və rəftarı getdikcə yüksəlməyə, sevgiyə, mənimlə fəxr eləməyə, dostluğa, mənimlə rus dilində, hərbi terminlərlə, hərbi tostlar deməklə başladı.

Mənim adım o gündən oldu «Alyoşa» və bu günə kimi də, yəni 40 ildir ki, mənim adım Məsim müəllimin ocağında övladlarının hamısı məni «Alyoşa» deyə çağırırlar. Hətta nəvələri də hərdənbir məni «Alyoşa» deyə çağırırlar. Yəqin ki, bu adım Məsim müəllimin nəticələri və kötücələri əziz babalarının xatirəsinə əbədi qalaraq mənə «Alyoşa» deyə çağıracaqlar və yad edəcəklər. Həmişə mənimlə olanda belə, bir tost deyərdi: «İçək kim dənizdədi onların sağlığına» «Kim qurudadı onları özləri taparlar». Amma bu sağlığı azəri yox, rus dilində deyərdi.

Məsim müəllimin ixtisası fizika-riyaziyyat üzrə olduğuna baxmayaraq, onun hər bir elmdən kifayət qədər məlumatı var idi. Məsələn, o, şifahi xalq ədəbiyyatını, yazıçıların əsərlərini, şairlərin şeirlərini məktəbin ədəbiyyat müəllimlərindən pis bilmirdi, hətta bəzi məqamları onlardan yaxşı bilirdi, özü də seçilib-sevilən şeirlər yazardı və yazdığı şeirləri məclislərdə söyləyərdi. Bundan əlavə, lətifələri çox sevərdi, onları özünəməxsus olaraq məqamında, vaxtında, zamanında söyləyərdi. Məsim müəllim özünün iştirak etdiyi məclislərə həmişə aşıqları dəvət edərdi. Onun saza böyük marağı olduğuna görə, oğlu Əflatun atasının xatirəsinə görə aşıq Aydının oxuduğu, yazdığı aşıq mahnılarına həsr olunmuş bir neçə yüz nüsxədən ibarət olan kitabın işıq üzü görməsinə nail olub.

Onu da qeyd etmək lazımdır ki, Məsim müəllim İrəvan şəhərində yerləşən müəllimlərin təkmilləşdirmə institutundan həm Azərbaycan dilində, həm də erməni dilində müəllimlərin öz ixtisaslarının artırılmasında fəal iştirak edirdi.

Bir dəfə 10-cu siniflərin buraxılış imtahanında riyaziyyat fənnindən yazılı imtahan vaxtı (konvert içində İrəvan şəhərindən göndərilirdi, yalnız imtahan vaxtı konverti açırdılar şəffaflıq üçün) (+) işarəsi ilə (-) işarəsinin yerləri mexaniki şəkildə dəyişik olduğuna görə məktəblərin heç birində şagirdlər misalın cavabını tapa bilməmişdilər. Sonradan

Məsim müəllimin səyi nəticəsində məlum olmuşdur ki, bunun səbəbi nə olub. Məsim müəllimin dünyagörüşü, savadı ilə yanaşı onun insanpərvərliyi, qonaqpərvərliyi də çoxlarına nümunə ola bilərdi.

Evdə, stolun üstündə yeməyin miqdarından asılı olmayaraq, yoldan keçən adamların demək olar ki, hamsını evə dəvət edirdi – onun belə bir böyük ürəyi var idi.

Məsim müəllimin yuxarıda dediyimiz xüsusiyyətləri onun övladlarının hamsına demək olar ki, irsi olaraq keçib. Bu irsi oxşarlıq ən çox oğlu Əflatunda cəmləşmişdi. Onun həyata keçirə bilmədiyini, yəni tez dünyasını dəyişdiyinə, maddi imkanlarının yol vermədiyinə görə etmədiyi xeyirxah işləri Əflatun həyata keçirir. O, xeyirxah işlər gördükcə, «atamın maddi cəhətdən imkanı olsa idi o da, bu işləri görərdi» fikrini gözünün önündən keçirərdi.

Məsim müəllim həm tayfamızda, həm Arçut kəndində, həm Pəmbək mahalında, həm də Ermənistan Respublikasında böyük hörmətə malik olub. Siyası cəhətdən, dünyagörüşünə və ziyalılığın yüksək zirvəsinə qalxmış şəxs kimi bizim və gələcək nəslin yaddaşında qalacaq.

Hal-hazırda da toy məclislərində, hüzür və başqa ictimai yerlərdə həmişə Məsim müəllim haqqında xoş sözlər danışılır və onun duzlu-məzəli sözlərindən, ifadələrindən tezis kimi işlədirlər. Məsim müəllimin əziz xatirəsi həmişə onun qohumları, həmyerliləri, onu tanımayıb adını eşidib-bilənlər, bütövlükdə Qərbi azərbaycanlılar tərəfindən əbədi olaraq xatırlanır və gələcəkdə də xatırlanacaq.

Allahdan Rəhmət diləyirəm. Övladlarına, nəvələrinə can sağlığı arzu edirəm.


Böyük hörmətlə: Məsim əminin Alyoşası



«Bütün işlər nəticəsi ilə qiymətlidir».

Hz.Məhəmməd

Musayev İsmixan



Eminov Osman Emin oğlunun dediklərindən...

İnsan, vətəndaş, ziyalı

İndi mən, nəinki qaynata, həm də çox səmimi dost, sirdaş və bəlkə də böyük qardaş münasibətində olduğum sərt, həm də çox həlim təbiətli, əsil kişi xarakterli Osman dayımın danışdığı bəzi acılı-şirinli xatirələri sizinlə bölüşmək istəyirəm. Mən bütün deyilənləri onun dili ilə yazıram. «Bala, biz yeniyetmə dövrlərindən öz elimizdən, obamızıdan, doğma yurdumuzdan ayrı düşdük. O vaxtdan biz anamla Gürcüstan Respublikasına gələndə çoxları bizə başqa nəzərlərlə baxırdı, çünki onlar bizim hansı kökdən-nəsildən olduğumuzu bilmirdilər. Bəlkə də bu bir qismət, bir alın yazısı idi. Tale bizi dağlar qoynunda yerləşən, əsrarəngiz təbiətli o gözəl kənddən, qohum-əqrəbadan, öz doğmalarımızdan xeyli uzaq saldı. Mənim doğma kəndimdə keçirdiyim uşaqlığım müharibə illərinə təsadüf edir. Buna baxmayaraq, o çətin günlərdə bütün kədərli, sevincli anlarım, əzizlərimin, doğmalarımın, xüsusən də mənimlə həm yaşıd, həm də məndən kiçik və böyük olan əmim oğlanlarının əhatəsində keçib. Mən anam, qardaş-bacılarımla həmişə öz doğma yurdumuzun ziyarətinə və qohumlarımızın görüşünə getmişik. Mən kəndimizə gedərkən atam, yaxınlarımız, və ən çox da əmim oğlu Məsim sevinərdi. Məsim kəndin, elin-obanın ən sayılıb seçilən, həm də təkcə kənddə yox, bütün rayonda hörməti olan savadlı bir oğlan idi. O, məktəbdə əvvəl müəllim, sonralar isə direktor müavini işləyirdi. Evi həmişə qonaqlı-qaralı olardı. Bizim həm səmimi münasibətimiz, həm də bir-birimizə təkcə əmioğlu qədər yox, doğma qardaş qədər bağlılığımız var idi. Məsim mənim başqa qohumların evinə getməyimə də qısqanardı. Kənddə qaldığım bir neçə günün çoxunu onun evində qalardım. O da hər dəfə mənim adıma saxlayıb bəslədiyi ən böyük qoçu

kəsərdi. Həmin günlər mənim həyatımın unudulmaz, xoşbəxt günləri idi. Lakin, qəflətən gələn amansız ölüm bizim əlimizdən onu çox tez aldı. Həm Məsimin, həm də qardaşım Cəlilin vaxtsız ölümü mənim həyatımın ən faciəli günləri olub. Mən heç vaxt onları unutmadım. Hər dəfə öz doğma vətənimə gedəndə, Məsimsiz, Məsimli günləri yaşadım, onunla keçirdiyim kövrək xatirələr məni için-için göynətdi. Sonralar məlum hadisələrlə bağlı, yəni nankor düşmənlərin münasibətindən sonra, mənim doğma elim də düşmən əlində qaldı və əzizlərim də pərən-pərən oldu. Məsimin, həm də bütün qohumlarımın qəbri qərib qaldı. Məsimi, Cəlili cavan itirdiyimə heç cür barışa bilmirdim. Lakin, tale mənə daha dəhşətli, faciəli günlər yaşatdı. Oğlum Vəfadarın şəhid olduğu gün mən elə bildim ki, həyatımın sonudur. Həmin gün Məsimi də yanımda görmək istədim, çünki övlad itkisi həyatın dillə ifadəsi olmayan ən ağır itkisidir. Elə ona görə də mən həmin günlər dərdimə şərik olmaq üçün ən əziz əmim oğlunu axtardım. Yəqin ki, Vəfadarın itkisi Məsimin də ruhunu narahat etdi. Ay İsmixan, bala, deyirlər ot kökü üstə bitər. İndi Əflatun oğlumun belə hörmət, izzət qazanması, ad-san sahibi olması təsadüfi deyil. Çünki, Əflatun Məsimin oğludur. Bizim nəslin, Eminlər tayfasının davamçısıdr. Qoy adı həmişə yuxarılardan gəlsin, nəsil onunla fəxr etsin. Qardaşım Məsimin ruhu da şad olsun. Əflatun, həm də öz ölümü ilə Eminlər tayfasına başucalığı gətirən şəhid Vəfadarın əmisi oğludur. Vəfadarın işıqlı ruhu Əflatuna kömək olsun, o da bütün nəslə arxa dayaq olsun».

Hörmətlə: İsmixan Musayev



«Tənbəllərin işi sözdə, zəhmətsevər insanların işi əməldədir».

Q.Lebon

Qurbanov Sədi



Arçut kəndinin tanınmış cərrah həkimi...

Qısa arayış

Mən – Sədi Məhərrəm oğlu Qurbanov, 02.06.1951-ci ildə kolxozçu ailəsində anadan olmuşam. 1968-ci ildə M.F.Axundov adına Arçut kənd orta məktəbini Qızıl medalla bitirmişəm. 1969-cu ildə Bakı şəhəri N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutuna bir imtahan verərək, qəbul olunmuşam və 1975-ci ildə həmin institutun müalicə-profilaktika fakultəsini bitirərək həkim ixtisasına yiyələnmişəm.

Hal-hazırda Suraxanı rayonunun 23 saylı şəhər poliklinikasında cərrah-həkim işləyirəm.

Aydın insan

Məsim müəllim məktəbin gənc kadrlarından idi. O, həm məktəbin, həm də kəndin ictimai işlərində çox yaxından iştirak edirdi. Hamı tərəfindən sevilirdi, çox böyük hörmətə malik idi. Kəndin əksər məclislərində masabəyi seçilərdi və bu işin öhdəsindən bacarıqla gələrdi. Bir sözlə, çox aydın insan idi.

Mirzə Fətəli Axundov adına Arçut kənd orta məktəbində uzun müddət tədris hissə müdiri vəzifəsində çalışmışdır. Məsim müəllim eyni zamanda yuxarı siniflərdə fizika dərsini tədris edirdi. İşinə çox tələbkar olduğu üçün şagirdlərdən həm davamiyyətdə, həm də tədrisdə geri qalmamağı tələb edirdi.

Dərsə gələrkən belə, kabinetdəki dəmir seyfin iri açarını əlindən yerə qoymazdı. Adəti üzrə əvvəlcə orta səviyyədə oxuyan şagirdlərdən dərsi xəbər alardı, sonra zəif şagirdlərə üz tutardı. «Nyutonun birinci qanununda nə deyilir?» soruşardı. Əlindəki seyf açarı ilə dərsini zəif

bilən şagirdin başına vurardı. O, ufuldayarkən, özü cavab verərdi: "təsir əks-təsirə bərabərdir", «mən səni vururam, sən də məni, elə isə zərbə yeyənin inciməyə haqqı varmı?»,-deyərək gülümsəyərdi. Təkrar seyf açarı ilə yüngülcə zərbə vuraraq: «Oxuyun, öyrənin, mozilər, oxuyun ki, bir yana çıxasınız»-deyərdi. Beləliklə də, Nyutonun qanunu birdəfəlik beyinlərə həkk olunub qalardı.

Orta məktəbdə oxuyarkən biz müəllimlərimizi müqəddəs bir varlıq hesab edirdik. Elə bilirdik ki, müəllimlər nə yeyir, nə icir. Kəndin küçələri ilə məktəb yolunda təsadüfən müəllimlərimizlə qarşılaşdıqda papağımızı çıxararaq, salam verirdik.

Atam Qurbanov Məhərrəm məclislər düzəltməyi çox sevirdi. Ona görə də əksər məclislərin masabəyi Məsim müəllim, Məhəmməd müəllim, Vəkil müəllim, bir də Rəşid müəllim olardı. Aparılan məclislər isə çox ciddi, yazılmamış qanun çərçivəsində olardı. 1969-cu ildə yazılmış lent yazısını dinlədikcə düşünürsən ki, o vaxtlar insanlar hər bir tədbirə, nişan-toy məclislərinə, hətta seçkilərə belə ciddi və yüksək tələbkarlıqla yanaşırlarmış.

Bu gün cəmiyyətdə tutduğum mövqeyə görə bütün biliklərin əsasını qoyan orta məktəb müəllimlərimizə minnətdaram.

Məktəblə, müəllimlərimizlə əlaqədar xatirələrim çoxdur.

Dünyadan köçənlərə Allah rəhmət eləsin, yaşayanlara can sağlığı və uzun ömür arzulayıram.

Sədi Məhərrəm oğlu Qurbanov



«Böyük insanların ömrü illərlə deyil, onların əməlləri ilə ölçülür».

Eminov İsbəndiyar



Arçut kəndinin tanınmış
dəri-zöhrəvi həkimi....

Qısa arayış

Mən – Eminov İsbəndiyar Talıb oğlu, 1954-cü ildə keçmiş Ermənistan SSR-nin Quqark rayonunun Arçut kəndində anadan olmuşam. 1961-ci ildə M.F.Axundov adına Arçut kənd orta məktəbinin 1-ci sinifinə daxil olmuşam. 1971-ci ildə həmin məktəbin 10-cu sinfini bitirmişəm. 1977-ci ildə Nəriman Nərimanov adına Tibb Universitetinin müalicə-profilaktika fakültəsinə daxil olmuşam. Həmin Universiteti 1983-cü ildə bitirmişəm. 1983-cü ildən də Sumqayit şəhərində dəri-zöhrəvi həkimi kimi fəaliyyət göstərirəm. Ailəliyəm, 3 övladım, 5 nəvəm var.

Məsim müəllim haqqında xatirələrim

Məsim müəllim mən deyərdim ki, kəndimizin, yəni Arçutun ən görkəmli şəxsiyyətlərindən biri idi. Mən Məsim müəllimi ilk növbədə mehriban və qayğıkeş əmi kimi tanımışam. Çünki, Eminlər nəslinin ağsaqqalı və atam Talıbın doğmaca əmisi oğludur. Onun mənim və ailəmizin, eyni zamanda Eminlər nəslinin üzərində əməyi çox olmuşdur. O, nəslimizin bütün gənclərinin, həmçinin mənim həyat yolumun düz seçməyimə istiqamət vermişdir. O, nəinki nəslimizin, eyni zamanda kəndimizin ağsaqqalı idi. Məsim müəllim kəndimizin ictimai həyatında çox yaxından iştirak edərdi. Kəndin xeyir və şərində irəli durub ağsaqqallıq edər, düzgün yol göstərərdi.

Məsim müəllimin çox yaxşı musiqi duyumu var idi. Xalq musiqi alətimiz olan tarda xüsusi sənətkarlıqla ifa edərdi. O riyaziyyatçı olmasına baxmayaraq, çox yaxşı şeirlər deyər, mahnılar ifa edərdi. Bəzən keyfinin şən vaxtlarında kəndimizdə olan toy-nişanlarda bu fəaliyyətlərindən

istifadə edərdi. Məsim müəllimin belə bir xüsusiyyəti var idi. Kənddə tez-tez ziyafətlər təşkil edərdi. Özü də bu ziyafətlərdə fəal iştirak edib, tar ifa edər, şeir deyər, mahnı oxuyardı.

Məsim müəllim zarafat etməyi də çox sevərdi. O, öz əmisi oğlu Şükrətlə həmişə şən zarafatlar edərdi. Şukrət əmimə həmişə müraciətlə deyərdi. «Sağ ol Şıkı, sən də balıq kimi şütüyərmişsən».

Məktəbə gedəndən sonra isə mən əmimi müəllim kimi də tanıdım. Məktəbin divarları arasında qayğıkeş, mehriban və zarafatcıl Məsim əmi ciddi və tələbkar fizika-riyaziyyat müəlliminə çevrildi. O, həm də məktəbimizdə uzun müddət dərs-hissə müdiri işləmişdir. Oxumayan şagirdlərə heç vaxt güzəştə getməzdi. Oxuyan şagirdlər isə gözünün işığı idi. Oxuyan şagirdlərə ixtisas seçimində də kömək edərdi. Hətta kəndimizin əksər yeniyetmələri Məsim müəllimi özünə örnək götürərək, fizika-riyaziyyat müəllimi olmuşdur. Mənim də ali təhsilli olmağımda Məsim müəllimin xüsusi əməyi olmuşdur.

Mən, indi həmin əməyin nəticəsində savadlı həkim işləyirəm. 10-cu sinifdə oxuyarkən, əmim bizə riyaziyyat fənnini tədris edirdi. Sinif yoldaşlarımın arasında mənə qarşı xüsusi ilə tələbkar idi. Bir dəfə lövhədə həll etmək üçün mənə verdiyi misalı səhv yazmışdım. Elə lövhənin önündə qulağımın dibinə qəşəng bir şillə vurdu və dalınca gülə-gülə «Məşədi Selimxan» deyərək misalın düzgün həllini mənə başa saldı.

Məsim müəllim yalnız Arçutun deyil, bütün Qərbi Azərbaycanın görkəmli ziyalısı idi. Məsim müəllim yalnız kəndimizdə müəllim kimi işləmirdi. O, həmçinin Ermənistan SSR-nin paytaxtı olan İrəvan şəhərində müəllimlərin təkmilləşdirmə kurslarında da dərs deyirdi, müəllimlərin öz bilik və bacarıqların inkişaf etdirilməsində fəal iştirak edirdi.. Amma vaxtsız ölüm onu bizim əlimizdən çox tez alıb apardı. Dünyasını tez dəyişməsinə baxmayaraq, Məsim müəllim daim mənim qəlbimdə əmim və müəllimim kimi yaşayır və yaşayacaqdır.

Hörmətlə: İsbəndiyar Eminov



«Çalış öz xalqının işinə yara,
Geysin əməlinlə dünya zər-xara».

N.Gəncəvi

Əliyeva Laçın



Hörmətli Dayım və Müəllimim haqqında xatirələrim

Mən – Əliyeva Laçın Sarı qızı, 1954-cü il may ayının 19-da Ermənistan SSR-in Quqark rayonunun Arçut kəndində anadan olmuşam. Mən 1971-ci ildə orta məktəbi müvəffəq qiymətlərlə bitirdim. Orta məktəb illəri mənim üçün unudulmaz illərdir. İndi də o illərin xoş xatirələrlə yaşayıram. Məktəbimizdə fədakar müəllim kollektivi var idi. Gənc nəslin təlim-tərbiyəsində, təhsilin yüksək səviyyədə həyata keçirilməsində böyük ruh yüksəkliyi ilə, vicdanla çalışırdılar. Məktəbin tədris hissə müdiri Məsim Məmmədov idi. Məktəbin direktoru Məmməd müəllim idi. Onlar çox ciddi, savadlı, işgüzar müəllimlər idilər. Onların rəhbərliyi altında məktəbimiz rayonda sayılan-seçilən təhsil müəssisəsi idi. Odur ki, məktəbin məzunları yüksək təhsilli, savadlı insanlar kimi, asanlıqla Azərbaycanın ali təhsil müəssisələrinə qəbul olunurdular. Respublikamız üçün yüksək ixtisaslı kadrlar kimi yetişirdilər.

Hal-hazırda həmin məzunlardan ölkəmizin müxtəlif sahələrində yüksək vəzifələrdə çalışan kadrlar vardır. Mənim təhsilimdə qazandığım müvəffəqiyyətlərdə orta məktəbimizdə riyaziyyat müəllimim olan əziz dayım Məsim müəllimin böyük təsiri olmuşdur. O, həm müəllim kimi, həm də tədris hissə müdiri kimi yüksək nüfuza malik idi. Mənim yaxşı oxumağım, nümunəvi şagird olmağım üçün üstümdə böyük nəzarəti vardı. Sonda öz təsirini göstərdi və mən arzuma çatdım, istədiyim instituta daxil oldum. Mən Məsim dayımı uşaqlıqdan çox sevmişəm, onunla fəxr etmişəm. Məsim dayım çox nüfuzlu, hərtərəfli, savadlı, çox elmlərin bilicisi idi. İstər məktəbdə, istərsə də xalq arasında sevilən, hamıya dürüst, xeyirli məsləhətlər verən hörmətli bir şəxs idi. Bütün məclislərdə, kollektivlərdə həmişə başda durar, hamı onu eşidərdi. 1977-ci ildə Kirovakan şəhərində iki körpə qızım Sevil və Sənubər, eləcə də anamla bazarda səni gördük. Dedim ki xəbəri olmasın, bizi görəndə əhvalı necə olacaq. Dəqiqələr keçdi.....O, bazarda alış-veriş edir, biz isə kənardan əziz və mehriban dayımın hərəkətlərini izləyirdik. O, bizi gör-

mürdü. Biz isə həyəcan içində ona baxıb gözləyirdik. Bu anda o, bizə tərəf çevrilib bizi gördü.... İlahi, insan nə qədər istiqanlı olar, nə qədər mehriban olar... Düşündüyüm başıma gəldi. Məsim dayım bəzi görən kimi böyük sürətlə bizə tərəf gəldi. Hamımızı bir-bir qucaqlayıb öpdü. Sevincimin həddi-hüdudu yox idi. Bu insan mənim doğma şirin dayım, elə burda da öz sehrli, hec vaxt unudulmayan əbədi mehriban xarakterinin gözəlliyini büruzə verdi və özündə unudulmaz bir insan obrazı yaratdı.

Bu an onu hələ ilk dəfə görən tanımayan körpəcə ilkim Sevil qızım dedi: "Mama, bu kimdir?" Dedim: «Qızım, dayımdı». Sevil tərs uşaq idi. Nə desə yaxşıdır «Yekə arvadın da dayısı olar?»

Mən orta məktəbdə çalışqan, dərsə daim hazırlıqlı, yüksək əxlaqlı, hazırcavab bir qız idim.

Hamıdan güclü, hamıdan savadlı, həm şair, həm də musiqiçi dayımla fəxr edirdim. Onu görəndə hər şeyi unudur, utancaqlığa qapılırdım.

O isə, məni nəğmələr oxumağa həvəsləndirirdi, tərifləyir, cəsarətləndirirdi. Mən dəfələrlə onun göstərişilə məktəbdə kollektiv qarşısında nəğmələr oxumuşam. Nəğmələrimlə fəxr edirdi. Dayım mənim və çoxlarının nəzərində qüdrətli insan idi. Onu deməliyəm ki, mən onu dayım, o da məni öz balası kimi çox sevirdi. Mən 1971-ci ildə orta məktəbi bitirib Bakıya instituta qəbula gəlmişdim. Həmin ərəfədə Məsim dayım da Bakıya gəldi. Bütün işlərini buraxıb mənim qəbul işlərimlə maraqlanırdı. Mən müvəffəqiyyətlə imtahan verdim, müvəffəq qiymətlər aldım. Bunlar qəbul üçün yetərli idi. Bu anlar Məsim dayım artıq qardaşı Məhəmmədin evində qalırdı. Məsim dayım artıq kəndə – Ermənistanın Arçut kəndinə dönməli idi. O, kənd orta məktəbinin tədris hissə müdiri kimi orda olmalı idi. Amma onu təcili yola salmaq istəyən qardaşı həkim Məhəmmədə etiraz etdi və dedi: «Bacım qızı böyük qabiliyyətlə APİ-yə imtahan verib. Onun nəticəsini bilmədən mən burdan gedə bilmərəm». Müəyyən ciddi sorğular əsasında o öyrəndi ki, mən artıq qəbul olmuşam və rahat şəkildə, böyük fəxrlə geriyə – öz işinə döndü.

Əziz dayım, mehriban dayım, ruhuna qurban olum. Sən mənim üçün əbədi yaşayacaqsan. Son günümə kimi səni unutmayacam.

Son sözüm: Gedənlərimizə rəhmət, qalanlarımıza can sağlığı.

Ruhun şad olsun dayı. Sənin tövsiyələrini, arzularını qəlbən yerinə yetircəyik. Heç zaman səni unutmayacağıq.

Çox təəssüflər olsun ki, mənim gözəl dayım, əvəzedilməz insan çox erkən həyatdan getdi, arzuları yarımçıq qaldı.

Allaha çox şükürlər olsun ki, onu əvəz edən qadir övladları var, onu heç unutmayan bizlər varıq. İllər gəlib keçəcək. Əziz Məsim dayımın parlaq xatirəsi heç zaman xatirəmizdən silinməyəcək.

Ruhun şad olsun gözəl dayı, qəbrin nurla dolsun. Sənin kimi qadir insanlar heç vaxt unudulmur.

Sənin parlaq şəxsiyyətin şagirdlərinə, qohum-əqrəbamıza, səni tanıyanlara və sevənlərə həmişə nümunə olacaqdır.

Hörmət və məhəbbətlə heç zaman səni unutmayan, qəlbində yaşadan bacın qızı.

Hörmətlə: Laçın Əliyeva



«Yaxşı iş də görsən, pis iş də inan,
Unutmaz onları bu qoca dövran».

Qazıyev Abuzər



Ermənistan SSR-nin Quqark rayonunun Arçut kənd orta məktəbinin qabaqcıl müəllimlərindən olan Məsim Yusif oğlu Məmmədov haqqında Məsim müəllimin sevimli şagirdi və qohumu Abuzər Yusif oğlu Qazıyevin xatirələri

Sevimli pedaqoqum

İnsan həyat salnaməsini nəzərdən keçirərkən, valideynlərindən sonra ilk növbədə ona tərbiyə, elm və bilik vermiş müəllimləri yada düşür. Bu nöqteyi-nəzərdən mənə fizika və astronomiyadan dərs demiş Məsim müəllim ön cərgədə dayanır. Əlbəttə ki, Məsim müəllim haqqında deyiləsi sözlərin hamısını bir kiçik xatirədə əks etdirmək mümkün deyil. Hər hansı bir müəllim şagirdlərin idealına çevrilərsə, ona həsəd aparılarsa, onun tədris etdiyi dərslərdən ləzzət alarsa, o müəllim sözün əsl mənasında xoşbəxtdir. Məsim müəllim məhz belə pedaqoqlardan idi. Məsim müəllimin dediyi hər bir dərsdə yeni bir elmi bilik alırdım. Mən fizika fənnini çox sevirdim və fizikaya olan bu yüksək həvəsimin səbəbkarı məhz Məsim müəllimin fizikadan tədris etdiyi dərslərin bəhrəsi idi.

Məsim müəllim çox güclü yaddaşa və ensiklopedik biliyə malik olan pedaqoq idi. Dərslərini həmişə əyani vasitələrdən istifadə edərək yüksək səviyyədə qururdu və açıq diskussiya şəklində aparırdı. Mən onun dərslərini dərindən dinləyirdim və növbəti dərsə yaxşı hazırlaşırdım. Məsim müəllim həmişə məndən razılıq edirdi və tez-tez hər yerdə məni tərifləyirdi. O, həm də çox təvazökar bir insan idi. Baxmayaraq ki, bir sinifdə oxuduğum qızı İradə də çox yaxşı oxuyurdu, Məsim müəllim həmişə deyərdi ki, mən bu sinfə Abuzərə görə daxil oluram. O, obrazlı şəkildə mənə Lomonosov deyirdi. Müəllimin şagirdinə belə yüksək qiymət verməsi təbii ki, həm hər bir şagird üçün fəxarət və qürurverici bir haldır, həm də onun məsuliyyətini birə-beş artırır. Təbii ki, bu cür qayğıkeş münasibətin və mənə olan inamın cavabını mən çalışırdım

yaxşı oxumağımla qaytarım. Mən Azərbaycan Dövlət Tibb İnstitutuna (indiki Azərbaycan Tibb Universiteti) daxil olub evə gələndə, ilk dəfə Məsim müəllim gəlib valideynlərimə gözaydınlığı verdi və çox qürur hissi keçirdiyini bildirdi. O, deyirdi ki, «Abuzər kimi şagirdimiz çox azdır». Sözünə davam edərək deyirdi ki, «24 illik pedaqoji fəaliyyətimdə Abuzər kimi şagirdlə hələ rastlaşmamışam».

Məsim müəllim yalnız öz fənnin tədrisinin qayğısına qalmırdı. O, həm də bir rəhbər işçi, dərs hissə müdiri kimi digər fənlərin tədrisinə də ciddi nəzarət edirdi. Dərslərdə otururdu, fənnə dair tövsiyyələr verirdi, vaxtaşırı fənn birləşmələrinin iclaslarını təşkil edirdi, fənlərin tədrisinə dair məsləhətlər verirdi. O, çalışırdı ki, hər bir fəndən şagirdlər dərin elmi biliklər alsın.

Məsim müəllimin həyat və pedaqoji fəaliyyətini öyrənmək sözün əsl mənasında bir məktəbdir. Onun dünyagörüşünə, zəngin biliyinə, istedadına həsəd aparmaq olar.

Mən onun tutduğu şərəfli yol ilə öyünürəm və onun hamımızın qarşısında göstərdiyi pedaqoji xidmətə baş əyirəm.

Çox təəssüf ki, kəndimizin görkəmli pedaqoqu aramızdan tez getdi. Onun vaxtsız ölüm xəbəri hamımızı dərindən sarsıtdı. Amansız ölüm onu sevən şagirdlərini çox kədərləndirdi. Onun vəfatından uzun illər keçməsinə baxmayaraq, biz şagirdləri onu çox tez-tez kövrək hisslərlə xatırlayırıq. O, Arçut kənd orta məktəbinin əfsanəsi oldu. Mən bu gün də Məsim müəllimin aramızdan getməsi faktını qəbul edə bilmirəm. Onun əziz xatirəsi onu sevən yüzlərlə şagirdinin qəlbində əbədi yaşayacaqdır. Allah ona qəni-qəni rəhmət eləsin!!!

Hörmətlə: Abuzər Qazıyev



«Gördüyün işi ləyaqətlə yerinə yetirsən, həmişə başın uca olar».

T.Karleyl

Məmmədov Həmzə



Alicənab insan və layiqli bir vətəndaş

Mən – Məsim müəllimi geniş elmi biliyə malik bir müəllim, alicənab insan, layiqli bir vətəndaş kimi tanıyıram. Məsim müəllim, Arçut kənd orta məktəbinə mən 1-ci sinifə gedərkən müəllim təyin olunub. O, mən VIII sinifdə oxuyarkən bizə riyaziyyat və fizika fənlərini tədris edirdi. Məsim müəllim çox tələbkar idi. O, istəyirdi ki, dərs dediyi şagirdlərin əksəriyyəti yaxşı və əla oxusunlar. O, millətini və xalqını çox sevərdi. Məsim müəllim həm məktəbdə, həm də kənd camaatı arasında olduqca böyük hörmətə malik bir şəxsiyyət idi. Onunla mən bir tayfadan idik. Atalarımız əmi oğlu idilər. Mən əsgərlikdən gələndən sonra Məsim müəllimlə birlikdə çoxlu sayda səmərəli günlər keçirtmişik. O, həm də natiq bir insan idi. Məsim müəllim çoxlu sayda qəzəl və şeirləri əzbərdən ara vermədən deyirdi. Məsim müəllim şənlənməyi, istirahət etməyi, deyib-gülməyi çox sevərdi. Mənim kənddə çox hörmət etdiyim insanlardan biri də Məsim müəllim idi. Məsim müəllim kənd camaatının xeyir və şərində olduqca fəal iştirak edərdi. O, nərd və şahmat oynamağı çox sevərdi. Onun dərs verdiyi şagirdlərdən bir nəfəri İsmayıl Əliyev - akademik, çoxlu sayda professor, elmlər namizədləri kimi, eləcə də, mühəndislər, həkimlər, müəllimlər və başqa ixtisas sahibi kimi ali təhsilli şəxslər adsan qazanmışlar. Məsim müəllim kənd ağsaqqalları arasında da özünə məxsus hörmət sahibi idi. Məsim müəllim erməni-rus dillərində sərbəst danışardı və tərcümə edərdi.

Məsim müəllim haqqında saatlarla xatirələr söyləmək, onun necə bir müəllim və yüksək intellektə malik bir insan olmağı haqqında çoxlu yazılar yazmaq və danışmaq olar.

Məmmədov Həmzə Kərim oğlu



«Ömrünü işləməklə keçirənlər namuslu insanlardır».

S.Smayls

Nəbiyev İsmayıl



Arçut kənd savxozunun mühasibi işləmişdir

Məsim müəllim haqqında xatirələrim

Məsim müəllim Arçut kənd orta məktəbində fizika və riyaziyyat fənlərindən dərs demiş, uzun illər dərs hissə müdiri vəzifəsində çalışmışdır.

Çoxlu sayda tələbələri müxtəlif ali məktəbləri bitirmişlər. O, yüksək fitri istedad sahibi idi. Orta məktəbdə ən güclü riyaziyyatçı hesab olunan Məsim müəllim, şəhərdə keçirilən riyaziyyat olimpiadasında otuz erməni riyaziyyatçısını qabaqlayaraq, birinci yeri tutmuşdur. O vaxt erməni professoru etiraf edərək demişdir ki, otuz erməni başı bir türk başına bərabərdir.

Gənc yaşlarından ədəbiyyatı, tarixi sevmiş, aşıq yaradıcılığı ilə dərindən maraqlanmışdır. Şifahi xalq ədəbiyyatını mükəmməl bilirdi. Uzun müddət şeir, poemalardan parçaları əzbər söyləməyi bacarırdı.

Məsim müəllim toylar şahı idi. Məclisi tez ələ almaq qabiliyyəti, həmsöhbətlərini inandırıcı dəlillər və sübutlarla ram etməsi, ona böyük marağın artmasına səbəb olardı.

O, kəndin xeyir və şərində yaxından iştirak edən fəal bir ziyalı idi.

Kənd ictimaiyyətinin və müəllim kollektivinin böyük hörmətini qazanmışdı.

Hündür boyu, gülərüz və mülayim xasiyyəti vardı. Ünsiyyətdə olduğu adamla cox mehriban söhbət edər, tezliklə özünə qarşı rəğbət qazandırmagı bacarardı.

Dostluqda möhkəm və sadiq idi. Onunla dostluq edən hər bir şəxs ondan narazı qalmazdı.

Şair qəlbli Məsim müəllim təbiətin vurğunu idi. Mahnı oxumağı cox sevərdi.

Məsim müəllim cox qohumcanlı bir şəxs idi. Hamıyla ilə maraqlanar, problemlərinin həllində onlara köməklık etməyə çalışardı.

Qohum-əqrəba arasında böyük hörməti vardı. Onların xeyrində və şərində yaxından iştirak edər, məsləhətlər verərdi. Məhz bu xüsusiyyətlərinə görə, qohumları onu cox sevərdilər, ona rəğbətlə yanaşardılar.

Mən, qürur hissi keçirərək, fəxr edirdim ki, Məsim müəllim kimi əmim oğlu var. Qonaqlıqda, xeyir işlərdə onu dəvət edərdik. O da öz növbəsində bizim xətrimizi qırmazdı, dəvəti qəbul edər və süfrəni çox şən keçirərdi. Bizim tayfanın cavanları qış fəslində yığışıb, məclis təşkil edərdi, kəndin aşığını da dəvət edərdi. Əlbəttə ki, başda Məsim müəllim olmaq şərtilə. Çox vaxt o, bizi öz evinə dəvət edərdi. Musiqi dinləyərdik, aşıq havalarına, dastanlara, nağıllara qulaq asardıq və məclisi şən keçirərdik. Onun gözündən heç bir şey yayınmazdı. Məclisdə onun dostları, yaxın adamları, qohumları, qonaqları da (qonaqların ən coxu Qazax mahalından və Bakıdan olardı. Onun anası Qazax mahalından idi.) iştirak edərdilər.

Mənim Məsim müəllimlə olan xatirələrim çoxdur. Çalışacam kı, birini qısaca sizə danışım.

1972-ci ildə, Bakıda Tikinti İdarəsində işləyirdim. Yay vaxtı idi. Bir gün Məsim müəllimlə həkim Məhəmməd (kiçik qardaşı idi) mən işlədiyim idarəyə gəldilər. Məlum oldu ki, Məsim müəllim mənimlə maraqlanır. İdarə müdiri Əhməd müəllimlə söhbət etdik. Söhbət bir saata qədər davam etdi. Bu görüşdən razı qalan Əhməd müəllim, axşam bizi qonaqlığa dəvət etdi. On nəfərlik məclıs başa çatdı. Qərara aldılar kı, Məsim müəllim kəndə qayıdana qədər, hər gün bu məclis davam etdirilsin. Elə də etdik. Altı-yeddi gün məclis oldu, sonrakı iki gün isə mənim payıma düşdü. Əhməd müəllim və həkim Məhəmməddən çox razı qaldılar.

1976-cı ilin iyun ayında Əhməd müəllim və onun iki dostu Arçut kəndinə bizə gəldilər. Məsim əmioğlunu da dəvət etdim. Onlar çox yaxın adamlar kimi öpüşüb, görüşdülər. Bir-birindən hal-əhval tutdular. Bakıdan gələn qonaqlar iki gün qonağım oldular. Təbiətin qoynuna çıxdıq, yedilər, içdilər, bir-birilərinin sağlıqlarına badələr qaldırdılar. O

vaxt onlar Məsim müəllimi Arçut Kəndinin «İncisi» adlandırmışdılar.

Məclis vaxtı Əhməd müəllim və qonaqlara danışdım ki, Məsim müəllimin atası Yusif əmi çox güclü sınıqcıdır. Müxtəlif regionlardan gələn cavan, qoca, yaşlı, sınığı olan xəstələrin hamısını Yusif əmi uğurla müalicə edib, tam sağaldırdı.

O vaxtları Bakıdan, İrəvandan Tibb İnstitutlarından sınıqçı alimlər, Yusif əminin müalicə praktikasını öyrənmək üçün onun yanına gələrdilər. Bu, faktdır, bu, həqiqətdir.

Məsim müəllim haqqında günlərlə danışıb, xatirələr yazmaq olar. Yalnız onu sevənlər, onu xatırlayanlar onu çox sevirlər.

Bu gün o bizim aramızda olmasa da, onun varlığı bizimlədir. Onu sevənlər həmişə ona Allahdan rəhmət diləyirlər. Onun gözəl balalarına, Əflatun müəllimə, Tahir müəllimə və başqa balalarına, Məsim müəllimin davamçılarına xoşbəxtlik arzulayıram.

Hörmətlə: İsmayıl Nəbi oğlu Nəbiyev



Bacarsan, hamının yükünü sən çək,
İnsana ən böyük şərəfdir əmək.
Sən də əldən düşüb yorulsan əgər,
Sənin də yükünü bütün el çəkər.

S.Smayls

Məmişov İmran



Qayğıkeş və səmimi insan

Mən – Məmişov İmran Məsim oğlu, 1952-ci ildə Ermənistan Respublikasının Kirovakan rayonunun Arçut kəndində anadan olmuşam. Orta məktəbi də həmin kənddə bitirmişəm. Həmin dövrdə Arçut kənd orta məktəbinin təlim-tərbiyə işləri üzrə direktor müavini Məmmədov Məsim adlı müəllim idi.

Məsim müəllim ucaboylu, qarabəniz, təmkinli bir insan idi. Həddindən artıq qayğıkeş, səmimi olmaqla yanaşı, həm də zəhmli insan idi. İxtisasca astronomiya müəllimi olsa da, başqa fənləri də ixtisası qədər mükəmməl bilirdi. Arçut kəndində, eləcə də rayon miqyasında sayılıb-seçilən Məsim müəllim haqqında hər gün bizim evdə valideynlərim söhbət edərdilər.

Hər həftə valideyn iclası çağrılırdı. Təmkinlə ayağa qalxardı, təmkinlə danışardı. Valideynlərə sözlərinin sonunda bircə şeyi tövsiyyə edərdi. «Çalışın ki, övladlarımızı yaxşı böyüdək, savadlı böyüdək, gələcəkdə cəmiyyət üçün yararlı bir ziyalı yetişdirək. Elə bir ziyalı yetişdirək ki, onlara dərs deyən, onları tərbiyə edən müəllimlər haqqında hər kəs maraqlansın».

Kənd camaatı Məsim müəllimə həmişə qayğı ilə yanaşmışdılar. Ondan məsləhət alardılar. Məsim müəllim elə bir insan idi ki, uşaqla uşaq kimi, böyüklə böyük kimi davranardı. Şirin gülüşü vardı, həm də sakit gülərdi.

S.Vurğun poeziyasının vurğunu idi, Məmməd Araz şeirlər külliyyatına yaxşı bələd idi. Şagirdləri lövhəyə çağıranda şeirlə çağırar, şeirlə yola salardı.

İclaslarda danışanda hərdənbir S.Vurğun poeziyasından müəyyən sətirləri qatardı sözlərinə.

Bir dəfə kənddə məhsul yığımı vaxtı iclasa çağırılmışdı. Kolxoz sədri kənddə işçi qüvvəsinin çatışmamasından söz açdı. İclasın sonunda sözü

Məsim müəllimə verdilər. Məsim müəllimin çıxışı hələ də xatirəmdədir. Camaata ürək-dirək verdi, «hər şey yaxşı olacaq, məhsul da yığılacaq»,- deyə tövsiyyə etdi və sözlərini S. Vurğunun bu sözləri ilə başa çatdırdı.

«El bir olsa, dağ oynadar yerindən
Güc bir olsa zərbi-kərən sındırar».

Gurultulu alqışlarla tribunadan endi.

Məsim müəllim dərs keçdiyi şagirdlərindən elmlər namizədi, həkim, müəllim işləyənlər çoxdur. Hal-hazırda 62 yaşım var. Amma Məsim müəllimin həmin sözləri mənim yaddaşımdan silinməyib. Məsim müəllim insanlar üçün, cəmiyyət üçün elə bir ziyalı idi ki, indi də hər kəs tərəfindən xoş xatirələrlə xatırlanır.

Məsim müəllimin ən ali xüsusiyyəti onda idi ki, yaşadığı cəmiyyətdə kasıbla varlıya fərq qoymazdı. Hamıya bir gözlə baxardı, onun üçün hamı müqəddəs bir varlıq idi.

Hal-hazırda yaşadığım cəmiyyətdə etdiyim hərəkətlərə, tutduğum mövqeyə görə bütün həyatım boyu Məsim müəllimə borcluyam. O, mənim xəyal dünyamda müqəddəs, əlçatmaz bir varlıq kimi yaşayır və yaşayacaq.

Allah ona rəhmət eləsin!..
Hörmətlə: Məmişov İmran



«Elə yaşamalısan ki, öləndən sonra da ölməyəsən – həyatın məqsədi məhz bundan ibarətdir».

C.Məmmədquluzadə

Əbilov İsmixan



Uzun müddət Qursalı birləşmiş kənd Sovetliyində Katib işləmişdir...

Sevimli Pedaqoq və vətəndaş ömrü

Mən – Əbilov İsmixan Həsən oglu, 1942-ci ildə Ermənistan SSR-nin Pəmbək mahalının Qursalı kəndində anadan olmuşam. Mənim Arçut kəndi ilə sıx qohumluq əlaqələrim oldugu üçün mən bu kəndə tez-tez gedib gələrdim. Ona görə də bu günə qədər yaşadığım zamanda tanıdığım, gözəl, qonaqpərvər, alicənablı və fitri isteda malik olan bir insan haqqında qısa xatirələrimi sizinlə bölüşmək istərdim.

Dünyada elə şəxsiyyətlər var ki, onların qeyri-adi ömür yolu milyonların taleyindən seçilir. Belə insanları Vətən, xalq, el-oba qarşısında göstərdikləri misilsiz xidmətlərə görə bir nəslin deyil, özündən sonra gələn bütün nəsillərin canlı örnəyinə çevrilir, bəşəriyyətin inkişafına çalışan zəkaları nurlandırırlar.

Yaşadığı zamanın fövqündə dayanmağı, tapdanmamış yeni iz açmağı, yaddaşlara yazılan təzə söz deməyi ulu Tanrı hər kəsin qismətinə yazmır. Yalnız ürəyi alovlu, təfəkkürü aydın, məntiqi möhkəm olan seçilmiş insanlar bu müdriklik zirvəsinə ucala bilir, həm özlərini, həm də mənsub olduqları xalqı, el-obanı şərəfləndirməyi bacarırlar.

Belə işıqlı zəka sahiblərindən biri də 1937-ci ildə Qərbi Azərbaycanın Pəmbək mahalının Arçut kəndində anadan olmuş Məsim Yusif oğlu Məmmədovdur.

Hələ yeniyetməlik çağlarından həyatın enişli-yoxuşlu dolaylarında özünü təsdiqləyən, doğma el-obanın sevgisini qazanan, sonralar Qərbi Azərbaycanın Pəmbək mahalından Şimali Azərbaycana - Bakıya ali təhsil almağa gələn və ona bəslənilən bütün ümidləri layiqincə doğruldan Məsim müəllim çoxları üçün qeyri-adi görünən bir tale yaşamışdır.

Məsim Yusif oğlu Məmmədov bütün qüvvə və bacarığını məktəb və

pedoqoji fikir tarixinin hərtərəfli tədqiqi və təbliğinə, pedaqoji və elmi-pedaqoji kadr hazırlığına həsr etmişdir. O, məktəb müəllimliyi dövründə mənalı və şərəfli həyat yolu keçmiş, qəlbinin odunu və hərarətini, ömrünün qaynar və çoşqun illərini millətin gələcəyi olan gəncliyin tərbiyəsinə həsr etmiş, proqram və dərsliklər hazırlamış, məktəb və pedaqoji fikir tariximizdə hələ durulmamış başlıca məsələləri zəngin mühakimə ilə aydınlaşdırmış, sağlığında ikən özünə mənəvi abidə ucaltmışdır.

Məsim müəllim dünyaya elə bir torpaqda gəlib ki, mayası zəhmətlə, istedadı xeyirxahlıqla yoğrulub. O, torpaqdan çıxan oğulların kiçik işlərlə məşgul olmağa haqqı yoxdur. Çünki, Allah onları böyük işlər üçün yaradıb, onlara böyük ürək, müdrik baş verib, buyurub ki, ömrünün sonuna qədər xalqına ləyaqətlə xidmət etsin. Məsim müəllim belə oğullardan, belə müdrük insanlardan biri idi.

Pəmbək mahalının Arçut kəndində dünyaya göz açmış, elə buradaca böyüyüb başa çatmış Məsim müəllim bu elin-obanın, gözəl Arçut kəndinin vurğunu olmuşdur. Deyirlər, təbiət öz duruluğundan, saflığından, paklıq və gözəlliyindən insanın mənəviyyatına və ruhuna da müəyyən pay verir. Yəqin ki, təbiət Məsim müəllimə qarşı da bu cür səxavət göstərmişdir.

Uşaqlıq illəri doğma yurdda - Pəmbək mahalının Arçut kəndində, indi yadlara, yağılara qalan, "Xəstə üçün təpəsində qar olan", "süsənli, sünbüllü, laləli dağlarda" keçib. İlk gündən bacarığı, diribaşlığı və fəhmi ilə seçilib. Məsim müəllim elmə, təhsilə, incəsənətə olan marağı ilə hamını heyran etmişdir.

Ulu Nizaminin dillər əzbəri olan:

"Qüvvət elmdədir! Özgə cür heç kəs
Heç kəsə üstünlük eyləyə bilməz"

Fəlsəfəsinə söykənən,

Ustad Füzulinin könüllərə nur yayan:
Elmlə, ədəblə tapılar şərəf
Mirvari olmasa, nə lazım sədəf? –

Kəlamından güc olan Məsim müəllimin bəşəriyyətin yaratdığı ən qiymətli sərvətə - kitaba, elmə, mədəniyyətə olan həvəsi onu müəllimlik peşəsinə üz tutmağa vadar etmişdir.

Məsim müəllim, Pəmbək mahalının Arçut kəndinin yetişməsidir. Orada boya-başa çatıb, orada öz müəllimlik işini fərəhlə, qürurla davam etdirirdi. Fərəh duyurdu, fərəhlənirdi, adı ilə, əməli ilə fəxr edir, sevinirdi. Müəllimlik çətin olduğu qədər də şərəfli, qibtəyə layiq sənətdir. Xalqımız müəllimi sevdiyi qədər heç nəyi, heç kəsi sevmir. Hamımızın bir-birinə müəllim müraciəti çox şey deyir. Müəllim ulu sənətdir, duru sənətdir, təlim-tərbiyə məktəbidir, ibrətamizlik məktəbidir, saf duyğular, nəcib hisslər tərcümanıdır. Bütün bu nəcib keyfiyyətli, zərif duyğuları, incə mətləbləri özündə birləşdirən Məsim müəllim sözün həqiqi mənasında əvəzsiz müəllim idi.

60-70-ci illərdə Pəmbək mahalının Arçut kəndində təhsilin inkişafında və bir çox savadlı şagirdlərin yetişməsində əvəzsiz xidmətləri olmuş Məsim müəllimlə fəxr edirik. Ömrünün müdrük və kamillik dövrünü yaşamış Məsim müəllim bütöv bir şəxsiyyət idi. Onun həyatı, şəxsi və ictimai fəaliyyəti, səliqə-səhmanı, yaradıcılıq qabiliyyəti, insanlara məhəbbəti, qayğısı, ünsiyyəti və səmimiyyəti əsl nümunə məktəbi idi. Məsim müəllimi tanıyanlar onun nə dərəcədə məsuliyyətli və nə dərəcədə tələbkar bir insan oldugunu yaxşı bilirlər. Lakin, məsələ burasındadır ki, həmin məsuliyyətlilik, tələbkarlılıq Məsim müəlimin hər şeydən əvvəl özünə, öz hərəkətlərinə münasibətlərində təzahür edirdi. Elə insanlar var ki, yalnız başqalarına qarşı tələbkardırlar, özlərinə gəldikdə isə kifayət qədər sərbəst hərəkət edirlər. Məhz birinci növbədə özünə qarşı tələbkarlıgın nəticəsidir ki, Məsim müəllim uzun müddət, yəni 24 il məktəb direktorunun müavini vəzifəsində işləmişdir.

Cəmiyyətdə hörmət qazanmaq asan deyil, lakin qazandığın hörməti qoruyub saxlamaq bundan da çətindir. Məsim müəllimin böyüklüyü ondadır ki, öz hörmətini, şərəfini, ləyaqətini həmişə qoruyub saxlamağa çalışmış, ən mürəkkəb vəziyyətlərdə də nüfuzunu xəlaldar olmağa qoymamışdır.

Məsim müəllim böyük təhsil təşkilatçısı idi. Həqiqətdir ki, Məsim müəllim sənətinin vurğunu, mənən zəngin, qəlbən şair idi. O, elinə, xalqına xidməti özünə şərəf bilən, yorulmadan, usanmadan ömür fəda edən ziyalı idi. Hamıya məlumdur ki, Məsim müəllim Arçut kənd orta

məktəbinə direktor müavini təyin olunandan sonra məktəbdə təhsilin səviyyəsinin yüksəklərə qaldırılmasında böyük rolu olmuşdur. Hətta bir neçə dəfə Məsim müəllim Rayon Təhsil Şöbəsi tərəfindən gördüyü işlərə görə Fəxri fərmanlarla təltif olunmuşdur. Bu böyük və nəcib işlərə görə o, hər cür ehtiram və hörmətə layiq idi. Bu sahədə o, özünə sağlığında heykəl ucaltmışdır desək, daha düzgün olardı.

Məsim müəllimin el-oba müəllimləri arasında böyük hörmətə sahib olmasının əsas səbəblərindən biri də onun öz ixtisas fənlərini mükəmməl bilməsi ilə yanaşı digər fənlərdən də tam məlumatlı olması idi. Bunu möhtərəm oxucuların bu kitabda oxuyacaqları səmimi ürək sözləri bir daha təsdiqləyir.

Əlbəttə, Məsim müəllim haqqında söz demək istəyənlərin tam siyahısını tutmaq mümkünsüzdür. Biz bu kitabda yalnız onlardan bəzilərini əhatə edə bildik. Sağlıq olsun, gələcəkdə bu cür kitabların həm həcmi, həm də sayı xeyli çoxalacaq. Bununla belə, elə bu kitabın özü sübut edir ki, Böyük Pəmbək mahalının nəinki Arçut kəndində, hətta digər qonşu kənd müəllimləri, ziyalıları arasında yüksək hörmətə layiq Məsim müəllim sağlığında klassikləşib, əfsanələşib, abidələşib!

Bu kitab da Məsim müəllimin dostları, tələbələri və onu sevənlərdən sevgi və ehtiramla qoyulmuş mənəvi abidədir. Həmişəyaşar abidə!

Gözəl müəllim və insan

Cəmiyyət həyatının bir neçə sahəsində tanınmaq, uğurlar əldə etmək, hörmət və nüfuz qazanmaq hər adama qismət olmur. Bunun üçün gərək istedadlı, qabiliyyətli və bacarıqlı olasan. Gərək zəhmət çəkəsən, tər tökəsən, gecə-gündüz çalışasan, öyrənəsən, mütaliə edəsən, biliklər qazanasan, təcrübə və səriştə əldə edəsən. Bəzən, dərin hörmət qazanmaq, şan-şöhrətə, şərəfə nail olmaq üçün bu da az olur. Yaxşı səslənməsə də, belə bir məsəl var ki, alim olmaq asandır, insan olmaq çətin. Bəli, Məsim müəllim alim olmasa da, gözəl müəllim olmaqla yanaşı, həm də gözəl insan və gözəl həmsöhbət idi. Özünün dəqiq və səlis söhbəti ilə istənilən məclisdə hamının diqqətini özünə cəlb etməyi bacaran Məsim müəllim tarixi, ədəbiyyatı və incəsənəti gözəl bilirdi. Hətta, el şənliklərində Məsim müəllim maraqlı tarixi hekayələr danışar, gözəl dastanlar və şeirlər söyləyər, xalqımızın musiqi incilərindən olan

tar alətində gözəl ifaları ilə hamını heyran edərdi.

Ən başlıcası budur ki, Məsim Yusif oğlu Məmmədov gözəl bir insan, dostluqda vəfalı və sadiq, ailədə qayğıkeş, qeyrətli və namuslu bir şəxs, daha doğru desəm, şəxsiyyət idi. Daha bir gözəl sifətini də deyim. O, həddən artıq vətənpərvər, millətsevər, əsl vətəndaş idi. Elini, xalqını, vətənini, sevən millət oğlu, millət övladı idi. Milli təəssüfkeşliyi ilə daima seçilirdi.

Hər bir görkəmli şəxsiyyətin tərcümeyi-halında elə əlamətdar faktlar, hadisələr olur ki, onlar bu hala qızıl hərflə yazılır, heç vaxt yaddan çıxmır və geniş ictimai məna daşıyır. Məsim müəllimin həyatında qızıl hərflərlə yazılmış hadisələr, məzəli-duzlu əhvalatlar çox olmuşdur. Ona görə də bu hadisələri və əhvalatları əbədi yaddaşlara yazmaq və gələcək nəsillərə çatdırmaq üçün bu kitabın nəşrinə böyük ehtiyac duyuram. Əlbəttə ki, bu kitabın yazılıb ərsəyə gəlməsində zəhməti olan bütün insanlara əvvəlcədən öz təşəkkürümü bildirirəm.

Allah Məsim müəllimə rəhmət eləsin!.. Amin!...

Hörmətlə: Əbilov İsmixan



«Ən böyük həqiqət əməkdir, həyatın bütün nəşəsi qurub-yaratmaqdadır. Yaratmaq ölümü öldürmək deməkdir».

E.Zolya

Məşədiyev Abbas



Uzun müddət Arçut və Saral kəndlərində
Baş mühasib işləmişdir...

Qısa arayış

Mən – Məşədiyev Abbas Əli oglu, 1935-ci ildə Arçutda anadan olmuşam. 7-ci sinifə qədər Arçut kəndində, 8-10-cu sinifləri Hallavar kənd orta məktəbində oxumuşam. 1953-1957-ci illərdə Azərbaycan Xalq Təsərrüfatı (indiki İqtisad Universiteti) institutunun iqtisadiyyat fakultəsini bitirmişəm. Həmin vaxtdan 1988-ci ilin sonuna qədər Arçut kolxozunda Baş mühasib işləmişəm. Bundan başqa Lernabad və Saral kəndlərinin sovxozlarında da Baş mühasib işləmişəm.

Hazırda Bakı şəhərində yaşayıram, təqaüdçüyəm.

Xatirələr...

Mənim xatirəmdə Məsim müəllim (həm də kirvə) unudulmaz iz, yaddan çıxmayan xatirələr qoyub aramızdan köçmüşdür. Uşaq vaxtımızdan başlayaraq, son vaxtlara qədər bir yerdə olmuşuq, oynamışıq, gəzmişik, gülmüşük. Mən Məsim müəllimdən bir yaş böyük olmağıma baxmayaraq, bir-birimizə hörmət etmişik və həmin hörməti uşaqlıqdan ta son vaxtlara qədər qoruyub saxlamışıq. Lap gənc yaşlarımızda yaylaqda güllü-çiçəkli çəmənlikdə oynayardıq. Həftənin çox günləri uzunqulaqla meşəyə gedib odun gətirərdik. Bizim uşaqlıq və gənclik illərimiz yavaş-yavaş arxada qaldı. Mən 1953-cü ildə Xalq Təsərrüfatı İnstitutuna qəbul oldum. Məsim müəllim isə 1954-cü ildə Azərbaycan Pedaqoji İnstitutuna (APİ) qəbul oldu. Bakıda boş vaxtlarımızda bir-birimizin yanına gedib, görüşüb söhbət edərdik. İnstitutu bitirdikdən sonra mən kolxozda (sonrada sovxozda) baş mühasib işlədim. Məsim müəllim isə Arçut kənd orta məktəbində müəllim işlədi. Çox qısa vaxt ərzində gözə girimliyi, bacarığı və biliyi sayəsində onu dərs hissə müdiri

təyin etdilər. Məsim müəllimin rəhbərliyi sayəsində çoxlu gənclər müxtəlif ali məktəblərə qəbul oldular. Bir yay günü hər ikimiz qəbula uşaq gətirmişdik. Hava çox isti olduğundan qərara gəldik ki, hərəyə bir bokal pivə içək. Pivəni götürüb içmək istəyirdik ki, yaxınlıqda noxud satan kişi ucadan «pivəni noxudla içərlər, noxud götürün, canınıza qulaq asın» dedi. Məsim müəllim dedi ki, gör dilimizi nə kökə salıblar. Mən isə cavabında dedim: «Məsim müəllim, heç fikir etmə, bizim dilimiz yerindədi, o, öz dilini özü o kökə salıb».

Biz kəndə qayıtdıqdan sonra bu sözü uzun müddət danışdı.

Məsim müəllimin yaddan çıxmayan xatirələri həddən artıq coxdur. Kef məclislərində, gəzintiyə çıxdıqda gözəl mahnılar oxuyardı və ordakıları şənləndirərdi.

Məsim müəllim həm də gözəl metodist idi. Rayon ərazisində və başqa yaxın rayondan gələn müəllimlərə metodikadan dərs keçər, onlara fizika-riyaziyyat elminin son yenilikləri barədə izah edib öyrədərdi.

Bundan başqa, kənddə tanınıb, sözü keçən şəxs kimi hamının xeyir-şərində fəal iştirak edərdi. Toylarda hamı bir ağızdan onun masabəyi olmasını səslərdilər. Rayonun hüquq-mühafizə orqanlarına işi düşmüş şəxslər Məsim müəllimə müraciət edərdilər və iş müsbət həll olunardı.

Məsim müəllimlə keçirdiyimiz günlər indinin özündə də göz qabağından kino lenti kimi keçib gedir, onu həmişə anmışam, öz yanımda hiss etmişəm və bundan sonra da unutmayacam. Bu ailə ilə biz təmənnasız, şirin, mehriban kirvə olmuşuq və hazırda da bu kirvəlik davam edir. Lakin bizi kədərləndirən, qəmləndirən odur ki, vaxtsız əcəl onu bizdən ayırdı.

Allah rəhmət eləsin...
Hörmətlə: Kirvən Abbas



«Sağlam ağac sağlam meyvə yetirər».

İsayev Mübariz



Mən, İsayev Mübariz Oruc oğlu, 1960–1961-ci illərdə M.F.Axundov adına Arçut kənd orta məktəbinin onuncu sinfində oxuyarkən, Məsim müəllim Azərbaycan Pedaqoji İnstitutunu qurtarmışdı. İlk dəfə idi ki, bizə fizika dərsini tədris edirdi. O, çox savadlı müəllim olmaqla yanaşı, həm də olduqca alicənab insan idi. İşlədiyi kollektivin və kənd sakinlərinin rəğbətini və hörmətini qazanmışdı.

1963-cü ildə yolum Azərbaycan Pedaqoji İnstitutuna düşdü. İnstitutun ikinci mərtəbəsində divardan şərəf lövhəsi asılmışdı. Bu lövhənin başında Məsim müəllimin şəkli asılmışdı və şəklin altında "M.Y.Məmmədov İnstitutun ilk komsomol komitəsinin katibi və əlaçısı" sözləri yazılmışdı.

Biz Məsim müəllimlə bir yerdə işləməklə yanaşı, həm də möhkəm dost idik. Yadımdadır, məktəbdən evə qayıdırdıq. Məsim müəllim mənə dedi: «Mübariz, Güllər xanım ləzzətli yemək bişirib. Gedək bizə, bir az yemək yeyək, dincələk, sonra gedərsən».

Güllər xanım onun həyat yoldaşı idi. Çox ləzzətli yeməklər bişirirdi. Güllər xanım həmişə yeməyi çox bişirirdi. Çünki, Məsim müəllimin evə qonaqla gələcəyini bilirdi. Belə hallar tez-tez olduğuna görə yeməyi bol bişirərdi.

Məsim müəllim dörd oğul atası idi. Oğlanlarından Tahiri, Əflatunu, Natiqi və Namiqi (Namiq kiçik olduğuna görə onu "Yeniko" çağırardı) çox sevirdi. Tez-tez Namiqi arxamca bizə göndərərdi ki, onlara gedim birlikdə çörək yeyək. Mən də onlara gedər və birlikdə nahar edərdik. Doyunca musiqiyə qulaq asar və dincələrdik. Məsim müəllim muğamı və xalq mahnılarını çox sevirdi. Onun çox gözəl tar çalmaqla yanaşı, həm də məlahətli səsi var idi. O, tarda ifa etməyi bacarırdı, mən isə saz çalmağı bacarıram. Vaxt olurdu ki, o, bizə gələrdi. Mən saz çalardım, o isə oxuyardı. Məsim müəllimin ən çox oxuduğu saz havalarından "İrəvanın çuxuru" üstündə "A Sarvan qızı" olardı.

Bir gün Məsim müəllim "Cermuq" sanatoriyasından dincəlməkdən gəlirdi. Onun gəlişindən xəbər tutub onlara getdim. Diplomatını açıb, bir şəkil göstərdi mənə. Öz şəkli idi. Maral heykəlinin yanında çəkdirmişdi. O, mənə dedi: «Mübariz, yanıma gəlsəydin, sənlə bu maralın yanında şəkil çəkdirərdik».

Dedim: «İndi gedib çəkdirərik». Həyətdən bir heyvan götürdüm (aramızda Aşıq Aydın Rza və bir-iki nəfər də var idi). Qalxdıq "Puşkin" aşırımına. Aşırımın üçüncü döngəsində, qayanın üstündə maral heykəli var idi. Heykəlin yanında onunla şəklimizi çəkdirdikdən sonra aşırımın başına qalxdıq. Bir qədər yeyib-içdikdən sonra o, mənə dedi: «Mübariz, özümü sənlə birlikdə Cermuqda hiss etdim». Onun bu sözləri yadıma düşdü. Mən çox kövrəldim, gözlərim yaşardığına görə onun iz qoyub getdiyi başqa xatirələri qələmə ala bilmədim.

Heyif ki, amansız əcəl onu aramızdan vaxtsız apardı.

ALLAH ONA RƏHMƏT ELƏSİN!

Hörmətlə: Mübariz İsayev



«Bu dünyanın bütün nemətləri bir yaxşı dosta dəyməz».

F.Volter

Süleymanov Məcid



Qısa arayış

Mən – Süleymanov Məcid, 1938-ci ildə Spitak rayonunun Saral kəndində anadan olmuşam. 1946-cı ildə ailəvi Stepanavan şəhərinə köçmüşük. Orada 7-ci sinfi bitirdikdən sonra təhsilini davam etdirmək üçün Saral kəndinə gəlmişəm.

Xatirələrim

Mənim Məsim Məmmədovla ilk tanışlığım 1953-cü ildə Saral kənd orta məktəbində oxuduğumuz vaxt olmuşdur. Onun fizika və riyaziyyat fənlərinin əla mənimsəməsi barədə şagirdlər arasında xoş sözlər danışılırdı. Sonralar mən Kirovakan şəhərində yaşayarkən, Məsim müəllimlə xoş münasibətlərimiz yarandı və biz ailəvi dostluq etməyə başladıq. O zaman Məsim müəllim Arçut kənd orta məktəbində riyaziyyat müəllimi və dərs hissə müdiri işləyirdi.

Mənim oğlanlarımın kiçik toy məclisinə hazırlaşanda kirvəlik məsələsi ortaya çıxdı. Bizim Məsim müəllimlə kirvəlik qohumluğumuzun tarixçəsi də elə buradan başladı. Bizim hər ikimizin yaxın dostu olan Kərimin (Məsim müəllimlə Kərim dayıoğlu–bibioğlu idilər) təklifi və təşəbbüsü ilə olmuşdur. Beləliklə də, həm ailəmizin, həm də Kərimin irəli sürdüyü təkliflə, qohumlar və dostlar arasında yüksək intellektual hörmətə malik Məsim müəllimlə olan ailəvi yaxınlığımız daha sonra isti münasibətlərə yol açdı. Bizim aramızda qarşılıqlı bağlılığımızı möhkəmləndirən amillərdən biri də həyat yoldaşlarımız Güllər kirvə və Amaliya xanım arasında qurulmuş səmimiyyət və qarşılıqlı hörmət olmuşdur. Hətta bu ənənəni bu günə qədər də layiqli şəkildə "nəvə Məcidlə – nəvə Məsim" arasında davam etdirilməkdədir. İnanıram ki, bundan sonra da bu ənənəni gələcək nəsillərimizə ötürməklə bizi, yəni babalarını "Məsimlə - Məcidi" heç bir zaman unutmayacaqlar.

Məsim kirvə Kirovakan şəhərinə və bizim evə gələndə həm bizim, həm də qohum və dostlarımız üçün sevincək bir gün olardı, bayram

əhvali-ruhiyyəsi yaşanırdı. Mən kirvələrin evinə gedəndə toğlu kəsilərdi, hər dəfə yaxın dostlarımın iştirakı ilə qonaqlıq təşkil olunardı. Mən başqa dostla kəndə gedəndə kirvə iki toglu kəsərdi. Mən etiraz etdikdə deyərdi: «birisi sənin gəlişinə, ikincisi dostunun gəlişinə».

Məsim kirvənin savadlı olması və tədris metodikasının yüksək səviyyədə mənimsəməsi rayon maarifi tərəfindən qiymətləndirilirdi. Belə ki, Ermənistan üzrə Azərbaycan məktəb müəllimlərinin təkmilləşdirmə kurslarında dərs vermək üçün müəllim kimi Məsim kirvə də cəlb olunardı.

Yadda qalan hadisələrdən birini də qeyd etmək istəyirəm. Sovet İttifaqı dövründə orta məktəblərdə buraxılış siniflərində riyaziyyatdan imtahan suallarının bir nüsxəsi möhürlənmiş zərfdə rayon maarif şöbəsinə, digər nüsxəsi isə məktəblərə göndərilirdi. İmtahan başlamazdan əvvəl rayon maarif şöbəsində zərf açılar, misal və məsələlər həll olunduqdan sonra məktəblərə göndərilən zərflərin açılmasına icazə verilərdi. Bir dəfə Quqark rayon maarif şöbəsində zərf açılıb və onuncu sinif üçün verilən məsələni həll edə bilməyiblər. Məsim kirvə rayon maarif şöbəsinə dəvət olunmuşdur. Məsələ kirvə tərəfindən həll olunduqdan sonra məktəblərdə zərflərin açılmasına və imtahanların başlanmasına icazə verilmişdir.

Məsim kirvə bizim qohumlar və dostlarımızın yaddaşında səmimi dost, xeyirxah insan, qaygıkeş ailə başçısı, savadlı ziyalı kimi qalmaqdadır. Məsim kirvə maraqlı və məzmunlu söhbətləri ilə bizim əyləncələrə yaraşıq verərdi. Cismən bizdən ayrılsa da o, həmişə bizim və şəxsən mənim yaddaşımda əbədi yaşayacaqdır.

Allah ona rəhmət eləsin. Yeri behişt olsun!..

Nə olaydı bu günləri görəydin
Əcəlin əmrini rədd eləyəydin
Qoydugun varisə əhsən deyəydin
Nəvələri qucaqlayıb sevəydin.

Afoşunun ölkələrə səfərindən
Zənglərinə sms-lə cavab verəydin
Yaratdığı dendrariyə, baxçaya
Nəzər salıb sevinəydin, güləydin.

Hörmətlə: Məcid Süleymanov



«Ruhumuza təsəlli verən yeganə şey elmdir».

C.Dorsi

Məşədiyev Kamil



Məsim müəllimin şagirdi və müəllim yoldaşı....

Böyük müəllim

Məsim müəllim pedaqoq kimi, olduqca savadlı bir insan idi. O, dərs dediyi siniflərdə dərs prosesi zamanı tədris etdiyi fənnə şagirdlər olduqca sakit və diqqətlə qulaq asardılar. Məsim müəllim mənə 8-ci sinifdən riyaziyyat, fizika, astronomiya və rəsmxətt fənlərindən dərs demişdir. O, bir pedaqoq kimi şagirdlər arasında fərq qoymazdı, həm də Məsim müəllim həmkarları arasında pedaqoq kimi böyük nüfuza malik idi. Məsim müəllim pedaqoji şura zamanı müəllim həmkarlarına həmişə məsləhətlər və tövsiyyələr verərdi ki, şagirdlərlə necə rəftar etməli, fənni necə tədris etməli. Məsim müəllim bir pedaqoq kimi rayon təhsil şöbəsində və eləcə də digər rayon rəhbərləri arasında böyük hörmətə və nüfuza malik idi. Buna səbəb onun dərs verdiyi şagirdlərin rayonda və Respublikada keçirilən olimpiadalarda qalib gəlmələri idi. Məsim müəllim həm də yüksək intellektə malik bir ziyalı idi. Onun ziyalılığı onda idi ki, bütün fənləri öz ixtisası kimi əla bilirdi.

Məsim müəllim rus və erməni dillərində sərbəst danışırdı. Elə vaxtlar olurdu ki, bu fənləri tədris edən müəllimlərə göstərişlər, tövsiyələr və iradlarını bildirirdi. Məsim müəllim dərs dediyi şagirdlərdən İsmayıl Əliyev – akademik, Abuzər Qazıyev - professor, İlham Əliyev-professor, Yasəmən Əliyeva, İkram Əliyev, Xalid Rəfiyev, Zakir Məmmədov, Novruz Həsənov və s. elmlər namizədləri kimi fəaliyyət göstərirlər. Məsim müəllimin dərs dediyi şagirdlərdən çoxlu sayda mühəndis, həkim, müəllim, jurnalist, hüquq sahəsi üzrə mütəxəssis, rütbəli hərbçi, rabitə və informasiya sahəsi üzrə mütəxəssis, biznesmen kimi fəaliyyət göstərirlər. Məsim müəllim Arçut kəndinin sevimli bir oğlu, bir müəllimi idi. O, kənd camaatı arasında böyük hörmətə malik idi. Arçut kəndinin 3000-dən çox əhalisi var idi. Məsim müəllim kənddə özünü böyüklə böyük, kiçiklə kiçik kimi aparırdı. O, kənd ağsaqqalları arasında böyük

hörmət sahibi idi. Məsim müəllim kənddə yaşayan bütün təbəqələrdən olan insanlara həmişə mənəvi dayaq olardı. Həm də kənd camaatının sevimli bir oğlu idi. O, kəndin ictimai siyasi həyatında fəal iştirak edərdi. Məsim müəllim həm də natiq bir insan idi. O, çoxlu sayda şeirləri,maraqlı əhvalatları əzbər deyərdi. Onun çox gözəl musiqi duyumu, həm də yaxşı səsi var idi. Hərdənbir keyfinə düşəndə gözəl mahnılar oxuyardı. Məsim müəllim kəndin adlı-sanlı tayfalarından olan Eminlər tayfasından idi. O, çox qohumcanlı bir insan idi. Məsim qohumlar, qonşular arasında heç vaxt ayrı-seçkilik salmazdı. Mən Məsim müəllimlə çox yaxın dost idim. 1971-76-cı illərdə mən Məsim müəllimlə Arçut kənd orta məktəbində müəllim işləyirdik. O, Arçut orta məktəbində dərs hissə müdiri, mən isə sıravi müəllim kimi işləyirdik. Məsim müəllim mənə sinifdə özümü necə aparmağı, şagirdlərlə necə rəftar etməyi barəsində öz tövsiyələrini verərdi. Məsim müəllim heç vaxt bərkdən danışmazdı. Məsim, bütün qonşularla səmimi rəftar edərdi. Heç vaxt küsülülük saxlamazdı. Qonşular da Məsim müəllimdən heç vaxt inciməzdilər və ondan məsləhətlər və tövsiyyələr alardılar. Biz həm müəllim, həm də həmkar kimi çoxlu sayda tədbirlərdə birgə iştirak etmişik. Məsim müəllim yaxşı tar və saz ifa edərdi. Kəndimizin ərazisində çoxlu sayda bulaqlar və səfalı yerlər var idi. Məsim müəllim bu bulaqların yanında mənimlə və eləcə də yaxın dostları ilə çoxlu sayda şənlənmiş və istirahət etmişdi. Məsim müəllim əla nərd oynayırdı. Yadımdadı, o, udduğu hər kəsdən imzaları ilə qəbz alardı ki, mən ustayam. Bir dəfə kəndimizin ərazisində olan Alıağanın komunun yanında soyuq bulaq başında, səfalı bir yerdə may ayının 9-da Məsim müəllim, Hayda Məmməd, İsmayıl müəllim və mən şənlənib istirahət edirdik. Birdən apardığımız quzu ipi qırıb qaçdı. Mən həmkarlarımdan çox cavan idim. Məsim müəllim dedi ki, «Kamil, qaç quzunu tut». Çox qaçdım, axır ki, bir zülmlüklə quzunu tutdum. Nəfəsim kəsilirdi. Məsim müəllim dedi ki, «Kamil, sən olmasan biz həm ac qalacaqdıq, həm də şənlənib istirahət edə bilməyəcəkdik». Kəndimizdə Məsim müəllimin əmisi oğlu aşıq Aydın Rza adlı qohumu var idi. Məsim müəllim mənə zəng edib dedi ki, «bizə gəl». Mən də geyinib onlara getdim. Məsim müəllim mənə dedi ki, «get aşığı bizə gətir». Mən gedib aşıq Rzanı sazı ilə gətirdim. Aşıq xeyli oxudu, biz isə yeyib-içib istirahət edirdik. Aşıq tez-tez Məsim müəllimə əmioğlu deyə müraciət edirdi. Birdən Məsim müəllim aşığa dedi «Bəsdi əmioğlu,

əmioğlu dediyin əmin də ölsün, dədən də». Mən isə bu sözə uğundum gülməkdən. Məsim müəllim haqqında çoxlu sayda xatirələr, tarixi hadisələr yazmaq olar. Məsim müəllim haqqında nə qədər xatirələr yazılsa yenə də azlıq edər. Mən Məsim müəllimin alicənab, insanlığı, fitri savadı, yüksək intellekti qarşısında baş əyirəm.

Hörmətlə: Məşədiyev Kamil Həsən oğlu



«Müəllim insanları aydınlığa çıxaran işığa bənzəyir».

V.Hüqo

Musayev İsrafil



Qısa, lakin mənalı ömür yaşamış ağsaqqalım,
məsləhətçim Məsim müəllimin əziz xatirəsinə

Mən – Musayev İsrafil Nəbi oğlu, 12.05.1949-cu ildə Ermənistan Respublikası Allahverdi rayonunun Böyük Ayrım kəndində anadan olmuşam. Atam Musayev Nəbi Quqark rayonunun Arçut kəndində anadan olmuş, 2 yaşında ikən ata-anasını itirdikdən sonra bibisi (maması) ilə Ayrım kəndinə gəlmiş, orada uzun müddət müəllim işləmişdir. Qolugödəklı nəslindəndir. Mən özüm 1978-ci ildə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini bitirmişəm. Uzun müddət təhsil sistemində işləmişəm.

Mənim üçün çox əziz və istəkli olan Məsim müəllim haqqında xatirə yazma təklif olunanda, onunla oturub-durduğumuz günlər, dərdləşdiyimiz anlar, həyətlərində yeyib-içdiyimiz günlər kino lenti kimi gözlərimin önündə canlanmağa başladı. Sözsüz ki, çox təsirləndim və kövrəldim.

Məsim müəllim Loru-Pəmbək elində sayılan, seçilən, tanınan böyük bir nəslin Eminlər tayfasında anadan olmuşdur.

Məsim müəllim uzun müddət Arçut kəndində müəllim, direktor müavini işləmişdir. Çox güclü riyaziyyatçı olduğuna görə, İrəvan və Kirovakan şəhərlərində müəllimləri təkmilləşdirmə institutlarında istər erməni (ermənicə təmiz danışırdı), istərsə də türk müəllimlərinə mühazirələr oxuyardı. Məsim müəllimlə mənim tanışlığım 1977–78-ci illərə təsadüf edir (illər də nə yaman tez gəldi-getdi). O illərdə mən Məsim müəllimin əmisi oğlu Hüseyn kişinin qızı Elmira ilə nişanlandım və sonra evləndim. O vaxtdan müəllimlə mənim dostluğum başladı. Qohumluğa, yaş fərqimizə, Məsim müəllimin həyatda tutduğu yüksək mövqeyə baxmayaraq, biz yaxın sirdaş, həmdərd olduq. Sözsüz ki, onun məsləhətləri mənim üçün həmişə ön planda olardı. Biz həmişə yay aylarında məzuniyyətə kəndə gedərdik. Mən Arçutda olarkən hər gün (inanın Allaha) evlərinə dəvət edərdi. Həyətlərində səhv etmirəmsə,

ya alça, ya da gavalı ağacının altında oturardıq. Çox səliqəli-səhmanlı stol düzəltdirərdi. Güllər xala da daim onun qulluğunda durardı. Yeyib içdikdən sonra, müəllim çox yaxşı avazla "Segah" oxuyardı. Gözəl də tar çalmağı vardı. Məsim müəllim ciddi adam idi. Ancaq yumor hissini özündə saxlayırdı. Sözü yerində dəqiq işlədərdi. Hüseyin kişinin qızlarından birinə elçi gəlmişdilər. Elçiliyə gələnlərin hamısı sinədəftər insanlar idi. Hamısı da uzun-uzadı şeir deyirdi. Biri qurtarmamış, o biri başlayırdı. Oturana durana söz vermirdilər. Məsim müəllim dözməyib dedi ki, «A kişilər, əyləsin bir şeir də mən deyim». S.Vurğunun məşhur

Hər yerindən duran şairəm deyib,
Şairin üzündə həya gərəkdir.

Bununla da elə bil qurbağa gölünə daş atıldı. Daha qonaqların heç biri şeir deməyə cürət etmədi.

Bir dəfə də Todar dağına getdik. Oruc dayı, Məsim müəllim də məclisin başında oturmuşdular. Erkək kəsildi, dadlı bozartma bişirildi. İki çoban da bizimlə oturdu. Yemək ortaya gələn ilə ətin qurtarması bir oldu. Bir qab da gətirdilər Çobanlar imkan vermədilər ki, biz əlimiz uzadaq. 3-cü qab ət gələndə, Məsim müəllim çobanlara dedi ki, «İndi siz gözləyin, bir qismət də biz yeyək». Sözsüz bu, müəllim tərəfindən edilən bir zarafat idi. Amma yerində edilmiş bir zarafat idi ki, çobanlar bir az bizə də imkan verdilər. Ürək ağrısı ilə qeyd edirəm ki, Məsim müəllim aramızdan çox tez köçdü. Deyirlər Allah öz istədiyi bəndələrini yanına daha tez aparır. Bir də yükü-çəkənin boynuna qoyar Allah-təala. Məsim müəllim həm istəkli bəndə, həm də ağır yükləri öz üzərinə götürdüyünə görə aramızdan tez getdi.

Qəbri nurla dolsun, yatdığı yer cənnəti –məkan olsun. AMİN!

Kitabı tərtib edənlərə, mənə yer ayırdıqlarına görə öz minnətdarlığımı bildirirəm, sizləri Allah qorusun.

Mənim yazdığım xatirəni qısalda da bilərsiniz, nəsə əlavə də edə bilərsiniz. Təki işimiz uğurlu, niyyətimiz təmiz, kitabımız möhtəşəm alınsın.

Hörmətlə: İsrafil Musayev



Nadanlar elmə həqarətlə baxır,
Savadsızlar ona heyran olur,
Müdriklər isə ondan bəhrələnirlər.

F.Bekon

Alıyev İlyas



Qısa arayış

Mən – Alıyev İlyas Hüseyn oğlu, 1951-ci ildə Qərbi Azərbaycanın indiki Kirovakan şəhərinin Arçut kəndində ziyalı ailəsində anadan olmuşam. 1969-cu ildə orta məktəbi bitirib, Bakıya ali təhsil almaq üçün getmişəm. Sənədlərimi Azərbaycan Neft və Kimya İnstitutuna vermişəm və həmin institutun energetika fakültəsini bitirmişəm. İnstitutu bitirdikdən sonra təyinatımı Bakı Kondisionerlər Zavoduna almışam. 2008-ci ilə kimi həmin zavodda müxtəlif vəzifələrdə işləmişəm. Hal-hazırda «İdal-İ» inşaat şirkətində baş energetik vəzifəsində işləyirəm. Ailəliyəm, 3 övladım var. Hər üçü də ali savadlıdır.

Gözəl müəllim

Bizim kəndimizdə yaşayanların əksəriyyəti yüksək insani xarakterə malik olan insanlardan ibarət idi. Həmin insanlardan biri barədə qısaca olaraq öz şəxsi fikirimi söyləmək istəyirəm.

Həmin gözəl insan - Məmmədov Məsim Yusif oğludur.

Məsim müəllim öz insani xarakteri və savadı ilə başqalarından çox fərqlənirdi. Məsim müəllim fizika-riyaziyyat fənni üzrə çox savadlı müəllim idi. Məktəbimizdə onun böyük hörməti var idi. Məsim müəllim çox tələbkar və ciddi adam idi. O, məktəbdə bir cür, kənd camaatı arasında başqa cür olurdu.

Mən onu tanıyandan məktəb direktorunun müavini vəzifəsində görmüşəm. Onun keçmiş məzunlarının əksəriyyəti Azərbaycanda yüksək vəzifələrdə işləyirlər. Mən 7-ci sinfi bitirdikdən sonra fizika fənni üzrə müəllimim Məsim Məmmədov oldu. Həmin illərdən sonra mənim də fizika-riyaziyyat elminə həvəsim artdı. O, həm də bizimlə qonşu idi. Ev tapşırıqlarında çətinlik çəkəndə həmişə Məsim müəllim mənə köməklik edərdi. Mən onlara gedəndə çox mülayim qarşılayırdı. Əlindəki işini bir yana qoyub dərslərimə kömək edərdi.

Gözəl ailə başçısı idi. Həyat yoldaşı Güllər xala çox mehriban qadın idi. Mən, hər dəfə onlara gedəndə bir stəkan kompot və bir neçə alma verərdi.

Gözəl alma, armud, alça bağları var idi. Məsim müəllimin təşkilatçılığı ilə uca dağların ətəyindən qonşulara su çəkilmişdi. Həmin sudan öz həyətinə də çəkdirmişdi. Zəhmətə qiymət verən adam idi. Özünün işləməklə arası yox idi. Bütün bostan işlərinin öhdəsindən Güllər xala gələrdi.

Bizim sinif uşaqları da başqa məzunlar kimi məktəbi bitirdikdən sonra Məsim müəllimin rəhbərliyi altında məktəblə vidalaşma mərasimi təşkil etmişdi. Həmin təntənəli mərasimi bir sovxozun "Çələ" deyilən bağ yerində keçirdik. Məsim müəllim həmin vida mərasimində yenə də bütün uşaqlara həyatın gözəl arzularını dilədi və ciddi şəkildə dedi ki, «Mən sizin sədanızı yüksək elm ocaqlarından eşitməliyəm». Məsim müəlliim kənd camaatı arasında böyük hörmətə malik idi. O, bütün kənd camaatının xeyrində-şərində iştirak edərdi. Kənd toylarında həmişə başda olardı, zarafatı çox sevərdi. Çoxlu dostları var idi. Elə gün olmazdı ki, onun evində şadlıq olmasın. Qış aylarında başqa yerlərdən gələn el aşıqlarını evində qonaq edər, məclis qurardı.

Axır vaxtlar köhnə evini sökdürdü, yerində üçmərtəbəli yaraşıqlı ev tikdirdi. Həmin evin eyvanından kəndin mənzərəli yerlərini seyr etməkdən insanlar zövq alardı. Allah ona rəhmət eləsin... Amin!...

Hörmətlə: İlyas Alıyev



«Biliyin ağası olmaq üçün zəhmətin köləsi olmaq gərəkdir».

O.Balzak

İsmayılov İmdad



Qısa arayış

Mən – İsmayılov İmdad, Ermənistanın Quqark rayonunun Arçut kəndində 1950-ci ildə kəndli ailəsində anadan olmuşam. 1958-ci ildə həmin kənddə 1-ci sinifə getmişəm. Həmin məktəbi gümüş medalla bitirmişəm. Sonra Bakı şəhərinə təhsilimi davam etdirmək üçün getmişəm. Orada Azərbaycan Xalq Təsərrüfatı İnstitutuna daxil olmuşam. İnstitutu bitirdikdən sonra doğma kəndimizə qayıdıb maqazində və sovxozda kassir vəzifəsində çalışmışam.

Məsim müəllim haqqında xatirə

Məsim müəllim haqqında xatirə yazmaq çox çətindir. Ona görə çətindir ki, o, böyüklərlə böyük kimi, kiçiklərlə kiçik kimi rəftar etməyi bacarırdı. Məsim müəllim ixtisasca fizik olsa da o, universal bir şəxsiyyət idi. O, ədəbiyyat, coğrafiya, tarix və sair fənləri də mükəmməl bilirdi.

Biz IX b sinifində oxuyurduq. Fizikadan zaçot verirdik. Mən və Sədini lövhəyə çağırdı. Lövhəni yarıya böldü. Bir tərəfdə Sədi, digər tərəfdə isə mən. «I hissənin nə qədər düsturlar olduğunu yazın» dedi. Biz yazmağa başladıq. Sədi məndən 2 saniyə tez yazdı. Düsturlara baxıb razı qaldı. Çox sağ olun dedi. Bu zaman əlində 2 qənd olduğunu gördük. O qəndin biri iri, digəri isə balaca idi. O, qəndin irisini Sədiyə, balacanı mənə verdi və dedi: «Sən Sədidən 2 saniyə gec qurtardığın üçün belədir». Məsim müəllim çox savadlı və həyatı başa düşən insan idi.

Fizikadan İrəvana olimpiadaya getmişdik. Mən valideyn kimi, o isə müəllim kimi. Uşaqlar olimpiadadan çıxdıqdan sonra müəllim kimi yoxlamaya başladı. Bu vaxt bir erməni müəllimi ilə mübahisə etdiyini gördüm. Sonra da həmin mübahisənin nədən ibarət olduğunu bildim. Erməni müəllimin fikirinin səhv, Məsim müəllimin həll etdiyi məsələnin düz olduğu üzə çıxdı. Heç vaxt yadımdan çıxmaz, həmin müəllim və olimpiya komitəsinin sədri dəfələrlə Məsim müəllimdən üzr istəyirdilər.

Kənddə xeyir iş görənlər öz xeyir işlərində Məsim müəllimdən masabəyi olmasını xahiş edirdilər. Məsim müəllimin o qədər zəngin dil qabiliyyəti var idi ki, həmin dəqiqə ələ ala bilirdi.

Məsim müəllim zarafat etməyi də çox sevərdi. Birdən deyərdi: «Yeyək-içək, içki var, yemək hanı?» deyəndə, cibindən 5-6 alça çıxarardı ki, «yemək budur». Bir dəfə Məmməd evinin xatirə bulağında yeyib-içməyə getmişdik. Heyvanı kəsib soyduqdan sonra, mən ağacın altında oturmuşdum. Məsim müəllim arağı gətirdi və bir tikə kabab uzadaraq, «qardaş qardaşa verməz, mən bu tikəni sənə verirəm» söylədi. Məsim müəllim ilə bizim kəndin yaylağına getmişdik. Yaylaqda bir az gəzib dolandıqdan sonra Sarı bulağa gəldik. O, hamını bir yerə yığıb dedi: «Mən burdan bir araq çıxardacam» və elə də etdi. Bir daşı qaldırıb arağı götürdü və dedi: «Keçən il bu arağı burda gizlətmişdim».

Məsim müəllim mərc etməyi çox sevərdi. Sarı bulaqda dedi: «Kim ayağını suyun içində çox saxlasa mərci udur». Dağ suyu, buz kimi idi. Biz heç bir dəqiqə saxlaya bilmədik, o isə beş dəqiqə suda ayağını saxladı.

Məsim müəllim harda olsa, ora toy-bayrama dönürdü. Həm də təşkilatçı idi, o məktəbin dərs hissə müdiri idi. X sinifdə oxuyan vaxtı rus dilindən qiymətim 4-5 arası idi. Məsim müəllim isə istəyirdi ki, mən əlaçı olum. Ona görə də Tatyana müəlliməni çağırıb mənimlə sual-cavab etməyi tapşırdı. Müəllimə mənə sual verməyə başladı. Məsim müəllım isə arxa partada oturub qulaq asırdı. Mən suallara cavab verdim. Bu zaman Məsim müəllim ayağa qalxıb yanıma gəldi və dedı: «Çox sağ ol, rus heç sənin kimi danışa bilmir. Tatyana müəllimə nə deyirsən?», o da dedi ki, «Çox sağ olsun».

Məsim müəllimdə bu qabiliyyətlər çox güclü idi.

Allah ona rəhmət eləsin!..

Hörmətlə: İmdad İsmayılov



«Təbiət bizə qısa ömür verib, amma gözəl yaşanmış həyat haqqında xatirə əbədidir».

Siseron

Cəfərov Şamil



Heydərli məktəbinin sabiq direktoru

Yarımçıq qalmış xatirələr...

Doğrusu eşidəndə ki, əziz dostum Məsim Məmmədov – Məsim müəllim haqqında xatirələr toplanır, həm sevindim, həm də kədərləndim...

Sevindim ona görə ki, bu gözəl insan, əsl pedaqoq, elinin, obasının sevimli oğlu, nəhayət ki, yaddaşlardan qopardılaraq tarixə qovuşdurulacaq, onu nəinki tanıyan dost-tanışlar, indiki nəsil, habelə gələcək nəsillər də tanıyacaqlar...

Kədərləndim ona görə ki, amalı yaxşılıq, vicdanı təmiz, təəssübkeş, qəlbində Allah sevgisi, üzündə həmişə qəribə bir nur işığı olan belə bir el oğlu artıq aramızda yoxdur...

Məsim müəllimlə yaxından tanışlığım pedaqoji fəaliyyətimin elə birinci ili oldu. 1974-cü ildə bizim məktəbə yoxlama gəlmişdi. Gələnlərin arasında səliqə səhman ilə seçilən bir nəfər diqqətimi cəlb etdi. Bu Məsim müəllim idi. Bir az ordan-burdan söhbət etdik. Onda hiss etdim ki, bu qarşımdakı adi adam deyil. Onun nə isə daxilində çoxlarının duya bilmədiyi sirli bir aləm var.

Etiraf edirəm ki, elə məni sonralar onunla bir yaxın yoldaş, dost kimi bağlayan da həmin sehr, həmin sirr idi. Ayrılanda məni kənara çəkib bir söz dedi: «Müəllim, tanış olmağımıza çox şad oldum. Ehtiyatlı ol!» Doğrusu, çaşıb qaldım. Bu nə deməkdir? İndicə tanış olduğum bu adam nə demək istəyirdi? Sonrakı illərin təcrübəsi bu sualın cavabını tapmaqda mənə kömək etdi. Heyif ki, onda artıq Məsim müəllim həyatda yox idi.

Məsim müəllim Arçut kimi böyük bir kənd məktəbinin dərs hissə müdiri idi. Bu məktəbdə çox gözəl qabiliyyətli, savadlı və sağlam müəllim kollektivi formalaşmışdı. Onların səmərəli fəaliyyətinin nəticəsi idi ki, Arçut məktəbinin adı hər yerdə hörmətlə çəkilirdi. Ədalət naminə deməliyəm ki, bu kollektivin formalaşmasında məktəbin direktoru çox

hörmət bəslədiyim Məhəmməd Əliyevin də rolu çox böyük idi. Bu kollektiv haqqında yəqin ki, Arçut kəndinin mərd, qədirbilən və ziyalı övladları öz sözlərini deyərlər...

Məqsəddən uzaq düşməmək üçün bunu onların ixtiyarına buraxıram...

Olimpiadalarda, seminar və müxtəlif iclaslarda, kurslarda, habelə müxtəlif tədbirlərdə Məsim müəllimlə görüşlərimizdən yaranan səmimiyyət və doğmalıq dostluğa çevrilməyə başladı. Artıq bir-birimizə öz ürək sözlərimizi açıq deyə bilirdik. Bir dəfə Məsim müəllim Arçut məktəbinə keçməyimi təklif etdi. Doğrusu, bu təklif mənim üçün gözlənilməz oldu və mən bu təklifi qəbul etmədim. Xeyli söhbətdən sonra Məsim müəllim dedi: «Dostum, sən haqlısan. Bütün məktəblərimizin vəziyyətini yaxşılaşdırmaq üçün əl-ələ verməliyik. Bir güllə yaz olmaz!»

Qısa zamanda məni öz məktəbimizə direktor təyin etdilər. Ilk sevinənlərin ən birincisi Məsim müəllim idi. O, hələ bu münasibətlə bir qonaqlıq da verdi. Sonralar öyrəndim ki, sən demə, Məsim müəllim nəinki mənə, eləcə də mənim kimi çoxlarına qayğı göstərmiş, arxa-dayaq olmuşdur. Məsim müəllim nəinki rayon miqyasında, habelə onun hüdudlarından kənarda da yaxşı bir müəllim, gözəl təhsil bilicisi, sadə və səmimi bir yoldaş kimi tanınırdı.

Onun yüksək insani keyfiyyətləri elə özünü hamının istəklisinə çevirmişdi. Mühazirələr oxuduğu kursların və apardığı seminarların dinləyiciləri dinindən, dilindən asılı olmayaraq onun bu keyfiyyətlərini çox yüksək qiymətləndirirdilər. Məsim müəllim əsl dost, etibarlı yoldaş idi.

1979-cu ildə Arçut məktəbini yoxlamağa getmişdik. Müəllimlərdən bir neçəsinin – Qiyas, Nüsrət, Qəmər, Məcid və s. açıq dərsləri də dinlənilib müzakirə edildi.

Dünyasını dəyişənlərə Allahdan rəhmət, sağ qalanlara isə can sağlığı diləyirəm. Bütün məktəblərdən, o cümlədən elmi-tədqiqat institutundan da nümayəndələr var idi. Elmi-metodiki məruzə ilə mən çıxış etdim. Təvazökarlıqdan uzaq olsa da, hamının xoşuna gəlmişdi. Məndən çox mənim Arçutlu dostlarım sevinirdilər. Məsim müəllim onda məni qucaqlayıb dedi: «Qoy görsünlər ki, bizim necə oğullarımız var!»

Məsim müəllim hərtərəfli adam idi. Tarixi hadisələr, görkəmli

şəxsiyyətlər haqqında çox dolğun məlumatı var idi. Şeirin, sazın-sözün vurğunu idi. Səməd Vurğunun, Üzeyir Hacıbəyovun gözəl riyaziyyat biliciləri olmaları barədə maraqlı söhbətlər edərdi.

Məsim müəllim həm də vətənpərvər bir adam idi. Onun qəlbində çox arzuları var idi. Onlardan biri də şəhərimizdə mövcud olan ali məktəblərdə Azərbaycan dilli ixtisasları yaradılması idi. Bu barədə çox söhbətlərimiz olub. İşi necə başlamaq haqqında planlarımız da olub. Əfsuslar olsun ki, bu plan da, bu arzular da yarımçıq qaldı...

Əvvəl Məsimi itirdik, sonra da el-obanı, şəhəri, kəndi, torpağı, bir sözlə, hər şeyimizi. Heyf, min heyf!

Məgər belə bir insan haqqında hər şeyi demək, yazmaq mümkündürmü? Yazmaq istədikcə hiss etdim ki, bu sonsuz xatirələr dünyasını təsvir etmək mümkün deyil. Yox, əziz dost! Məni bağışla. Bunu mən bacarmadım. Sənin ömrün və arzuların yarımçıq qaldığı kimi, qoy elə mənim də bu xatirələrim yarımçıq qalsın!

Ruhun şad olsun! Allah rəhmət eləsin! Amin!.

Hörmətlə: Cəfərov Şamil Oruc oğlu

AİLƏ XATİRƏ ŞƏKİLLƏRİ

«Məsim Yusif oğlu Məmmədovun həyat və fəaliyyəti ilə bağlı foto şəkillər».



Məsim müəllim və həyat yoldaşı Güllər xanım.



Sağdan: Məsim müəllim, yoldaşı Güllər xanım və oğlu Əflatun müəllim.



Məsim müəllimin övladları.



Məsim müəllim böyük oğlu Tahirlə.

PEDAQOJİ FƏALİYYƏTİ İLƏ BAĞLI ŞƏKİLLƏR

«Millətləri yalnız və yalnız müəllimlər xilas edə bilər».

Atatürk



Soldan sağa: Məsim Məmmədov, Məhəmməd Əliyev və Rəşid Süleymanov.



Soldan: Məsim müəllim və müəllim yoldaşları.



Sağdan: Məsim müəllim məktəblilərin buraxılış tədbirində.



Sağdan ikinci: Məsim müəllim.



II cərgə soldan üçüncü: Məsim müəllim, müəllim yoldaşları ilə şagirdlər arasında



Sağdan: Məsim müəllim oğlu Namiqlə, müəllim yoldaşları ilə birgə.



Sağdan birinci: Məsim müəllim kollektiv şəkli.



Sağdan: Məsim Məmmədov, Məmməd Məmmədov və İsmayıl İsmayılov.



Sağdan: Məsim Məmmədov, Musa Qurbanov və Hüseyn Budaqov.



Sağdan: Məsim Məmmədov və müəllim yoldaşları.



Məsim müəllim məktəbli uşaqlarla birlikdə.



TƏLƏBƏLİK VƏ İNSTİTUT İLLƏRİNƏ DAİR ŞƏKİLLƏR

«Təhsil tələbələrə hörmətdən başlayır».

Homer




Sağdan: Məsim müəllim və tələbə yoldaşları.



Sağdan: Məsim Məmmədov və Yusif müəllim. Bakı, 1956-cı il.



Məsim Məmmədov tələbəlik illərində.



Sağdan: Məsim Məmmədov və Vəkil müəllim.



Soldan: Məsim müəllim və tələbə yoldaşı.

İRƏVAN TƏKMİLLƏŞDİRMƏ İNSTİTUTUNDA FƏALİYYƏTİ İLƏ ƏLAQƏLİ ŞƏKİLLƏR

«Öyrəndiklərimi öyrətməkdən yorulmadım. Bu, mənim insanlara göstərdiyim cüzi xidmətdir».


Konfutsi



Soldan birinci: Məsim müəllim Yerevan Təkmilləşdirmə kursunda həmkarları ilə birgə.



Məsim müəllim İrəvanda.



Arxa cərgədə: Məsim müəllim təkmilləşdirmə kursunda həmkarları ilə birgə.



İkinci cərgə, sağdan birinci: Məsim müəllim Təkmilləşdirmə kursunda müəllim yoldaşları ilə birgə. İrəvan.



Arxa cərgə sağdan ikinci: Məsim müəllim Təkmilləşdirmə kursunda müəllim yoldaşları ilə.




Soldan: Məsim Məmmədov müəllim yoldaşları ilə.

İSTİRAHƏT ŞƏKİLLƏRİ

«Hər gün insan üçün yeni bir həyatdır».

R.Beyker



Məsim Məmmədov – Sanatoriya Cermuk.



Məsim müəllim – arxadan ikinci – müəllim yoldaşları ilə birgə.



Ortada: Məsim müəllim sanatoriyada dincələrkən.



Məsim müəllim sanatoriyada.



Sağdan birinci: Məsim müəllim sanatoriyada dincələrkən (Cermukda).



Birinci cərgə, sağdan ikinci Məsim müəllim sanatoriyada.



Sağdan, Məsim müəllim istirahətdə.

KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNDƏ MƏSİM MÜƏLLİM HAQQINDA MƏQALƏLƏR

БУТУН ӨЛКӘЛӘРИН ПРОЛЕТАРЛАРЫ, БИРӘШЕН!

СОВЕТ ЕРМӘНИСТАНЫ

ЕРМЕНИСТАН КП МӘРКӘЗИ КОМИТЕТЕНИҢ, ЕРМЕНИСТАН ССР ӨЛИ СОВЕТЕНИҢ ӘҘ НАШЕРЛӘР СОВЕТЛЕНИҢ ОРГАНЫ

№ 118 (10542)

шәмбә 1 октябрь 1977-чи ил

Гәзет 1921-чи илдән иҗулунадан чыхыр.

Ғәҗмәти 2 гәп.

«ОРГАН ЦЕНТРАЛЬНЫЙ ПЕЧАТЬ ДВИЖЕНИЯ ЗА КОММУНИЗМ, ЗАКОНОВ ОВЕТ ЗАРУБЕЖЬЯ ВЕРХОВНЫЙ ОВЕТ ФЕДЕРАТИВНЫЙ ИНДИЯ»

«СОВЕТ АРМЕНИСТАНЫ» ОРГАН ЦЕНТРАЛЬНОГО КОМИТЕТА КП АРМЕНИИ, ВЕРХОВНОГО СОВЕТА И СОВЕТА МИНИСТРОВ АРМЯНСКОЙ ССР

Гәзет 1921-чи илин иҗулундан

САБАҺ МУӘЛЛИМ КУНУДУР

ЧИЧӘКЛӘНӘН ХАЛҒ МААРИФИ

Arxut kənd orta məktəbinin müəllimləri

Məsim Məmmədov

Совет һакимиҗәтинин илк илларын ичиндә Ермәнистан зәһмәткешләри ән ибтидаи мәдәни һәјат сәвијјәсиндән бир нечә ајрылмаз. Сосиалист гурулушунун мәсәлиси мәдәнијјәтдән, хүсусилә дә кәнд тәсәррүфатында олан кечмишдән ала гәдим мәдәнијјәтә малик олмајан әһалинин арасында савадсызлығы арадан галдырмаг мәсәлә дөврүндә савадсызлығы арадан галдырмаг Ермәни дилиндә тәдрисатын кечирилмәси



ԳՈՒԳԱՐՔ

„ԳՈՒԳԱՐՔ“

№ 114 (2210)
ՀՈՒՆԻՍ
28
ՍԵՊՏԵՄԲԵՐԻ
1979 թ.

ՀԱՇՎԵՏՈՒ-ԸՆՏՐԱԿԱՆ ԺՈՂՈՎՆԵՐԸ ՄԱՐՔՍԱԿԱՆ ԿՈՒՍԱԿՑՈՒԹՅԱՆ ԿԱԶՄԱԿԵՐՊՈՒԹՅՈՒՆՆԵՐՈՒՄ

ԱՒՏՈՒՅՈՒՄՈՒՆ ՆՈՐ ԽՆԴԻՐՆԵՐԻ ՄԱԿԱՐԴԱԿԻՆ

Məktəbin müəllimləri M.Məmmədov və V.Qurbanovun "Yeni vəzifələrin yerinə yetirilməsi" adlı məqalədə Sov.İKP XXV qurultayının qərarlarının məktəbdə həyata keçirilməsi işlərindən danışılır

СОВЕТ ЕРМӘНИСТАНЫ

15 ЈАНВАР 1983-ЧҮ ИЛ, № 7 (11367) 29 ЈАНВАР 1983-ЧҮ ИЛ, № 13

Мүәллимин һөрмәти

Кәнч нәслин тә'лим-тәрбијәси илә мәшғул олан мүәллимә Вәтәнимиздә бөјүк һөрмәт көстәрилир. Мүәллим әмәји јүксәк гијмәтләндирилир. Әкинчи торпағы бечәриб бидан бол мәһсул алыр, фәһлә дәзкаһ архасында дајаныб јени мүрәккәб чиһазлар, машынлар һазырлајыр. Алим елми лабораторијаларда кечә-күндүз ишләјир, тәчрүбәләр апарыр, бәшәријјәтин сәадәти вә тәрәггиси наминә јени кәшфләр едир. Космонавт көјләрин једди гатына јүксәлиб сәјјарәләр аләминә сәфәрә чыхыр. Ме'мар бина учалдыр, мүһәндис көрпү салыр, дәмир јолу чәкир. Бир сөзлә, халг тәсәррүфатынын вә мәдәни гуруљулуғун мүхтәлиф саһәләриндә адамлар 285 ихтисас үзрә чалышырлар. Бу ихтисасларын, пешәләрин фөвгүндә мүәллимлик пешәси дајаныр. Алими дә, фәһләни дә, механизатору да һазырлајан, она һәјат путјовкасы верән мүәллимдир. Мүәллим әмәји она көрә гијмәтлидир ки, о, инсанын өзүнү формалашдырыр. Совет мүәллими чәмијјәтимизин инкишафында һәлледичи вә мүһүм рол ојнајыр.

Мүәллим өз мәдәнијјәти вә билији илә сечилмәлидир. Мүәллимин әмәји јарадычы әмәкдир. Бу әмәк шәхсијјәтин инкишафы вә формалашмасы кими чәтин просеси идарә етмәји һәср олунур. Мүәллим өз ихтисасыны даим тәкмилләшдирмәли, үмуми вә сијаси билијини мүнтәзәм артырмалыдыр. Гугарк рајонундакы Арчут кәнд орта мәктәбинин мүәллими Мәсим Мәммәдов тәшкилатчылыг габилијјәти, билик вә мәдәнијјәти илә һөрмәтлидир. О, рәјазијјат мүәллимидир. Фәнни шакирдләрә севдирмәји бачарыр. Гафан шәһәриндәки 4 нөмрәли мәктәбин мүәллими Фәридә Әһмәдованы шәһәтләндирән дә өзүнүн сәнәтинә вурғун олмасы, өз үзәриндә мүнтәзәм ишләмәсидир.

Redaksiya məqaləsi

РАЗЫЛЫГ МӘКТУБУ

Гугарк рајонунун Арчут кәндиндә јашајан Рәһим вә Бәјимханым Гулијевләрин аиләсиндә һәдсиз севинч вардыр. Онлар бир ил әввәл әскәри хидмәтә јола салдыглары оғуллары Дилманын гуллуг етдији һәрби һиссә командanлыгындан разылыг мәктубу алмышлар. Командanлыг онлара нәчиб, тәвазөкар вә Вәтәнә сәдагәтли оғул тәрбијә етдикләри үчүн һәдсиз разылыг билдирир. Мәктубда көстәрилир ки, Дилман әскәри борчуну шәрәфлә јеринә јетирир, валидејнләринин нәсиһәтләриня лајигинчә әмәл едир, хидмәт әла чыхыр, һиссәнин ичтимаи ишләриндә фәал иштирак едир. Мәһз буна көрә дә о, командирләрин вә бүтүн јолдашларынын дәрин һөрмәтини газанмышдыр. Ташкырыглары мәһарәтлә јеринә јетирдији, һәрби вә сијаси һазырлыгда әла нәтичәләр наил олдуғу, јүксәк интизамлылыгына көрә Дилман Гулијев аз мүддәтдә 6 дәфә командanлыгын мүкафатына лајиг көрүлмүшдүр.

Һиссә командири, полковник И. Демјаненко вә сијаси шө'бә рәиси, мајор А. Подлесноју имзалары илә көндәрилән мәктубун сонунда дејилир: «Сиз өз оғлунузла фәхр едә билөрсиниз. Әминик ки, о, бундан сонра да хидмәтини вичданла јеринә јетирәчәк, һиссәдә һөрмәтини даһа да артырачагдыр. Әсл совет кәнчи бөјүдүб тәрбијә етдијиниз үчүн сизә миннәтдарлыгымызы вә разылыгымызы билдиририк».

Шура ДИЛБАЗОВ.



БҮТҮН ӨЛКӘЛӘРИН ПРОЛЕТАРЛАРЫ, БИРЛӘШИН!

АЗӘРБАЈЧАН МҮӘЛЛИМИ

АЗӘРБАЈЧАН ССР МААРИФ НАЗИРЛИЈИНИН ВӘ МААРИФ, АЛИ МЕКТӘБ, ЕЛМИ ИДАРӘ ИШЧИЛӘРИ КӘНДЛӘР ИТТИФАГЫ РЕСПУБЛИКА КОМИТӘСИНИН ОРГАНЫ.

«Азәрбајҹан мүәллими» («Учитель Азербайджана») орган Министерства просвещения Азербайджанской ССР и республиканского комитета профсоюза работников просвещения, высшей школы и научных учреждений.

6 МАРТ 1974-ҹү ИЛ.

ГАРДАШ РЕСПУБЛИКА МӘКТӘБЛӘРИНДӘ

ӘМӘКДАШЛЫҒЫМЫЗ МӨНКӘМЛӘНИР

ГУГАРК РАЈОНУНДА

№ 19 (2505)

ЧӘРШӘНБӘ,

6

МАРТ

1974-ҮҮ ИЛ.

ГИЈМӘТИ 4 ГӘПИК.

БҮТҮН ӨЛКӘЛӘРИН ПРОЛЕТАРЛАРЫ, БИРЛӘШИН!

СОВЕТ ЕРМӘНИСТАНЫ

ЕРМӘНИСТАН КП МӘРКӘЗИ КОМИТӘСИНИН, ЕРМӘНИСТАН ССР АЛИ СОВЕТИНИН ВӘ НАЗИРЛӘР СОВЕТИНИН ОРГАНЫ

«ՍՈՎԵՏ ԷՐՄԵՆԻՍՏԱՆ»-Ը ԿԱՆՉՎԱԾ Է ՀԿ ԿԵՆՏՐԱԿԱՆ ԿՈՄԻՏԵԻ, ՀԱՅԿԱԿԱՆ ՍՍՀ ԳԵՐԱԳՈՅՆ ՍՈՎԵՏԻ ԵՎ ՆԱԽԱՐԱՐՆԵՐ ՄԱՐՄՆԻ ՕՐԳԱՆԸ

«СОВЕТ АРМЕНИСТАНЫ» ОРГАН ЦЕНТРАЛЬНОГО КОМИТЕТА КП АРМЕНИИ, ВЕРХОВНОГО СОВЕТА И СОВЕТА МИНИСТРОВ АРМЯНСКОЙ ССР

№ 183 (10567)

ЧУМӘ АХШАМЫ

1

ДЕКАБР

1977-ЧИ ИЛ

08
Mənteq həqatı
Tədrisin keyfiyyətini
jaxşılaşdırmalı



ՄԱՍԻՄ ՄԱՄՄԱԴՈՎ

ՀԱՏԿՔՔԻՔ ԻՎԸՆԴԿԱԼՈՒԹՅՈՒՆ

ՀԱՄԱՌՈՏ ՎԵՐԼՈՒԾՈՒԹՅՈՒՆ ՄԱՍԻՆ ՔՈՒՔԱՐԿԻ ԹՎԱԿԱՆ ԿՈՄԿՈՒՍԱԿԱՆ

Qabaqcılların təcrübə səhifəsi adlanır.

Arçut kənd orta məktəbinin təlim-tərbiyə işləri üzrə direktor müavini Məsim Məmmədov rayon qəzeti "Quqark"ın xüsusi buraxılışında məktəbin nümunəvi işindən və siyasi partiya dərnəyinin illik yekunu haqqında yazır.



ՀԱՅԿԱԿԱՆ ՍՍՀ ԳՈՒՂԱՐԿԻ ԵՎ ԳՈՒՂԱՐԿԱՅԻՆ ԳՅՈՒՂԱԿԱՆ ԴԵՊՈՒՏԱՏՆԵՐԻ ԳՈՒՂԱՐԿԻ ԲՐՅԱՆԱՅԻՆ ՈՒՂԵՑՈՒՅՑ

ԳՈՒՂԱՐԿ
„ГУГАРК"

ОРГАН ГУГАРКСКОГО РАЙКОМА КП АРМЕНИИ, ГУГАРКСКОГО РАЙОННОГО СОВЕТА НАРОДНЫХ ДЕПУТАТОВ

№ 117 (1446)
ՇԱԲԹ
3
ՀՈԿՏԵՄԲԵՐԻ
1974 Թ.

ՍԿՅԱՆԱՆԵՐԻ ԽՈՐՀՐԱՏՈՒ Ի՞Ն ՕԳՆՈՒԱՆԸ

— Համեստ ընկեր է, ճմուտ մանկավարժ...

Նման արտահայտություններ հաճախ կարելի է լսել Արջուտի դպրոցի ուսումնադաստիարակչական աշխատանքների գծով դիրեկտորի տեղակալ Մասիմ Մամեդովի հասցեին: Իսկ դրանք ճենց այնպես, գեղեցիկ խոսքի համար չեն ասվում: Դրանք աշակերտների և ուսուցչական կոլեկտիվի կողմից հարգված մանկավարժի էության, բնութագրի արտահայտություններն են:

Մեկուկես տասնամյակ է անցել այն օրից, ինչ Բաքվի Վ. Ի. Լենինի անվան մանկավարժական ինստիտուտի ֆիզիկա-մաթեմատիկական ֆակուլտետի շրջանավարտ Մասիմ Մամեդովը աշխատանքի նշանակվեց հարազատ գյուղի դպրոցում:

Մեկուկես տասնամյակ... Մանկավարժական գիտելիքները լիովին տիրապետելու համար այդ ժամանակը այնքան էլ երկար չէ, մանավանդ, եթե նկատի առնենք, որ ուսումնական յուրաքանչյուր տարի, յուրաքանչյուր դասապրոցես նոր խնդիրներ, չլուծված նոր հարցեր են դնում մանկավարժի առաջ:

Ջանասիրությունը, նվիրվածությունը ընտրած մասնագիտությանը, երիտասարդ ուսուցչի առաջ նպատակ դրեցին դեպի երեխաների բազմահոգիները: Նա լավ է գիտակցում, որ առարկ
ակատամբ սեր առաջացն
համար նախ և առաջ պետ
կարողանալ ճանաչել,
փանցել յուրաքանչյուր սա
ռոի հոգին, հաշվի առնել
նախասիրությունները: Անհ
ինչու երբ հաղորդած դաս
աշակերտները ունկնդրում
կլանված ուշադրությամբ,
դեն դասին յուրացնում են
հաղորդված թեման: Պատ
նական չէ, որ միայն անց
տարի երբ նախկին երեք
ները, ավարտելով բարձ
գույն ուսումնական հաստ
տություններ, ֆիզմաթի
սուցչի որակավորումով աշխ
տանքի նշանակվեցին տար
դպրոցներում:

Ուսումնական նոր տար
Արջուտի դպրոցում ութ նոր
վարտ ուսուցիչներ են աշխ
տում: Եվ Մասիմ Մամեդո
նրանց առաջին խորհրդատ
է, օգնողը: Հանախակի լսու
նրանց դասերը, մեթոդակ
ցուցումներ տալիս...

Շ. ԴԻԼԲԱԶՈՎ

Məqalə **"Məşğələnin başlanması kömək"** *adlanır. Rayonun "Quqark" qəzetində Arçut kənd orta məktəbinin təlim-tərbiyə üzrə direktor müavini Məsim Məmmədovun nümunəvi işindən danışılır.*

BURAXILIŞ MƏZUNLARININ MÜXTƏLİF İLLƏRDƏKİ VENETKA ŞƏKİLLƏRİ

Şagirdlər öz müəllimlərinin həzm etdikləri ilə qidalanır.

K.Kraus

1971-72-ci dərs ilinin buraxılışı X[a]



1971-72-ci dərs ilinin buraxılışı X[b]




1958-1959
ВЫПУСК 1967-68. АРЧУТСКОЙ СРЕДНЕЙ ШКОЛЫ


Ю. КАЗИЕВ
ВОЕНРУК
Р. ГАСАНОВ
ОРГАНИЗАТОР
М. АЛИЕВ
ДИРЕКТОР
М. МАМЕДОВ
ЗАВУЧ.
Н. БАЙРАМОВ
ИНСТРУКТОР
А. МАМИШЕВ
КЛ. РУК. 10-Д
Л. АБДУЛЛАЕВ
КЛ. РУК. 10-Б
А. АЛИЕВ
КЛ. РУК. 10-В
Н. АЛИЕВ
М. ЧАЛТИКОВ
Ш. ДИЛБАЗОВ
Ш. БИННАТОВ
Г. АЛИЕВ
В. КУРБАНОВ
Выпускники
Арчутской средней школы
гугаркского района
1975 — 1976


ВЫПУСК
АХУТСКОЙ СРЕДНЕЙ ШКОЛЫ КИРОВАКАНСКОГО Р-НА АЗ.ССР
1970-1977


ВЫПУСК АРЧУТСКОЙ СРЕДНЕЙ ШКОЛЫ
им. М. Ф. АХУНДОВА ГУГАРКСКОГО Р-НА
АРМ. ССР 1969-70 УЧ. ГОДА
ДИРЕКТОР
ЗАМ. ДИРЕКТОР
ЗАМ. ДИРЕКТОР
УЧИТЕЛЬНИЦА
ЗАМ. ДИРЕКТОР
ПРЕДС. ПРОФКОМА
ВОЖАТЫЙ
РАБУНОР


ARÇUT KƏNDİNİN XƏRİTƏDƏ YERİ

Pəmbək mahalı 1889-cu ildə






Kirovakan
Vanadzor
Gyumri
Hrazdan
Archut
A328
A310
A304
P50
Tsakhkashat
Kozman
Ovnanadzor
Mgart
Karinjzh
Debet
Ankadzor
Tandzut
Papanino
Dilijan
Gosh
Golovino
Tsovagyugh
Kakavadzor
Sevan
Ch'kalovka
Tsovazard
Nerin-Chambara
Kalavan
Dprabak
Aghavnavank'
Geyarchin
Akhkikhli
Turdzhan
Agdan
Tala
Verin Karmir
Tsaghkavan
Lusadzor
Tsrviz
Barkhudarlu
Dzhafarli
Qizilhacili
Musakey
Urkmazi
Kruglaya Shishka
Ilmazlu
Meghvahovit
Katnarat
Kuybyshev
Kurt'an
Lusakhpyur
Karadzor
Lernapat
Lernantsk
Khndzorut
Margahovit
Gyulludara
Karakala
Karmir-Ovit
Vardenis
Norashen
Apnagyukh
Arai
Artavan
Nigavan
Khnaberd
Sangyar
Ankavan
Dzhamushlu
Gekharot
Tsilkar
Tsakhkaber
Karnut
Dzhadzhur
Mets Parni
Lernapar
Norashen
Vardakar
Aygabats
Bayandur
Voskeask
Shirak
Ketl
Gyullibulag
Aregnadem
Alvar
Kazanchi
Sizavet
Noramut
Zuygakhpyur
Salut
Sarapat
Saragyukh
Orom
Nor Kyank
Lusakert
Tufashen
Maralik
Sarakap
Dztankov
Isaakyan
Mastara
Shgarshik
Suser

Pəmbək Mahalı



Pəmbək və Bazum dağ silsilələri arasındakı ərazini əhatə edir.Pəmbək şəhərindən Göycə gölünün şimal-qərb hissəsinə qədər uzanır.Ən hündür zirvəsi 3101m-dir.Ermənistan SSR-nin rayonlaşdırılması zamanı ərazi əsasən Hamamlı və Böyük Qarakilsə rayonları arasında bölüşdürülmüşdür.Bu yerlər tarixin müəyyən mərhələsində Borcalı Xanlığına daxil olub.


Arcut kəndinin Baş planı
C
I
D
R
A
Şərti göstəricilər
Məscid
Mağara
Məktəb
Fabrik
Poct - klub
İdarə
Fermalar
Məişət evi
Qəbirstanlıq
Armud ağacı
Ağaseyid ocağı


AZƏRBAYCANLILARA QARŞI ERMƏNİSTANIN APARDIĞI DEPORTASİYA,ETNİK
Təmizləmə, SOYQIRIMI SİYASƏTİ və HƏRBİ TECAVÜZÜNÜN NƏTİCƏLƏRİ (1948-53;1988-94)
Qərbi Azərbaycanın işğalı
1988 2008
ERMƏNİSTAN RESPUBLİKASI
İRAN İSLAM RESPUBLİKASI
AZƏRBAYCAN RESPUBLİKASI
BAKI
İrəvan
Naxçıvan

MÜNDƏRİCAT

Tərcümeyi-hal....4
Ön söz....13
Məmmədov Namiq....19
Əliyev Məhəmməd....28
Məmmədov Məmməd....38
Məmmədov Xatalı....38
Allahverdiyev Bayram....47
Həsənov Əkbər....50
Qazıyev Yusif....53
Abdullayev Lətif....63
Qasımov Rəşid....66
Məşədiyev Məcid....69
Həsənov Alxas....72
Həsənova Gülavər....75
Çəltikov Qiyas....81
Çəltikov Məmməd....86
Orucov Məhərrəm....93
Əhmədov Qədim....99
Yolçuyeva Gülşən....110
İbrahimov Qədim....113
Əhmədova Mahinurə....120
Mustafayeva Dilarə....123
Məşədiyeva Qəmər....126
Yusifov Salman....133
Rəfiyev Sayad....136
Yusifov Salman....139
Məmmədov Eldar....141
Rəcəbov Aydın....144
Nəbiyev Teymur....147
Əliyev Cavanşir....153
Məmmədov Lütfiyar....156
Məmmədov Hüseyn....164
Ələsgərov Şükrət....167
Əhmədov Əli....171
Musayev İsmixan....175
Qurbanov Sədi....178
Eminov İsbəndiyar....181

Əliyeva Laçın 184
Qazıyev Abuzər 188
Məmmədov Həmzə 191
Nəbiyev İsmayıl 193
Məmişov İmran 197
Əbilov İsmixan 200
Məşədiyev Abbas 206
İsayev Mübariz 209
Süleymanov Məcid 212
Məşədiyev Kamil 215
Musayev İsrafil 219
Alıyev İlyas 222
İsmayılov İmdad 225
Cəfərov Şamil 228

AİLƏ XATİRƏ ŞƏKİLLƏRİ 231

PEDAQOJİ FƏALİYYƏTİ İLƏ BAĞLI ŞƏKİLLƏRİ 236

TƏLƏBƏLİK VƏ İNSTİTUT İLLƏRİNƏ DAİR ŞƏKİLLƏR 249

İRƏVAN TƏKMİLLƏŞDİRMƏ İNSTİTUTUNDA FƏALİYYƏTİ İLƏ ƏLAQƏLİ ŞƏKİLLƏR 255

İSTİRAHƏT ŞƏKİLLƏRİ 262

KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNDƏ MƏSİM MÜƏLLİM HAQQINDA MƏQALƏLƏR 270

BURAXILIŞ MƏZUNLARININ MÜXTƏLİF İLLƏRDƏKİ VENETKA ŞƏKİLLƏRİ 277

ARÇUT KƏNDİNİN XƏRİTƏDƏ YERİ 283

ƏFLATUN MƏSİM oğlu
MƏMMƏDOVUN

MƏSİM MÜƏLLİMİN

ŞƏRƏFLİ ÖMÜR YOLU